
F. Ağasıoğlu
Daşbaba

F. Ağasıoğlu

# DAŞBABA

TÜRKÜN DAŞ YADDAŞI



**BAKI – 2013**

**Elmi redaktor:** ***Dr. Seyfəddin Altaylı***
**Redaktor:** ***Həlimə Rzaquliyeva***

**F. Ağasıoğlu. Daşbaba. Bakı, 2013. «………» nəşri, şəkillərlə 138 səh.**

Qədim türk tarixinin izləri bəngüdaş üzərindəki yazılarda, qayaüstü rəsmlərdə göründüyü kimi, türkün daş yaddaşı da minillər boyu ayrı-ayrı bölgələrdə daşdan yapdığı daşbaba, daşnənə, daşat, daşqoç, daşmaral, daşbalıq, daşbağa kimi plastik daş bədizlərdə (heykəllərdə), fiqurlarda yaşamaqdadır və həmin yaşantını əks etdirən bəlgələrin yorumu bu bitikdə verilmişdir.

Ön Asiyada 5-6 minil öncə prototürk boylarının etnoqrafiyasında yaranan daşbaba gələnəyi, buradan türk boylarının köçü ilə Qıpçaq çölü boyunca Avropaya və Altaya yayılmışdır. Ən qədim örnəkləri Azərbaycan və Türkiyədə bulunan daşbabalar qədim türk tarixi, etnoqrafiyası, mifologiyası baxımından önəmli bəlgələr kimi sistemli şəkildə yeni türkoloji Urmu teoriyası işığında araşdırılmış, sonuclar elmi-populyar üslubda verilmişdir.

**© Ağasıoğlu**

**BAŞLIQLAR**

Önsöz 4

Giriş 5

**I Bölmə**. Türkün daş kultu, daş tarixi 13
- Kurqan kulturu 13
- Dikilidaş 20
- Yada daşı 26
- Daşqoç 28
- Daşat 31
- Daşmaral 34
- Daşbalıq 37
- Daşbağa 38

**II Bölmə**. Türkün daş yaddaşı 41
- Sındaş. Başdaşı 41
- Bəngüdaş. Bitikdaş 45
- Bədiz (heykəl) 48
- Balbal 55

**III Bölmə**. Daşbaba 58
- Daşbaba gələnəyinin qaynağı 58
- Türk Atayurdunda daşbaba gələnəyi 64
- Daşbaba gələnəyinin yayılması 89
- Daşbaba türləri və üzərindəki nəsnələr 112

Sonuc 123

Qaynaqlar 133

## ÖNSÖZ

Orta əsrlərdə İrtış çayından Dunay çayına qədər uzanan Qıpçaq çölü boyunca yayılan *daşbaba gələnəyi* hələ o çağlarda bu bölgələrdə olan səyyahların diqqətini çəkmişdi. Bu dikilidaşlar çağdaş tarixçilərin də gözündən yayınmamış, onların öyrənilməsi üçün çoxlu araşdırma aparılmışdır. Ancaq daşbaba gələnəyinin mənşəyi və anlamı haqqında hələlik ortaq yozuma varılmasa da, bu gələnəyin türk boylarına məxsus olması fikri artıq elmi ədəbiyatda qəbul olunmuşdur.

Türklərin qutsal saydığı daşbabalar adətən katakomb və kurqan basırıqlarında rast gəlinir. Tunc çağı antropomorf dikili daşlar sonrakı Saqa, Kuman-Qıpçaq çağında daşbaba və daşnənə görkəmində davam etmişdir. Ancaq daha qədim çağlara aid daşbabaların Azərbaycan və Türkiyədə bulunması bu gələnəyin mənşəyini, ilkin yarandığı bölgəni elmi ədəbiyatda ənənəvi olaraq türklərin atayurdu sayılan Altayda deyil, prototürk atayurdunun Ön Asiyada olduğunu ortaya çıxaran Urmu teoriyasına uyğun olaraq, elə burada axtarmaq gərəkir, cünki daşbaba gələnəyi türk boylarının köçü ilə Avropaya da, Altaya da Ön Asiyadan aparılmışdır. Daşbabaların yayılma coğrafiyası türk boylarının köç etdiyi yönləri, yurd salıb yaşadığı bölgələri göstərən önəmli tarixi bəlgə, onların görkəm tipologiyası və kanonik ikonoqrafiyası isə etnogenez araşdırmalarında etnik atribut kimi əvəzsiz tutalqa sayılır.

Urmu teoriyası işığında daha gerçək üzü ilə görünən mifologiya, etnoqrafiya, arxeologiya bəlgələri sırasında türklərin daşbaba gələnəyi tutarlı tutalqa olmaqla yanaşı, Azərbaycandan Qıpçaq çölünə yönələn türk boylarının həmin bozqırlara türk tarixinin daş yaddaşını da daşıdıqlarını sərgiləyir. Bu sərgidəki bəlgələrlə tanış olmaqda Sizə bələdçilik edən əlinizdəki Bitik isə elmi iddialardan uzaq olub, minillər boyu çöllərdə daha da qarımış Daşnənə, qocalmış Daşbaba bədizlərinə, bu sahədə araşdırma aparan uzmanların əldə etdiyi bəlgələrə və bilgilərə mənim baxışımla baxmaq amacı daşıyır.

**Bakı-Xızı, 2010**

## GİRİŞ

Türk etnosunun qədim tarixinə işıq salan bəlgələr sırasında daşbaba gələnəyi önəmli yer tutur. Bu yöndə aparılan araşdırmalarda doğru və yanlış yorumlar, alınan nəticələr bir daha gözdən keçiriləndə alınan sonuclar Urmu teoriyasının prototürklərin Atayurdu kimi təsbit etdiyi Ön Asiyadan olan miqrasiyalarla daşbaba gələnəyinin Avrasiya çöllərinə yayılma çağlarını və yönlərini aydınlatmağa yardım edən bilgiləri də artırdı. Həm də bəlli oldu ki, bəlgələr artdıqca türk mifologiyasındakı daş kultu etnoqrafik daş nəsnələrin ayrı-ayrılıqda deyil, yalnız sistemli şəkildə öyrənilməsi ilə aydınlaşa bilir. Ona görə də, bu bitikdə əsas mövzu daşbaba gələnəyi olsa da, balbal, mengir kimi dikilidaşlar, daşbaba gələnəyilə birbaşa bağlantısı olan kurqan kulturu və basırıq gələnəyində daşdan yonulmuş mahiyətcə daşbaba ilə oxşar at, qoç heykəlləri və daşbaba gələnəyinin Azərbaycandan ətraf ölkələrə yayılma yönlərinə işıq tutan başqa daşişləmə nəsnələrindən də danışmaq gərəkir.

Azərbaycanda daşişləmə gələnəyinin tarixi ilkəl insanların ilk daş alətləri hazırlaması tarixindən başlanır. Kəsmə, deşmə, yonma və qaşıma üçün daş qəlpələrdən hazırlanan bəsit alətlər dövründən daşla təmasda olan insanoğlu daşişləmə sənətini bugünəcən yaşadır, indi texnologiyanın imkan verdiyi alətlərlə daşlar yonulur, oyulur, hamarlanır, ona gözəl bəzəklər vurulur. Bəzi yonulmuş basırıq daşlarına at, qoç, maral, quş və başqa añ (heyvan) fiqurları da həkk olunur.

Hörgü daşının üzdən gobud şəkildə *qaraçapma* üsulu ilə yonulması geniş yayılmışdı. Daşların qaraçapmadan sonrakı hamarlanma mərhələsi *dişəmə* və *cilalama* üsulu ilə aparılırdı. Formalarına görə yonulmuş daşlar *buruq, yastığı, qurdqula-*

*ğı, məməli, tağ* və sair terminlərlə fərqlənir. Tarixən daşyonma sənətində ixtisaslaşma getdiyindən daş ustaları daşkəsən, bənna, həkkak, şəbəkəçi, heykəltəraş sənətləri üzrə ayrılmışlar. Daşçıxarma sahəsində daşın damarını tapıb onu bir neçə yerdən bölməyi bacaran daşkəsən ustalardan fərqli olaraq, bənnalar tikintidə adi divar hörgüsündən tutmuş möhtəşəm dekorativ elementlərlə memarlıq abidələri tikir, həkkaklarsa sənduqə, başdaşı, balbal, epitafiya və inşaatda dekorativ bəzəklərlə uğraşır, bədizçilər (heykəltəraş) daşbaba, memorial və monumental abidələr üzərində işləyirdi. Bundan başqa, dəyirman daşı, su daşı kimi daşişləmə sahələrinin də öz daş ustaları vardı.

Göründüyü kimi, Azərbaycanda daşişləmə sənəti bəsit əl aləti formasından sanballı monumental əsərlərə, mükəmməl dekorativ şəbəkələrəcən insanlıq tarixi qədər böyük zamanla uzun yol keçmişdir. Orta çağlaracan daşişləmə sənəti daş tapınaqlar, möhtəşəm qalalar, saraylar, vənglər, xaçdaş, qoç daş, at daş, sudaşı, dəyirman daşı, daşbaba, başdaşı, hazırlanması üzrə yayılmışdır. Daşdan yonulmuş fiqurlar uyğun olaraq burada *daşqoç, daşat, daşmaral, balbal, daşbaba, sındaş*, *daşnənə* (*daşana*), *bəngüdaş* kimi adlarla adlanır.

N.İ.Veselovskinin hələ 1915-dəki «*Daşbabalar və ya balballar sorununun çağdaş durumu*» adlı yazısında deyilir ki, daşbabaların anlamını və yaranma nədənini tapmağa cəht edən ayrı-ayrı sahə uzmanlarının saysız araşdırmaları olsa da, rus arxeologiyasında daşbabalar (*kamennıe babı*) sorunu qədər qaranlıq və dolaşıq bir məsələyə çətin ki rast gəlmək olar.[1] Nə yazıq ki, bu deyimdən yüzil sonra da sorunun durumu dəyişməmişdir, baxmayaraq ki, həm tapılan abidələrin

---

[1] *Веселовский,* 1915, 3.

sayı artmış, həm də bunları araşdıran üç yeni nəslin yüzlərlə yazıları çap olunmuşdur.

Göytürk yazılarında daşbaba gələnəyi haqqında verilən bilgidən bəlli olur ki, ölənin heykəlinə *bədiz*, onu düzəldən heykəltəraşa isə *bədizçi* deyilir. Yazılı qaynaqdan aydın olur ki, 731-də ölən Kültiginin yuğ törənində artıq onun bədizi hazır imiş.[2] Belə türk gələnəyini Çin qaynağı da qeyd edir.

Türklərin əsas etnoqrafik bəlgələrindən olan *daşbaba* gələnəyi elmi ədəbiyatda uzun müddət yanlış yozulmuşdur. Hətta, «Altayda qədim türk daş heykəlləri» (1984) və «Ulandırık kurqanları» (1987) adlı iki sanballı kitabın yazarı arxeoloq Vladimir Kubaryev birinci kitabın özətində «*Altayda önəmli hissəsi müəllif tərəfindən tapılıb tədqiq olunan* ***qədim türk*** *daş heykəllərinin tam təsviri bu monoqrafiyada verilmişdir*» yazsa da, üç il sonra nəşr olunan kitabı bu cümlə ilə başlanır:

> *«Altayda m.ö. VII-III əsrlərdə geniş yayılmış pazırıq kulturuna aid abidələr bir çox alimlərin də dediyi kimi avropoid* ***irandilli boylara*** *məxsusdur».*[3]

Eyni ərazidə aralarında zaman fərqi olsa da, eyni tipli türk atlı və bükülü basırıq gələnəyi irandilli etnosa necə aid ola bilər? Görünür, yazar avropoid saqaları türk saymağa cəsarət etmir, halbuki kurqan və at basırıqlı saqa boyları Altaya Avropadan deyil, Ön Asiyadan gedən avropoid prototürklərin bir qolu idi. Cəvahirləl Nehrunun sözlərilə desək, «saqalar türklərin böyük köçəri boylarından idi».[4]

---

[2] *Orkun,* 1994, 52.

[3] *Кубарев,* 1984, 1987.

[4] *Неру Дж.*, I. 1981, 129.

Arxeoloji-etnoqrafik və yazılı qaynaqlar daşbaba gələnəyinin türklərə aid olduğunu aydın göstərsə də, prototürklərin atayurduna Altay teoriyası ilə baxan bəzi yazarlar bu daş heykəllərin Avropada qədimini irandillilərə, sonrakıları isə türklərə aid edir. Doğudakı daşbaba gələnəyinə isə hətta monqolları da şərik qoşanlar vardır. Halbuki, L. R. Kızlasov doğru olaraq yazır ki, monqolların basırıqlarında daş heykəl qoyulması haqqında bəlgə yoxdur.[5]



Bəzi daşbaba bədizi üzərindəki yazının (epitafiyanın) türkcə olması da aydın göstərir ki, daşbaba yalnız türklərə aid gələnəkdir. Xakas elində bulunan daşbabanin üzərində türk damğası və göytürk yazısı örnəyində bunu aydın görmək olur. Türgiş elində bu yaşlı bəyin hələ 26 yaşında ikən Karaxanın yanında görəv alması bədizin arxasındakı epitafiyada sağdan sola belə yazılmışdir:

*Kara kan içreki ben Ezgene altı otuz yaşıma erti. Ben öltim Türgiş el içində beg ben bitig.* [6]

Daşbaba gələnəyinin qaynağı və onun yayılma yönləri Urmu teoriyası işığında aydınlaşa bilir. Bu yöndə aparılan araşdırmadan aydın olur ki, Güney Avropa və Güney Sibir bozqır və yaylalarına aparılan daşbaba gələnəyi Ön Asiyadakı prototürk bölgələrindən m.ö. IV minilin ortalarından başlanan miqrasiyalarla bağlıdır. Ona görə də, daşbabalara ancaq

[5] *Кызласов*, 1964, 32.
[6] *Orkun,* 1994, 580.

türk boylarının yerləşdiyi bölgələrdə və türklərin həmin bölgələrdə yaşadığı çağlarda rast gəlinir.

Musa Kağankatlı Alban eli ərazisində yaşayan uzun saçlı boyların daşdan heykəllər yonub ona sitayiş etdiklərini, qoç, at, sığır qurbanları verdiklərini vurğulamışdır. Azərbaycan ədəbiyatında daşbaba haqqında bilgi verən Nizami Gəncəvi «İskəndərnamə» əsərində yazır ki, türk boylarının qoyduğu bu dikilidaşlara səcdə edənlər ona hörmətlə yanaşır, yanından keçən hər bir atlı qıpçaq bura bir ox sancır, çobanlarsa sürüdən ona bir qurbanlıq qoyun ayırır. Bu bəlgənin Azərbaycan türkcəsinə tərcümələri zəif olsa da, K. Lipskerovanın rus dilinə çevirisi daha uğurlu alınmışdır: [7]

И приходят кыпчаков сюда племена,
И перед идолом гнётся кыпчаков спина.
Пеший путник придет или явится конный,
Покоряет любого кумир их исконный.
Всадник медлит пред ним, и коня придержав,
Он стрелу, наклонясь, вонзает меж трав,
Знает каждый пастух, мимо гонящий стадо,
Что оставить овцу перед идолом надо. [14. 354]



Göytürk dövlətinin batıda uc bölgəsi Azaq dənizinin güney yaxasında Tumutarkan kəndi vardı. «İqor polku haqqında dastan» ilk dəfə buraya ayaq basan rusların da azman daşbaba bədizini görüb, ona heyrətlə *Tmutarakan istukanı* deməsini vurğulamışdır. Bu bölgələrdə m.ö.VI əsrdən saqaqamər, sonra hun, daha sonra bulqar, ondan sonra xəzər və

---

[7] *Низами Гянджеви,* 1991, 758.

daha sonra monqol axınlarına qədər qıpçaq (kuman) boyları yaşamışlar, ona görə Rusiya və Ukraynanın güney çöllərinə yayılmış yüzlərlə daşbaba başqa xalqa deyil, adı çəkilən türk boylarına aiddir.

Yunan qaynaqları (Ktesi, Siciliyalı Diodor) qeyd edir ki, saqa boylarından biri özlərinin qadın hökmdarı *Zarına* (Sarıana) üçün geniş özül üzərində qurulan kurqanda onun böyük heykəlini qoymuşlar.[8] Çin qaynaqlarında da türklərin daşbaba və balbal gələnəyi haqqında bəlgələr vardır. Belə bəlgələrə Göytürk yazılarının özündə də rast gəlmək olur.[9]

İbn-Fadlan oğuz (quz) boylarında öldürülən düşmənin sayına uyğun ağac balbal qoyulmasından danışsa da, daşbaba gələnəyini qeyd etməmişdir. Görünür, xristian kumanlardan fərqli olaraq, o çağda bəzi oğuz boylarında artıq bu gələnək aradan çıxmışdı. Əbul Qazi Bahadır xan (XVII) isə ölənin kiçik heykəlini düzəldib evdə saxlamaq gələnəyini qeyd edir.

XIII yüzildə Plano Karpini və Vilhelm de Rubruk kimi bəlli səyyahlar da türk ellərində gördükləri daşbaba gələnəyindən bəhs etmişlər. Roma papasının 1253-də doğuya elçi kimi göndərdiyi V. Rubruk qıpçaq yurdlarında gördüklərini yazaraq qeyd edir ki, kumanlar (qıpçaqlar) ölülərinin məzarına ət və qımız qoyur, məzarın üstündə ev sayılan bir təpə qurub üzərinə də üzü doğuya olan və *əlindəki kasanı göbəyi üzərində tutmuş bir insan heykəli* dikəldirlər, zənginlərin məzarında belə təpələr böyük piramidanı xatırladır.[10] Eyni durumu təsvir edən P. Karpini də vurğulayır ki, hər dəfə bir heyvan kəsəndə bu heykəllərin payını gətirib onun qarşısına qoyurlar.

---

[8] *Массон,* 1953, 27.
[9] *Бичурин,* I. 230; *Orkun,* 1994, 52.
[10] *Путешествия,* 1957, 129-130.

Kurqan üzərindəki daşbabalar bir müddət doğu ölkələrdə yaşayan məşhur rus rəssamı N. K. Rerixin gözündən də yayınmamışdır, orada rast gəldiyi daşbalardan bir neçəsinin şəklini də çəkmişdir:







Daşbabaların toplanıb siyahıya alınması XIX əsrdən başlansa da, onların sistemli şəkildə tədqiqi XX əsrin əvvəllərindən başlanır və bugünəcən davam edir. Təkcə Don ilə Dnepr cayları arasında 330-dan artıq daşbaba və başqa dikilidaşlar qeydə alınmışdır, lakin vaxt axarında yağmur altında aşılanan, dağıdılan və muzeylərə daşınanlar da az deyil. Daşbaba gələnəyi doğudakı türk yurdlarında (Altay, Tuva, Xakas) geniş yayıldığı üçün oralarda daha çox sayda qalmışdır, Qırğız elinin Tokmak bölgəsi isə (Burana kəndi) bu daşbaba gələnəyini son vaxtlaracan saxlamışdır.

Altay dilində daşbaba *kezer-taş, kezer kiji taş* adlanır. Uzmanlara görə, burada bədiz və daşbaba ilə bağlı *kiji-taş, kurtıayak-taş, kiji-kurtayak-taş* deyimləri də işlənməkdədir. Daşbabaya *xun çulu* (daş adam), *xöşö çulu* (daş kişi) deyən qonşu monqollardasa *xun* «adam», *xöşö* «kişi», *çul* isə «daş» anlamındadır.[11] Onlar maraldaşa da *buqan-çuluu* deyirlər.

Ümumiyətlə, elmi ədəbiyatda daşbaba və başqa dikilidaşlarla birbaşa və dolayı bağı olan terminlərin də hansı anlamda işlənməsini gözönünə almaq gərəkir, çünki bu bitikdə əsas mövzu daşbaba olsa da, daşbaba gələnəyinin mahiyətini anlamaq üçün digər daş nəsnələri haqqında da müəyən

[11] Monqol dili kimi, l~ş dialekt fərqi ilə çuvaş dilində də daşa *çul* deyilir.

bilik əldə edilməlidir. Belə ki, rusca elmi ədəbiyatda balbal *bolvan*, daşbaba, daşnənə *izvayaniya, istukan, kamennaya baba*, *kamen devka* (daşqız) adlanır. Avropa dillərində isə daşbaba *antropomorf*, balbal *stel* adlanır, yunanca *böyük daş* (μέγας λίθος) anlamlı *meqalit* sözü işlənir, tək dikilidaşa *mengir*, başı T formalı mengirlər qurumuna *taula*, mengirlərlə qurulmuş dairə və yarımdairəyə *kromlex*, üzərinə sal daş qoyulmuş dikilidaş qurumuna *trilit*, dam formalı daş quruma *dolmen,* kurqana *tumulus,* daş kurqana *kairi*, daş qurumlarına *seyd* deyilir. Məşhur Stounhenc (*Stounhenge*) meqalit qurğusunun adındakı ikinci hissənin (*henge*) anlamı bəlli deyil.

Türklərin daşbaba gələnəyi indiyəcən yalnız bölgələr üzrə öyrənildiyindən hər uzman müəyən bölgədəki daşbaba bədizlərinin boy ölçülərini, görkəm tiplərini, üzərindəki detalları elmi metodlarla dəqiq təsvir etmişdir.[12] Ancaq daşbaba gələnəyi bütövlükdə tarixi-müqayisəli metodla və bütöv sistem daxilində öyrənilmədiyindən onun ilkin yaranma çağı və amacı, yaranma yeri və sonra böyük çoğrafiyada yayılma səbəbləri, türk basırıq kulturu ilə bağlı mifoloji-etnoqrafik semantikası hələlik tam aydınlaşmayıb. Bu baxımdan, ayrı-ayrı uzmanların topladığı çoxsaylı daşbaba bədizlərinə aid faktik materialdan yararlanaraq, burada sadalanan sorunlara bu bitikdə imkan daxilində aydınlıq gətirmə amacı güdülür, çünki türklərin daş yaddaşını minillər boyu yaşatmış daşba-

---

[12] *M. L. Ingraham, G. Summer, F. M. Muradova, V. Sevin, A. Schachner, D. Y. Telegin, M. Xəlilov, Н. И. Веселовский, Р. М. Ваидов, Р. Б. Гейуше , Н. М. Гулиев, Д. Г. Савинов, В. Е. Войтов, А. Д. Грач, Я. Р. Дашкевич, Э. Трыярски, Л. А. Евтюхова, В. Д. Кубарев, А. А. Иессен, Г. Л. Евдокимов, Л. Р. Кызласов, В. С. Ольховский, Л. Л. Галкин, С. А. Плетнева, Расим Эфенди, С. А. Уваров, О. Д. Форостюк, Я. А. Шер, Г. С. Чириков* və digər uzmanların əsərlərindən, oradakı faktik materialdan yararlanmağımız nədəniylə onlara minnətdarıq.

baların Urmu teoriyası işığında verəcəyi bəlgələr və bilgilər türk etnosunun tarixi üçün çox önəmlidir.

I Bölmə

# TÜRKÜN DAŞ KULTU, DAŞ TARIXI

Türk xalqları da başqa etnoslar kimi qədim daş dövrü çağlarından hər gün təmasda olduğu, yemək və qorunmaq yaşamında özəl yeri olan daşa böyük önəm vermişlər. Ona görə də, türk inanc sistemində yaranan ilkin kultlardan biri də *daş kultu* olmuşdur. Yağış yağdıran *yada daşı* inamı son çağlara qədər davam etdiyi kimi, ölən adama obiri dünyada gərəkli olacağı inamı ilə basırığının yanına qoyulan daşqoç, daşat, daşbağa bədizləri gələnəyi də bəzi türk bölgələrində son yüzillərə qədər saxlanmışdır.

Dünyanın bir sıra bölgələrində görünən, daha qədim çağlara aid olan böyük ölçülü dikilidaşların hansı məqsədlə qurulması haqqında isə hələ ki uzmanlar arasında ortaq fikir yoxdur. Olsun ki, piramidaların gerçək sirri açılanda *Göbək-litəpə* (Türkiyə), *Qoşundaş* (Azərbaycan), *Stounhenc* (Britaniya) kimi meqalit abidələrin yaranma amacı aydınlaşsın. Hər halda kurqan gələnəyilə piramidalar arasında bir bənzərlik vardır. Yuxarıda sadalanan daş qurğuların çoxu kurqan gələnəyilə bağlıdır. Ona görə də, kurqanlara aid bəlgələrin üzərində bir az geniş dayanmaq gərəkir.

### KURQAN KULTURU

Kür-Araz arxeoloji kulturu ilə ortaya çıxan basırıq türləri içində kurqan basırıqları türklərin Atayurdu olan Azərbaycandan ətraf bölgələrə yayılmışdır. İlkin miqrasiyaların m.ö. IV minilin ortalarından quzey və doğu yönləri araba gə-

lənəyi kimi, kurqan kulturunu da Orta Asiyanın bölgələrinə və Quzey Qafqaz üzərindən Avropanın güney-doğusuna daşımışdır. Kurqan kulturunun yayıldığı alanlarda daşbaba və daşnənə gələnəyinin ortaya çıxması doğaldır, çünki bunların




1. Tsarskaya; 2. Kurjips; 3. Kelermes; 4. Kostromskaya; 5. Ulskiy; 6. Yelizavetinsk; 7. Yeddi-qardaş; 8. Karaqodenaşx; 9. Çar kurqanı; 10. Altın-oba; 11. Xersones; 12. Oğuz; 13. Tsımbalka; 14. Soloxa; 15. Nikopol; 16. Çertomlık; 17. Aleksandropol; 18. Melqunov; 19. Smela; 20. Rıjanovka; 21. İlintsı. (Райс 2003, 103)

türk basırıq kulturu ilə bağlılığı artıq elmi dairələrdə quşqu doğurmur.

Qazma torpaq (xəndək) basırıqda ölünün ətrafını daşlarla və ya ağac tirlərlə bağlayıb üstünə torpaq, daş və ya daşla torpaq birlikdə yığılır, belə qabarma basırıqlar kiçik təpəcikdən böyük təpələrə qədər müxtəlif hündürlükdə olur. Belə basırıq təpələrinə *kurqan* deyilir və kurqan gələnəyi m.ö. IV minildən başlayaraq islamaqədər, bəzi bölgələrdəsə XV əsrəcən davam etmişdir. Əvvəllər bəsit forması və basırığa qoyulan əşyaların qıtlığı ilə seçilən kurqanlar get-gedə

böyük forma almış, ölünün yanına qoyulan nəsnə çeşidləri artmışdır. Daha möhtəşəm görünüşü və zəngin bəzək nəsnələrilə heyranlıq doğuran kurqanlar isə m.ö. I minilin əvvəlindən başlayaraq ən çox saqa boylarının yaşadığı bölgələrdə ortaya çıxır. Krımda, Qara dənizin quzey çölləri və Azaq dənizi yaxaları boyunca qədim qamər və saqa boylarından qalma çoxlu kurqan vardır. Zaporojye-Dneprepetrovsk bölgələrində bu kurqanlara *kazak,* Xersonda *tatar,* Krımda *türk* qəbri deyilir. Xerson vilayətinin Aşağı Seroqoz qəsəbəsindəsə hündürlüyü 20 metr olan bir möhtəşəm saqa kurqanı *Oğuz kurqanı* adlanır. [13]




Almata yaxınlığında m.ö.V-IV əsrlərə aid edilən *Issık* kurqanından çıxan altun geyimli qızın şahanə geyim-kecim görkəmi, mifik simvolika ilə bol olan çeşidli bəzək nəsnələri, basırığa qoyulan qab-qacaq, üzərində türk runik yazısı olan gümüş qab türk (saqa) kurqan gələnəyinin bariz örnəyi kimi arxeologiyanın türkologiya elminə verə biləcəyi XX əsrin ən

---

[13] *Лесков,* 1981, 3, 161.

dəyərli ərməğandır. Kurqanlar ölçüsünə və basırıqdakı nəsnələrin çeşidinə görə fərqlənir. Bəzi kurqanların diametri 100, hündürlüyü isə 15 metrdən çox olur. Arxeoloq A. İyessen Azərbaycanda hündürlüyü 13, 17 və 21 metr olan *Üçtəpə* kurqanlarını tədqiq etmiş və Mil-Muğan bölgəsindəki kurqanların m.ö. III minilliyə aid olduğunu yazmışdır.[14]




M. Qimbutasa görə, m.ö. IV minildən başlayaraq Azərbaycanda kurqanaltı basırıqlar ortaya çıxır.[15] Tunc çağı boyunca gəlişən kurqanlardan bəzisinin ətrafına dairəvi düzümdə böyük daşlar - kromlex, basırığa yaxın daş heykəl (daşbaba) qoyulurdu. Basırığa məişət və əmək alətləri, silah və bəzək əşyaları ilə yanaşı, kult və inancla bağlı araba fiqurları qoyulması, ölünün baş tərəfinə də kasa, qab düzülməsi gələnəyi artır.

Artıq III minilin əvvəlində basırıqlarda əşyaların qıtlığı və zənginliyi özünü göstərməyə başlayır ki, bu da toplumdakı sosial təbəqələşməni əks etdirir. İcmanın patriarxı və onun ailə üzvləri torpağa dəbdəbəli törənlə tapşırılır.[16] Prototürk uruqları ölülərini qıvrılmış, bükülü formada basırığa qoyur, üzərinə qırmızı oxra tökürdülər. Bütün bu etnik adətlər bütövlükdə prototürk uruqlarının

---

[14] *Иессен,* 1965.

[15] *Gimbutas,* 1970.

[16] Göycə gölü yaxınlığında bir boy başçı ilə birlikdə 11 nəfərin dəfni aşkar olunmuş, belə basırıqlarda başçı ilə yanaşı onun qulluqçularının da basdırıldığı aydınlaşmışdır.

*basırıq kulturu* gələnəyini formalaşdırmış, onlar bu kulturu miqrasiya etdikləri regionlara daşımışlar, türk yas törəninin bir neçə minil Ön Asiyada ucalan səsi artıq tarixin müxtəlif çağlarında Avrasiyanın ayrı-ayrı bölgələrindən eşidilməyə başlamışdır. Türk kurqanlarından tapılan sənət əsərləri bugün dünya muzeylərini bəzəsə də, onları kurqan basırığına qoyanların soyadını dəyişənlər yalnız kurqan ucaldanların ruhlarını incitməklə qalmır, həm də tarix qarşısında, gerçək elmin qınağı qarşısında ağır günah işlətmiş olurlar. Ancaq türkün daş yaddaşı da bügün oyanaraq daşlaşmış tarixin səsini daşbaba ilə duyurmaqdadır.




Kür-Araz kulturu ilə başlanıb 3-4 minil davam edən bu gələnəyin Orta Asiya - Güney Sibir və Quzey Qafqaz - İtil - Tuna bozqırlarına və ovalıqlarına Ön Asiyadan köçən uruqların apardığı heç kimdə şübhə yaratmır.[17] Elmi ədəbiyyatda

[17] Yalnız ruhunu incitmək istəmədiyim İsmayıl bəy Miziyev bu miqrasiyanın əks istiqamətdə baş verdiyini, Kurqan kulturunun yaranma özəyinin isə İtil-Ural arası olduğunu yazır (*Мизиев*, 1986, 30-33; 1990, 13-14). Əlbəttə, bu fikirlə razılaşmaq mümkün deyil, çünki Qafqazdan yuxarı bölgələrdə ortaya çıxan belə arxeoloji abidələr basırıq gələnəyi və metal əşyaları ilə Ön Asiyadan gəlmə idi və bunu əks etdirən bəlgələr elə İsmayıl bəyin öz kitablarında kifayət qədərdir (*Мизиев*, 1990, 26-32).

Kür-Araz kulturuna qədər də mövcud əlaqənin yönü güneydən quzeyə verilir. Belə basırıq kulturu bütöv Avrasiyaya yayıldığı kimi, qədim türklərin *kurqan* sözü də bir çox xalqların dilinə keçmişdir. Hətta, kurqan kulturunu Ön Asiyadan etrusklar İtaliyaya da aparmışlar.




Stounhenc dikilidaş kompleksi yaxınlığında ucalığı 40 metrə çatan *Silberi-Hill* adlı kurqan Avropada ən böyük kurqan sayılır. YUNESKO himayəsi altında qorunan kurqanın təmirinə Britaniya dövləti 2009-da iki milyon funt-sterlinq xərcləyib, aşılanmasının qarşısını almişdir.

Türk yurdlarında olmuş elçilər, səyyahlar burada gördükləri basırıq gələnəkləri haqqında bəzi bilgilər verirlər. 1250-də V. Rubruk yazırdı ki, qıpçaqlar basırığa ət-qımız qoyur, məzarın üstündə ev sayılan bir təpə qurur və üzərinə də üzü doğuya olan bir insan heykəli dikəldirlər, zənginlərin məzarında belə təpələr böyük piramidanı xatırladır. Kurqan gələnəyini daha öncə görmüş İbn Fadlan da belə yazmışdır:

> «Aralarında biri ölürsə, onun üçün evəbənzər böyük çuxur qazır, sonra paltarını geyindirib, kuşağını bağlayır, yayını taxıb önünə taxta qabda çaxır qoyurlar. Əlinə də kasada çaxır verib onu bu otağa oxşayan çuxura qoyub şəxsi əşyalarını da gətirib bura yığırlar. Çuxurun üstünü tavanla örtüb üzərində çamurdan qübbə yapırlar. Bundan sonra ölənin heyvanlarının sayına görə, birdən yüzə, iki yüzəcən qurban kəsirlər. Ətlərini yeyib, başlarını, ayaqlarını, dərilərini və quyruqlarını ayırır,

bunları kəsilmiş ağaclar üzərində qəbrin başına asıb, *bunlar ölənin cənnətə gedərkən minəcəyi heyvanlardır* - deyirlər».[18]

Türk toplumunda basırıq yerlərində önəmli şəxslərin qəbiri sonra pir-ocaq sayılırdı, ora parça-yaylıq bağlanırdı. Bu gələnək indi də davam edir. Kurqan gələnəyisə Azərbaycanda islamaqədər yaşamışdır. Kurqan təsviri bir azər bayatısında belə verilir: *Bir ev tikdim dəyirmi, Pəncərəsi iyirmi. Ölüb hara gedirsən, Bu yurd sənin deyilmi?*

«Oğuznamə» eposu kurqan gələnəyinin yaranmasını Azərbaycanla bağlayır. Rəşidəddin *Azərbaycan* adının tərkibindəki *azər* sözünü «yüksək» anlamı ilə izah edir və yazır ki, Oğuzxan burada olarkən təpə yaratmaq üçün hər əsgərin bir ətək torpaq gətirib bura tökməsinə göstəriş verir, əsgərlərin tökdüyü torpaqdan böyük bir təpə (kurqan) yaranır, Oğuzxan buranın adını *Azərbaycan* qoyur.[19] Q. Hümbətov kurqan gələnəyini Azərbaycan türklərinin soykökü məsələsinə işıq tutan bəlgələr sırasında vermişdir.[20] Kurqan gələnəyi də Kür-Araz arxeoloji kulturunun ayrılmaz tərkibi kim *kurqan* sözü ilə birlikdə bu kulturu daşıyanların miqrasiyası ilə yayılmışdır. Çox güman ki, *kurqan* sözü qədim türkcədəki qoruq yeri, qorunaq anlamında işlənən *koruqan* ( > *kurqan*) sözü ilə ortaya çıxmışdır.[21]




Böyük daşlarla əhatə olunmuş kurqanlarda

[18] *İbn Fazlan*, 36.

[19] *Oğuznamə*, 2003, 31.

[20] *Гумбатов*, 1998.

[21] M. Xorenatsi ataların heykəli (кумиры отцов) anlamında *hayreni kurk* (Ñ³ÛÁ»ÝÇ Ïáõéù) deyimini işlətmişdir. Hay dilində qəbirə, kurqana *gerezman* deyilir. Lukian Samosatlı (125-190) isə «Toksarid və ya dostluq» adlı yazıda skit (saqa) Toksarın dilindən yazır ki, dostluğu hər şeydən üstün tutan skitlər bu gələnəyi himayə edən iyələri *korak* adlandırır (*Хоренацu*, 1858, 296; *АИОСК*, 1990, 137-145).

yerə dikilmiş daşlar elmi ədəbiyatda *mengir* adlanır. Belə dikilidaşlar Xakas elində Taqar kulturu ilə bağlanan məşhur *Salbık* kurqanında da vardır. Salbık kurqanının hələ dağılmamış durumunu əks etdirən bu şəkildə meqalit daşların dövrələmə sıralanması aydın görünür.

### DIKILIDAŞ

Dünyanın müxtəlif bölgələrində düzünə və dairəvi sıralanan böyük daşlara (*meqalit*) rast gəlmək olur. Uzmanlar bunların 5-6 minil öncəyə aid olduğunu desələr də, tonlarla ağırlığı olan bu dikilidaşlarla qurulan komlekslərin təyinatı haqqında ortaq və dəqiq yorum verə bilmirlər. Elmi ədəbiyatda belə böyük dikilidaşlar uzundaş, böyükdaş, bütövdaş, dik duran daş anlamlı *longstone, meqalit, monolit, standing stones* sözlərilə və breton-keltcə uzundaş (*mean hir*) anlamlı *mengir* terminilə verilir.










Mengir gələnəyi Ön Asiya, Qafqaz, İspaniya, Fransa, Böyük Britaniya, Quzey Afrika, Amerika və Sibirin güney və batı bölgələrinə yayılmışdır. Uzmanlar İkiçayarasının quzey-batısında torpaq altından üzə çıxardıqları ***Göbəklitəpə*** tapınağını məşhur ***Stounhenc*** abidəsindən də 7 minil öncə qurulduğunu yazırlar.[22]

---

[22] *Schmidt K.* 2006; *Archaeology Magazine*, Nov/Dec, 2008.

Alman arxeoloqu Klaus Şmitdin 1995-dən başlatdığı qazıntı ilə üzə çıxan Göbəklitəpə kompleksinin 12 minil öncə qurulmuş məbəd olması aydınlaşmışdır. Burada ucalığı 3-6 metr olan T formalı dikilidaşların hər birinin 40-50 ton ağırlığı var. Dairəvi məbədin ortasında 5 metrlik iki dikilidaşın yaxınında olan mengirlərin üzərində aslan, ilan, tülkü, qaban, ördək, buğa, durna fiqurları qabartma üsulunda verilmişdir.




Dünyada hələlik ən qədim tapınaq sayılan Göbəklitəpədəki qazıntıların davam etdiyini nəzərə alsaq, tapınağın tarixi haqqında dəqiqləşmənin hələ tamamlanmadığını düşünmək olar, belə ki aparılan geomaqnit araşdırmalar hələ müəyən hissələrin yer altında qaldığını göstərir. Malta adasında Göbəklitəpə tapınağından 8 minil sonra qurulan qədim tapınaq da vaxtilə İkiçayarasının (Mesopotamiyanın) quzeyində yaranmış tapınağa çöx bənzəyir.

Urfa bölgəsindəki Qaracadağ yaxınlığında Göbəklitəpə tapınağını hansı boyların qurması sualına birbaşa cavab vermək mümkün olmasa da, sumer və akkad dilli yazılı qaynaqlar bu bölgədə m.ö. III minildə subar



boylarının yaşadığını yazırlar.[23] Urmu teoriyasına görə, İkiçayarasının Bağdaddan quzeydə Subartu adlanan ərazisi prototürk subarların ölkəsi idi və burada son Subar bəyliyi də m.ö. 673-dən sonra dağılmışdı.[24]










Öncə meqalit qurmaların Aralıqdənizindən doğuda yaranıb, sonradan Yunanıstan, Malta, Fransa, Britaniya, İspaniya və Portuqaliya bölgələrinə keçməsini deyən uzmanlar sonradan karbon araşdırması ilə Uels dikilidaşlarının daha minil öncə qurulduğunu aydınlaşdırdılar, bununla da miqrasiyanın batı yönə yorumu gündəmdən çıxdı. Ancaq İkiçayarasının quzeyində aşkar edilən Göbəklitəpə tapınağı əvvəlki yozumun gerçəyə daha yaxın olduğunu göstərdi və uzmanlar yenidən bu dikilidaşlar gələnəyinin məhz Ön Asiyada yaranması yorumunu gündəmə qaytardı və bu yorum da özü ilə bərabər ortaya çoxlu suallar gətirdi. Göbəklitəpəni quran boylar 8 minil öncə onu torpaq altında gizlətmək zərurəti duymuş və bunu bacarıqla gerçəkləşdirmişlər, ancaq bu olayın da səbəbi özlüyündə bir

[23] Azər xalqı, 2000, 154-160.

[24] Eyni qaynaq, "*Subar bəyliyi*" bölümü.

tapmacadır. Beləliklə, arxeoloqların üzə çıxardığı Göbəkli-təpə tarix elmi qarşısına da qəbul olunmuş xronologiyaları dəyişə biləcək çətin sorunlar çıxartdı.




Doğrudur, hələ Göbəklitəpə tapınağı çağından minillər öncə kişiöğlu mağara divarlarında, qayaüstü rəsmlərdə dövrünə görə mötəşəm sənət əsərləri - añ (heyvan), adam şəkili və simvolik cizgilər çəkmə başarısına yiyələnmişdi, ancaq hələ istehsal təsərrüfata keçməyən, yaşamını yalnız ov və yığımla təmin edən daşbaltalı insanların belə möhtəşəm tapınaqlar qurması, daha doğrusu, qura bilməsi quşqu çəkir, ortaya cavabsız suallar qoyur, çünki belə tapınaqları Zəngəzur bölgəsində *Qoşundaş* tapınağında olduğu kimi, yalnız mağaralardan çıxıb çay vadilərində əkinə başlayan, añları evsəlləşdirən və yeni yaşam tərzinə keçən insanlar qura bilərdi. Necə ki, sonralar şəhər, qala, məbəd






tikən insanlar İkiçayarasında məbədlər, Misirdə piramidalar və hələ araşdırmaya qapalı saxlanan Çin piramidalarını qurmuşlar. Hər halda, prototürk çağında qurulmuş Göbəklitəpə dikilidaş kompleksinin olduğu ərazidə adı çəkilən sakinlərin ilk yazılı tarixi qaynaqlarda (4-5 minil öncə) prototürk subar boyları olması çox önəmlidir.




Qoşundaş tapınağının yaşı da əvvəllər m.ö.V minilə aid edilirdi, ancaq son dönəmlərdə karbon analizlərinə görə onun tarixi m.ö. 7500-ə qədər qədimə çəkilmişdir. Bu tarixsə həmin bölgədə yaranan Kür-Araz kulturundan 4 minil öncədir. Xalq arasında daşa çevrilmiş döyüşçülər mifinə köklənən bu kompleks «qoşundaş» adlanır, xakaslar da bu tip mengirlərə «savaş daşı» anlamında *çaatas* deyirlər.[25]

Belə mengir dikilidaşlarla qurulan komplekslər gələnəyinin təyinatı haqqında müxtəlif yorumlar vardır; bunu Günəş kultu ilə və dini törən yeri ilə bağlayanlar olduğu kimi, toplu halda düzülməsinin daha çox astroloji yüklü funksiya daşıdığını söyləyənlər də vardır. Hər halda, təyinatından asılı olmayaraq, belə dikilidaşlar qurumu sonralar pir, ocaq kimi tapınaqlara çevrilmişdir.

---

[25] *Кызласов,* 1980, 108.

Heç ola bilməz ki, kimsə mengirə baxmaq üçün yaxınlaşsın, amma əlini ona vurmasın. Dikilidaşla belə təmas daş kultunun minillərlə genimizdə yaşayan cazibəsi ola bilərmi? Çox güman ki, bu suala «ola bilər» cavabı verilməsi gərəkir, çünki bunun Xakas elində Salbık kurqanındakı dikilidaşlar kimi çoxlu örnəkləri vardır. Daşişləmə sənətinin qədim örnəklərini təsvir edən Rasim Əfəndi «Azərbaycanın daş plastikası» kitabında azərbaycanlılar arasında yayğın olan *daş kultu* haqqında yazır:













«Gördüyümüz kimi, daş abidələr xalqın inam və törəsinin özünəməxsus göstəricisidir. Lakin bu daş möcüzələri arasında elələri də vardır ki, bugün də onlar maraq kəsb edən müəyyən tarixi olaylara aiddir».[26]

Adətən, neolit çağının sonlarına aid mengirlər qurbanlıq verilən, dini törən keçirilən məkanlara çevrilmişlər. Dikilidaşların qurğu (kompleks) türü ilə yanaşı, tək olanları da vardır. Belə ki, tək-tək görünən mengirlərə Krımda (*Baxçasaray Skel*), Xakas elində (*Ax tas*) və başqa türk ellərində rast gəlmək olur.

---

[26] *Расим Эфенди,* 1988, 1.

Dikilidaş türləri sırasında ən qədim örnəklərin mengirlərə (böyük daşlara) aid olması görənəyi diqqəti çəkir, lakin bu gələnəyin xronologiyası bölgələr üzrə dəyişir. Belə ki, Qambiya və Yəməndə son əsrlərəcən davam edən mengir gələnəyi həmin ölkələrdə yalnız VIII əsrdən qurulmağa başlanmışdır.







Beləliklə, gözdən keçirilən mengir dikilidaşlar onların dünyanın müxtəlif bölgələrində olmasını bəlirlədi, həm də aydın oldu ki, ən qədim dikilidaş gələnəyi prototürklərin Atayurdu olan Ön Asiyada (*Göbəklitəpə, Qoşundaş*) ortaya çıxmışdır.

### YADA DAŞI

Türk boyları içində yağış yağdırmaq üçün özəl bir daş olması inamı vardı və buna *yada daşı*, onunla yağış yağdırana isə *yadaçı* deyilirdi. *Yatçı yatladı* deyimini yada daşı ilə qamın ovsun etməsi kimi yozan və bunun türklər arasında məşhur olduğunu vurğulayan Mahmud Kaşğari yazır:

> «*Yağma ölkəsində mən bunu öz gözümlə gördüm. Yay vaxtı orada yanğın baş vermişdi. Bu surətlə qar yağdırıldı və Ulu Tanrının iznilə yanğın söndürüldü*».[27]

Quraqlıq olanda quru daşların yanına isladılmış *yada* daşını qoymaqla yağış yağacağı inamı Azərbaycanın quzey bölgələrində bugünəcən yaşayır. İsmayıllıdakı Baba dağında Həzrə piri və Qusarın Gil kəndində Qara Baba piri tapınaq-

---

[27] *MK,* III. 11 və 275.

larında yada daşı gələnəyinið rast gəlmək olur.[28] Yada sözünün farsca *cadu* sözü ilə bağlı olmasını yazanlar yanılırlar, çünki yada sözü farsla heç bir əlaqəsi olmayan saxa (yakut) dilində də *sata* şəklində işlənir. Yada daşı fars yox, türk mifologiyasında yayğındır və türk xalqlarında onun qurd qarnından çıxması inamı vardı.[29] Təsadüfi deyil ki, Altay türklərinin epos qəhrəmanı dağ qutundan (ruhundan) yaranmış Maday-Qara doğulanda ovcunda daş varmış və bu eposda yada daşı bir neçə yerdə xatırlanır:

Kös yedeten köböñ çölqö,
*Yada* tüjüp bu añdandı. (№1335)

Üç kömürqe ot kamızar,
Tındu *yada* karmandadı. (№5620)

Bəzi qaynaqlar yada daşının Nuhun oğlu Yafəslə, bəziləri isə Azər oğlu İbrahimlə ortaya çıxdığını söyləyirlər və hər iki halda bu gələnək türklərlə bağlanır.[30] «Mücmel əl-tavarix» (1126) kitabında deyilir ki, türklərin yağış yağdırmaq üçün istifadə etdikləri yada daşı türklərin atası Yafəslə bağlıdır, çünki o, atası Nuh peyğəmbərdən bunu xahiş etmişdi. Atası yağış yağdırmaq üçün dediyi duanı Yafəs həmin daşın üzərinə cızıb boynundan asmışdı. Sonralar hər türk boyu bu daşı əldə etmək istədiyindən türklər arasında yada daşı üzərində qovğalar başlanmışdır.[31]

Türklərin bu sehirli daşından qədim Çin və orta çağ islam qaynaqlarında da bəhs olunur. Hətta xəlifə Məmun yada daşı haqqında bir bilginə tədqiqat aparmağı da tapşırmışdı,

---

[28] *Bəhlul Abdulla,* 2005, 180.
[29] *Cəlal Bəydili,* 2003, 387.
[30] *Ağasıoğlu,* 2009, 87-88.
[31] *Sadi Bayram,* 1988, 41.

Xorasan əmirlərindən Davut və İsmail yada daşı gələnəyinin türklərin arasında geniş yayıldığını təsdiq etmişlər.[32] Başqa islam tarixçiləri kimi Təbəri də bu olayı İbrahimin soyu ilə bağlayır.

Qanturaoğullarından danışan Təbəri yazır: «Onlar İbrahimə - Ey ata, İsmaıl ilə İshaqı öz yaxınında saxladın, bizə isə qürbət və yabançı ellərdə yerləşməyi əmr etdin - deyə, söylədiklərində, o, - belə əmr aldım - deyə, cavab vermişdi. Ravi deyir ki, İbrahim bu oğullarına qutlu və Uca Tanrının adlarından (dualarından) bəzilərini öyrətmişdi. Onlar Tanrının gözəl isimlərilə *yağmur diləyər və yardıma nail olurdular*. İbrahimin evladlarından bir qismi Xorasanda oturdu. Xəzərlər onların yanına gələrək, - sizə bu xeyirli isimləri öyrədən kimsə yerüzünün ən xeyirli insanı, yaxud hökmdarı olmalıdır - dedilər, hökmdarlarına *xaqan* ünvanı verdilər».[33]

Göründüyü kimi, türk mifoloji dünyagörüşündə yada daşı gələnəyi Yafəsoğulları və ya İbrahimoğulları sayılan türklərin batıdan doğuya olan köçlərilə bağlı ortaya çıxmışdır. Maraqlıdır ki, islamöncəsi Yəməndə «*Yağış* bəxş edən» Tanrı *Yaqus* adlanırdı.[34]



### DAŞQOÇ

Anadoluda yayğın olan daş heyvan (añ) heykəllərini araşdıran A. M. Çay yazır: «Anadoludakı qoç-qoyun məzardaşlarının XIII yüzildən etibarən

---

[32] *Abdülkadir İnan,* 1972, 160-164.

[33] *Təbəri*, I. 428-429

[34] *Пиотровский,* 1991, 174.

Qaraqoyunlu və Ağqoyunlu türkmənlərinin hakim olduğu sahədə görünməsi bu tip məzardaşlarının ağqoyunlu və qaraqoyunlu türkmənlərinə aid bir gələnək olduğu qənaətini yaradır».[35]

Yazar sonra doğru olaraq, bunu ağqoyunlu və qaraqoyunlu boylarının hakimiyəti dönəmində həmin qədim gələnəyin yenidən canlanması kimi izah edir. Bu şəkillərdəki daşqoçların yayılma arealı və tarixi deyilənlərin bəlgəsi kimi ortadadır:




Doğrudan da, daşqoç gələnəyinin tarixi çox qədimdir və Ön Asiyada prototürk çağında ortaya çıxmışdır. Güney və Quzey Azərbaycanda bir sıra qədim basırıqlardakı gildən qoyun-qoç fiqurlarısa daha keçmiş çağlara aiddir. Y.İ.Krupnova görə, arxeolo-




[35] Чай, 1990, 39.

ji buluntularda qoç və qoyun fiqurları daha çox olan Güney Qafqazda qoça etiqad qoyunçuluqla məşğul olan xalqlar arasında yaranıb yayılmışdır. Doğrudan da, Naxçıvanda qədim Kültəpə, I Maxta, İsmayıllıda Mollaisaqlı, Mildə Qaratəpə yaşayış məskənlərindəki basırıqda tapılan kiçik qoç-qoyun fiqurları etiqadla, sümükləri qurbanlıqla bağlıdırsa, basırıq üzərinə qoyulmuş daş fiqurları isə o biri dünyada ölənin ruhunu tanrı məkanına aparması inancı ilə bağlıdır. Yuxarıdakı şəkildə Güney Azərbaycan *Göytəpə* daşqoçunun 3 minil tarixi həmin gələnəyin qədimliyini aydın göstərir.

Vedinin Paski məhəlləsidə qədim bir basırıq (qəbristanlıq) yeri vardı. Burada olan daşqoçlar, daşqoyunlar başqa başdaşılardan seçilirdi. Uşaq ikən ağsaqqal İslam Şadılıdan bunların fərqini soruşdum, dedi ki, qoçdaş kişilər, qoyundaşsa qadınlar üçün qoyulmuşdur. Sonralar bu tarixi sənət əsərləri qırılıb dağıdılmışdı. Azərbaycanın bəzi bölgələrində «bu qoçdaşların içində qızıl var» deyən düşmən uydurmasına inananlar onları sındırıb içində yatır axtarmışlar. Sonralar öyrəndim ki, bu üsulla Azərbaycanın bir sıra bölgələrində özümüzünkülərin əli ilə qoçdaşları məhv etmişlər. Belə nadir tarixi sənət əsərləri bugün də bir çox bölgədə beləcə baxımsız vəziyyətdədir:







Ərzurum bölgəsindəki Xınıs ilçəsinin Tanır köyündə qoçdaşlar vardır. *Xınıs* yeradının (toponimin)

qədim kumanlarla əlaqəsi haqqında yazmışdım. Maraqlıdır ki, Qaradəniz bölgəsində (Rize) belə qoçdaşlı basırıqlara da «*kuman məzarı*» deyilir.[36]




Bunu da qeyd etmək gərəkir ki, Ərzurum, İrəvan və Tiflis bölgələrində bəzi xristian basırıqlarında görünən daşat və daşqoç üzərində xaç damğası vardır. Göründüyü kimi, təkcə müsəlman türklər deyil, Güney Qafqaz və Doğu Anadoluda xristian türk boyları da qoç və at kultunu bu qəbir daşlarında əks etdirmişlər.







### DAŞAT

Azərbaycanda qədim çağlardan atçılıq inkişaf etmiş, buradakı ilxıların sayı-hesabı olmamışdır və qonşu Asur-Urartu dövlətlərinin buradan yağmalayıb apardığı qənimət

---

[36] *Ağasıoğlu,* 2005,45-50; *Çay,* 1990, 46.

siyahısında daima at sürüləri başda yazılmışdır. Qaynaqlar Güney Azərbaycanda hələ 3 minil öncə minik atları içindən cins atların yetişdirilməsi haqqında da gərəkli bilgilər verir.




Türk xalqlarının folkloru da atla bağlı olaylarla zəngindir və mifoloji inamlarda at kultu, atları himayə edən iyə (*Kambar ata*), tanrıya at qurbanı sunumu türklərin ata özəl münasibətinin bariz göstəricisidir.[37] Ona görə də, türklərdə daşat gələnəyinin ortaya çıxması doğaldır və Başqord elində kult yeri kimi daşat örnəyinin olmasına təbii baxmaq gərəkir.[38]

Naxçıvanda *Kültəpə* abidəsindən tapılan at fiqurunun üç minilə yaxın yaşı var. At kultu gələnəyinin keçən əsrin əvvəllərinəcən yaşamasını göstərən tutalqalardan biri basırıq üzərinə qoyulan daşat heykəlidir. Ölənin qutunun bu atlar üzərində Tanrı məkanına getməsi üçün basırığa qoyulan belə daşatlar Borçalıda olduğu kimi, Azərbaycanın bir sıra bölgələrində də çox yayğın olmuşdur:

---

[37] Azərbaycanda at kultu və atçılıq haqqında geniş bilgi bu bitiklərdə verilmişdir: «Azər xalqı», 2005, 308-322; «Doqquz Bitik» (IV və V Bitikdə uyğun bölmələr).

[38] *Sagitov,* 1986, 127.

Herodot yazır ki, kurqanda basdırılan saqa elbəyinin ili tamam olanda 50 ən gözəl atı öldürür, onlardan müqəvva (uyuq) düzəldib kurqanın ətrafına düzürlər ki, elbəyi o biri dünyaya müşayiət etsinlər.[39] Eyni adətin Altayda Arjan kurqanında (m.ö.VIII-VII) təkrar olunduğunu və burada 187 at basdırıldığını görürük.

Azərbaycanda daşatlar



Hələlik at basdırılmış kurqanların Güney Qafqazda tapılan Xaçbulaq, Şahtaxtı kurqanları kimi ilk örnəkləri m.ö.II minilliyin son əsrlərinə aiddir, amma daha qədim nümunələrin ortaya çıxması mümkündür, çünki belə qədim abidələr, əsasən, Azərbaycan ərazisinə düşür və bu torpaqlardakı kurqanların pambıq tarlası üçün dağıdılması, altında gərəkli tarix saxlayan minlərlə təpəciyin şumlanması da, təəssüf ki, bir gerçəklikdir. Azərbaycanda m.ö. XIII-X yüzillərə aid kurqanların çoxunda adamla yanaşı tək sayda (1, 3, 5) atlar və at nəsnələri tapılır. Hətta bəzi kurqanaltı qazmanın sahəsi (*Paşa-təpə* kurqanı) 50 kv.metrə çatır.

Türk döyüçüləri savaşa gedəndə atlarının quyruğunu düyünləyir, bununla atı da şəhidliyə hazırlayırdılar. Təsadüfi deyil ki, şəhid olan türk alpları quyruğu düyünlü atları ilə birlikdə basdırılırdı. 2500 il tarixi olan saqa-oğuz Pazırıq xalısnda təsvir olunan qurbanlıq atlar da quyruğu düyünlüdür.[40]

---

[39] *Herodot,* IV, 72.

[40] *Ağasıoğlu,* 2012, 14-21.

Mahmud Kaşğari savaşa gedən döyüşçülərin atının quyruğunu düyünlədiyini əks etdirən «Kudruk katığ tügdimiz» misrası ilə başlanan bir qoşuq parçası vermişdir.[41]

| | |
|---|---|
| Kudruk katığ tügdimiz, | «*Quyruğu qatı düyünlədik,* |
| Tənqrig öküş ögdümiz, | *Tanrını çox öydük,* |
| Kəmşip atığ təgdimiz, | *Atı üzəngilədik,* |
| Aldap yana kaçtımız. | *Aldadıb yana qaçdıq*». |

### DAŞMARAL

Azərbaycan folklor və mifologiyasında maral ilə bağlı motivlər başqa türk boylarında da özünü göstərir. Qobustan-Gəmiqaya, Qavratəpə rəsmlərində yer alan maral kultu Günəş simgəsi kimi diqqəti çəkir, belə ki, qoç, təkə kimi maral da doğumu ilə yazın, ölümü ilə qışın gəlişini bildirən simvol olub, fəsil dəyişimini bildirir. Zakatala daşları içindəki damğalı yazısı olan bu kiçlk daş üzərində görünən maralın şəkili də Günəşin altında verilmişdir. Damğa-yazının (loqoqramın) 3,5 minil öncə yaranan runik yazıdan əvvəl olması da bəllidir:




Maraldaş maral görkəmində (fiqurunda) deyil, balbal dikilidaşı formasındadır, yalnız üzərində maral rəsmi olduğundan *maraldaş* adlanır. Maraldaşların bir özəlliyi də, onların kurqan yaxınlığında və tapınaq yerlərində olmasıdır. Doğu türklər maraldaşa *sıntaş* (sığındaş), monqollar isə *xoşu çilo* (keçi daş) deyirlər.

---

[41] *MK,* I. 458; Bu gələnəyin orta əsrlərdə də davam etməsi bəllidir.

Bəzi maraldaşların adam görkəmi kimi nəzərdə tutulması daşın yuxarı hissəsində boyunbağı və sırğa, ortada isə kəmər olması, kəmərdən asılan xəncər, bıçaq və ya balta kimi döyüşçü yaraq-yasağının cizgiləriləseçilir. Bəzi maraldaşların üzərində maralla yanaşı, qaban, at, təkə və başqa anĩ şəkilləri də yer alır. Bu cizgi və döymə şəkillər maraldaşın dört tərəfində yerləşir.





Uzmanların siyahısına görə, qeydə alınmış 700-dən çox maraldaşın 500-ə qədərinin Monqol eli ərazisində olduğunu vurğulayan D.Q. Savinov bu gələnəyin m.ö. I minilin ilk yarısında yayılmağa başladığını yazır.[42] Maraldaş gələnəyinin Avropadan Monqol elinə qədər Avrasiyanın çöllük zolağı boyunca yayılması onun ilkin yaranma mərkəzini müəyənləşdirməkdə tədqiqtçılar üçün çətinlik törədir.[43]

[42] *Савинов,* 1994, 3-4.
[43] *Кубарев,* 1979, 92-93.

Lakin bu çətinliyi yaradan Altay teoriyasından fərqli olaraq, Urmu teoriyasına görə, tunc çağının sonlarında añ üslubunu prototürklərin ata yurdu Ön Asiyadan Altaya və Avropa çöllərinə daşıyan saqa (skit) boyları dikilidaş gələnəyinin maraldaş türünü də getdiyi bölgələrə aparmışlar. Altay və Monqol eli ərazisindəsə maraldaş türü yerli zəmində daha çox yayğın olmuşdur.



Daşmaral dikilidaşlarının semantikası haqqında müxtəlif fikirlər vardır: Bəzi yazarlar (İ. İ. Meşaninov, M. X. Mannay-ool) doğudakı daşmaralları görkəminə görə balığa oxşadıb, Qafqazda bulunan daşbalıqlarla eyni saymışlar, A. P. Okladnikov, N. N. Dikov, N. L. Çlenova və sair uzmanlar isə daşmaralı basırıqlardakı başdaşı ilə eyniləşdirmiş, hər halda, birbaşa kiminsə anım abidəsi saymışlar.[44] Ancaq bir gerçəklik də var, o da üzərindəki rəsmlərlə kosmoqonik mahiyət daşıyan daşmaralların kultla bağlı olub tapınaq yerlərində qoyulmasıdır.

Doğuda olan daşmaral gələnəyini uzmanlar m.ö.VII-V əsrlərə aid edirlər, lakin bu dikilidaşların daha böyük zaman kəsiyi daxilində mövcud olması daha real görünür. Belə ki, oxşar dikilidaş gələnəyi əsrlərlə deyil, minillərlə davam etmişdir.

---

[44] *Кубарев,* 1979, 85-86.

**DAŞBALIQ**




Doğu Anadoluda, Qafqazın güney-batı bölgələrində, özəlliklə, Ələyəz dağı yaylaqları ilə Göycə gölü hövzəsində balıq görkəmində 3-5 metr uzunluğunda yonulmuş onlarla mengir tapılmışdır.[45] Daşbalıq gələnəyi, görünür, m.ö. II minilin sonlarında ortaya çıxmışdır, çünki bəzi daşbalıq üzərində sonrakı minilin ilk əsrlərinə aid urartu yazısı vardır.

Bəzi uzmanlar haqlı olaraq, daşbalıq gələnəyinin buradan Ön Asiyaya m.ö. III-I minillərdə yayıldığını güman etmiş və bu gələnəyin Kür-Araz kulturu ilə ortaya çıxmasını söyləmişlər. Urmu teoriyasına görə, buradan Quzey Qafqaza və Monqolustana miqrasiya edən prototürk boyları daşbalıq gələnəyini də oralara aparmışlar.






[45] Doğu Anadoluda da Oltunun Yolboyu kəndində dos. Tahsin Parlakın 1995-də bulduğu daşbalıq Oltu liseyi qarşısında qoyulmuşdur.

Daşbalıq kultunun türklərə məxsus olması Doğu Anadoluya 2 minil öncə gələn hayların dilində açıq görünür, belə ki, böyük daşlardan yonulmuş bu balıqların ilkin funksiyasını bilmədikləri üçün onu əjdaha anlamında farsların *vişap* (íÇß³å) sözü ilə *vişapakar* (draqon stone) adlandırsalar da, öncə yerli azmanların (великанов) basırıqlarına başdaşı kimi qoyulduğunu güman etmiş, ona görə də, daşbalıq olan yerə «oğuz basırığı» (*могила огузов*) demişlər. Sonralar bura gəlib yerləşən kürdlər «əjdaha-yurd» deyimini işlətmişlər. Lakin 1910-da Ələyəz dağında daşbalıq gələnəyi ilə bağlı əfsanələri toplayıb onların olduğu yerlərdə qazıntı aparan uzmanlar yaxınlıqda basırıq olmadığını vurğulamışdır.[46] Daşbalıq kultu su ilə bağlı olduğundan onu axarsu qaynaqları yaxınlığında qoyurdular.



**DAŞBAĞA**




[46] *Марр, Смирнов,* 1931.

Tanrıdağı ətəyində, Altay və Karakorumda bulunan bu daşbağalar basırıq üzərində dikilən bəngüdaşların (yazılı başdaşı) özülü üçün yapılırdı. Belə ki, Kültigin bəngüdaşı kimi digər abidələr də belə daşbağalar üzərinə qoyulmuşdur.




Daşbağa gələnəyinin doğuda ortaya çıxması, Çin, Kore və başqa doğu ölkələrdə yayğın olması yerli xalqlarla bağlıdır. Doğuya köçmüş türk boyları da bu gələnəyi çinlilərdən götürmüşlər. Lakin daşbağalar yabançı gələnək olsa da, bağa kultu türklərdə qədim çağlardan vardı.

Qədim Ön Asiyada teonim kimi işlənən sözlərdən biri türkcə *bağa* (baqa) sözü idi. Türklərin bu teonimi Göytürk yazılarında keçən «*kanım bağa tanrı ikən*» deyimində aydın görünür. Həmədan yaxınlığındakı Büsutun da qədimdə Baqa(stan) adlanırdı. Göründüyü kimi, doğuya gedən türklərin bağa kultu orada yerli daşbağa gələnəyinin mənimsənilməsinə imkan yaratmışdır. Terxin yazılıdaşının özülü olan bu daşbağa üzərində göytürk yazısı ilə daşbağanı yapan ustanın adı da (*Böke Tutam*) yazılmışdır.




(Bunu yaratığma Böke Tutam)

*
* *

Beləliklə, uzaq keçmişdən başlayaraq, günümüzəcən davam edən çeşitli dikilidaş gələnəyinin ayrı-ayrı türlərilə tanışlıq prototürk çağından üzübəri türk etnosunun daş kultuna inancını ortaya qoyur, bu inancı gerçəkləşdirən yada daşı və añdaşları (daşqoç, daşat, daşmaral, daşbalıq, daşbağa) isə türkün daş tarixinə ışıq tutan bəlgələrə çevrilir. Belə bəlgələr daha çox kurqanlarda, basırıq yerlərində, tapınaqlarda özünü göstərir.




Ancaq bu tarix axarında Qoşundaş, Göbəklitəpə kimi elə meqalit tapınaqlar da var ki, onların meydana çıxması səbəbi üzərində araşdırmalar və mübahisələr hələ də davam edir.[47] Daşlarla bağlı belə müəmmalı gələnəklər dünyanın bir çox yerində vardır. Örnəyin, gərəyi bilinməyən daş toplar:

Laosda «Küplər dərəsi» isə buradakı böyük daşküplərilə insanı valeh edir. İki minil yaşı olan və bəzilərinin ağırlığı 6 tona çatan bu daş qabların da hansı amaclarla yapılmasını müəyənləşdirmək üçün hələlik əldə olan bilgilər yetərli deyil.




[47] Belə ki, İkiçayarası (Mesopotamiya) quzeyində m. ö. V minilliyə aid Xalaf kulturunda yüksək texnoloji, dekorativ görkəmilə seçilən keramik qabların ortaya çıxdığını bilsək də, hətta o çağlarda belə, Göbəklitəpə kimi tapınağın qurulmasına inam azdır, halbuki bu tapınağın yaşı Xalaf kulturundan da 4-5 minil əvvələ aid edilir.

II Bölmə

# TÜRKÜN DAŞ YADDAŞI

Qədim Tanrıçılıq dininə tapınan türklər sonrakı çağlarda ayrı-ayrı bölgələrdə yəhudi, xristian, islam, buddizm və başqa dinlərə keçsələr də, yeni dinin ölübasdırma qaydalarına yalnız basırıq içində əməl olunur, basırıq dışında isə dikilidaşlarla öz milli gələnəyini davam etdirirdilər. Bu, minillərin etnoqrafik süzgəcindən keçib gələn, bugün də bəzi çalarlarla yaşarılığını saxlayan türklərin daş yaddaşıdır.

### SINDAŞ. BAŞDAŞI

«*Yalñuk məñgü tiriməs,* ***sınka*** *kirüp kiri yanmas*» (adam əbədi diri qalmaz, qəbrə girən geri dönməz) məsəlini örnək verən Mahmud Kaşğarlı yazır ki, «məzar» anlamında işlənən *sın* deyimi «boy-buxun» anlamlı *sın* sözündən yaranmışdır.[48] Kumanlar isə ölənin heykəlinə *sın* deyirdilər.[49]

Göründüyü kimi, *qəbir, məzar, gor* anlamında burada istifadə etdiyimiz ***basırıq*** deyimilə sinonim olan ***sın*** deyimi də olmuşdur ki, yeri gəldikcə bu sözün də işlənmə dairəsini artırmağın etnoqrafiyada termin baxımdan yararı vardır. Belə ki, basırığın (məzarın) üzərinə qoyulan başdaşı ilə sinədaşını, sənduqəni fərqləndirmək üçün onlara *sındaş* deyimi daha uyumludur.


Sıntaşlar

[48] *M.K.* III, 63; 143.
[49] *Codex Cumanicus*, 1880, 222.

Türk basırıqlığında diqqəti çəkən özəlliklərdən biri də budur ki, sındaşlar üzərində yay-ox, tüfəng, qayçı, suqabı, at və atlı, xalı-xalça dəzgahı və başqa nəsnələrin qabartmaları vardır. Bu, basırıqda yatanın diri ikən nə ilə məşğul olduğunu, yəni sağlığındakı peşəsini, sənətini bildirir. Örnəyin, Urud kəndi basırıqlarında olan bu sındaşlar üzərində toxuculuq dəzgahlarının şəkili vardır:


Urud sıntaşları
Aşağı qaranlıq (XVI əsr)

Bəzi sındaş üzərində mifik süjetlər, *añ* üslublu qabartma və rəsmlər də əks olunur. Bu baxımdan, Aşağıqaranlıq kəndi basırığında olan sındaş üzərində kıyat (buynuzlu at) ilə əjdahanın savaşı və aslanın öküzü parçalaması səhnələri, dönərgə işarəsi və suqabı üsərində səkkizguşəli ulduz-günəş simvolu (Tanrı) da diqqəti çəkir. Bu cür sıntaş gələnəyi Azərbaycanın əksər bölgələri üçün xarakterikdir. Aydın görünür ki, Azərbaycan türkləri hansı dini inanca (yəhudi, xristian, islam) keçməsindən asılı olmayaraq, öz qədim tanrıçılıq inancındakı basırıq kulturunun əsas özəlliyini başqa dinlər içində yaşatmışlar.

Sındaş və başdaşı basırıq kulturu ilə bağlı olduğu üçün türk yas gələnəyində basırıq türləri haqqındakı bəlgələri də göz önünə çəkmək gərəkir. Basırıqların yeraltı-yerüstü hissələrində olan özəllikləri araşdıranda bəlli olur ki, islama qədər yeraltı bölümdə qoyulan qab-qacaq, bağa, qoç, at və ya onların kiçik fiqurları və yaraq-yasaq islamdan sonra basırıq üzərində qoyulan sındaş, başdaşı, daşqoç, daşat üzərinə kö-

çürüldü, daşbaba üzərində isə onlardan bir qisminin cizgi və qabartma rəsmləri əvvəldən vardı. Tarixboyu türk basırıqları digər etnosların basırıqlarından fərqlənmişdir, Avrasiyanın bir çox bölgəsində türk boylarının tərk etdiyi yerlərdə izi qalan türk basırığı minillər keçsə də, həmin boyların adını saxlayır. Güney-Doğu Avropada geniş yayılmış saqa kurqanlarına *kazak, tatar, türk* basırığı (qəbri) deyilir. Xerson vilayətində 20 metr hündürlüyü olan saqa kurqanı *Oğuz kurqanı* adlanır.[50]

Güney Qafqazda uzun sındaşları olan basırığa «*oğuz qəbri*» deyilir. Xalqın qınaq sözləri sırasında «*Oğuz ölüsü kimi uzanmaq*» deyimi vardır. Göycə gölündən quzey-batıda siklop qalaçaları ilə bol olan Misxana ilə Debet çayları arasındakı yamaclarda üzə çıxarılan tunc dövrü kurqan basırıqların iç hörgüsü qatbaqat bir-birinə yaxın qoyulan daşlarla yığma tağbənd şəklində bağlanmışdır. Buna **Oğuz evi** deyilməsi gələnəyisə hay dilində hələ də davam edir.[51] Bura gəlib yerləşən haylar Urartu çağınacan



Loru-qala kurqanı №1, *Oğuzevi* (azər-şen) üslubu (*Деведжян*, 1981, 19, 23-24)

---

[50] *Лесков*, 1981, 3, 161.

[51] Hay arxeoloji ədəbiyatında «Дома Огузов» ifadəsi geniş işlənir. Bu qədim basırıq tikintisində yığma tağbənd azər boylarına məxsus tikinti (hörgü) üsulu kimi hay dilində *azaraşen* (azər hörgüsü) adlanır (*Деведжян*, 1981, 23-24).

salınmış bu tip basırıqlara *azər* üsulu tikili mənasında *azaraşen* (azər tikilisi) də deyirlər.[52]



Sındaş kimi başdaşı üzərində də simvolik işarələr, suqabı, yaraq-yasaq və sair nəsnə qabartması, rəsmi olur, daha çox naxışlara və bəzəklərə yer verilir. Başdaşı ilə bəngüdaşın ortaq özəlliyi isə hər ikisində ölənin adı, soyu və ölüm tarixi yazılır, bəngüdaşlara xas olan qısa epitafiya bəzi başdaşılarnda da görünür. Başdaşı üzərində ölənin şəkili, büstü isə onu daşbaba gələnəyinə yaxınlaşdırır.

Yuxarıda deyildiyi kimi, türklər islamı qəbul edəndən sonra basırığın altında müsəlmansayağı adətə uyğun, basırıq üzərində isə öz keçmiş gələnəklərinə uyğun davranmışlar, bu da bölgələr üzrə lokal özəlliklərin ortaya çıxmasına səbəb olmuşdur.









Daşbaba və daşnənə bədizi ilə erkək və qadın basırıqları bir-birindən fərqlənirdi. Buna bənzər bir fərqi Pinə-Şalvar basırığındakı başdaşılarda görmək olur, belə ki, Təbrizə yaxın Pinə-Şalvar kəndindəki qədim basırıqlıqda qadın və kişi başdaşıları fərqlidir. Eyni basırıqlıqda başdaşıların belə görkəm fərqi əgər qədim bir inancla bağlı

---

52 *Мартиросян*, 1961, 24; *Вартанйан*, №6, 1967, 78. Bax. *Деведжян*, 1981, 23-24.

deyilsə, onda bu fərq yerli daşbaba və daşnənə gələnəyilə bağlıdır:

**BƏNGÜDAŞ. BITIKDAŞ**

Azərbaycanda başdaşı, sındaş (sinədaşı) üzərində yazı ilə bərabər ölənin yaşam durumu və peşəsilə bağlı nəsnə qabartmaları, cizgi rəsmləri verilir. Uzmanlar buna aid yazır: «Qəbir daşları üzərində mərhumun peşə və sənətini əks etdirən bir sıra məişət və təsərrüfat əşyaları, silah, nəqliyat vasitələrinin təsvirinə (gülabdan, sürmədan, güzgü, qayçı, daraq, möhür, qılınc, xəncər, tüfəng, rəhil, sahibsiz qalmış yəhərli at və s.) rast gəlirik».[53]

Qədimdə sındaş və başdaşı üzərində yazılan epitafiyalar islamdan sonra da ərəb yazısı ilə davam etmişdir, lakin bu yazılarda ölən haqqında qısa bilgilər yer alır, geniş bilgi isə «daş kitab» anlamında *bitikdaş* və ya «əbədi daş» anlamında *bəngüdaş* adlanan dikilidaşlar üzərində verilirdi.



Yonulmuş daşdan adam, bağa (tısbağa), qoç-qoyun və at bədizlərinin basırıqlarda qoyulması qədim çağlardan bəllidir. Belə ki, daşbaba, daşqoç, daşat, daşbağa fiqurları və balballar basırıqda «yatana» o dünyada xidmət edəcək köməkçilərdir. Lakin ölənin bu dünyada qalaçaq adı-sanı da yas gələnəyində diqqətdən yayınmamışdır və bunun üçün basırıq üzərinə qoyulan *sıntaş, başdaşı* və *bəngüdaş* adlanan yazılı daş abidələr gələnəyi yaranmışdır. Daşbağa özülü üzərində qurulan

[53] *Azərb. Etnoqrafiyası,* 1988, 332.

Kültigin bəngüdaşı bu gələnəyi aydın əks etdirir:

N.Y. Biçurin yazır ki, Göytürk çağı dönəmində Çin qaynaqlarında (Beyşu, Çjoşu, Suyşu) türklərin basırıq kulturu ilə bağlı bəlgələrdə «basırıqda ölənin heykəli qoyulur və yaşamboyu iştirak etdiyi savaşlar yazılır, öldürdüyü adamların sayı qədər dikilidaş düzülür və bəzən onların sayı yüzə, hətta minə çatır» kimi bilgilər vardır.[54] Belə tarixi bilgiləri Göytürk yazılarının özündə də görmək olur:

> *Kültigin koy yılka yiti yigirmike uçdı. Tokuzınc ay yiti otuzka yuğ ertürtimiz. Barkın, bədizin, bitigtaş(ın) biçin yılka yitinç ay yiti otuzka kop alkadı(mı)z.* [55]

> (Kültigin qoyun ilinin 17-sində uçdu. Doqquzuncu ayın 27-sində yas törəni yapdıq. Barakını, bədizini və bitikdaşını meymun ilinin yeddinci ayının 27-sində



[54] *Бичурин,* I. 230.
[55] *Orkun,* 1994, 52.

tam bitirdik).

Orxon-Yenisey anıt yazılarının (epitafiyaların) böyük bir qismi (Kültigin, Bilgə Kağan, Tonyukuk və b.) belə bəngüdaşlar üzərində yazılmışdır. Hələlik mənə bəlli olan bəngüdaş üzərində ən qədim türkcə epitafiya m.ö.VII əsrə aid




Lemni yazısıdır: [56]

Bu Lemni yazısı Lemni adasında savaşda şəhid olan Aker Tagar adlı döyüşçüyə ithaf olunan iki daş üzərindədir. Görünür, birinci adi daşdakı yazı (A) öncə onun dilindən, ikinci yazı isə (B) sonradan Qam-Apanın ismarışı ilə onun bəngüdaşı üzərində Tursun Alp tərəfindən yazdırılmışdır. Hər iki yazıda onun (Aker Taqarın) əradına teginlərə verilən *şad* sanı əlavə olunması (ekiz tutulması) vurğulanır.

[56] *Ağasıoğlu,* 2011, 160-163; (Bu yazını beş il öncə oxumuşdum).

**BƏDIZ (HEYKƏL)**

Qədim türklər oyma, naxış, surət, heykəl anlamında *bədiz* sözünü işlədir, heykəl (bədiz) düzəldənə *bədizçi* deyirdilər.[57] Bəşər tarixində ilk bədizlər bərəkət iyələri sayılan məhsuldarlıq simvolu kimi qadın (ana), daha sonralarsa tanrı və tanrıca bədizləri, bütləri kimi əkinçilik kulturu ilə ortaya çıxmışdır. Əsasən, gildən yapılan, nadir hallarda isə daşdan yonulan belə kiçik qadın fiqurları öncə Ön Asiyanın əksər bölgələrində, sonralarsa əkinçiliyin yayıldığı başqa bölgələrdə görünür:




BƏRƏKƏT İYƏLƏRİ

1. *Japымтəпə II.* Antropomorf gil qab (Мунчаев, Мерперт, 252);
2. *Samara kulturu.* Daş fiqur (Антонова,175);
3. *Alban çağı.* Gil fiqur (Халилов, 263);
4. *Anau kulturu.* Gil fiqur (Массон, Сарианиди, 301).

Bu da maraqlıdır ki, beş minil öncə Türkmən elində *Acıquyu* kulturunda artıq gil qadın bədizlərilə yanaşı kişi (erkək) bədizi də görünməyə başlayır:

---
[57] *Малов,* 1951, 369.

Ön Asiyanın çoxtanrılı ölkələrində yayğın olan bütlər, sonralarsa yunan-latın məbədlərində daha monumental tanrı, mifik qəhrəman və hökmdar bədizləri bəllidir. Misirdə olduğu kimi, Sumer ölkəsində də hökmdarlar tanrılarla yanaşı öz bədizlərini yapdırırdılar, Urmu gölü hövzəsindəki türklərin Qut elinə bağlı sumer canişini Qudeanın m.ö.XXII əsrə aid bir neçə bədizi qalmışdır:



Qədim Azərbaycanda bədiz gələnəyi bir neçə türdə görünsə də, ölənin basırığı üzərinə qoyulan daşbaba, daşnənə bədizi daha yayğın və müxtəlif dinlər içində daha yaşarı olmuşdur. Buradan Anadolunun batısına, oradan da 3 minil öncə İtaliyaya köçən araz (etrusk) boyu da oradakı basırıqlarında ölənin daşqutu üstündə bədizini yapırdılar:



Etrusk sıntaşı





Bu bədizlərin əksərində qadın və kişi eyni pozada, dirsəklənib uzanmış durumda təsvir olunur. Həmədan yaxınlığındakı



Herakl (Büsutun qayası)

Büsutun qayasında da Heraklın bədizi eyni görünüşlü durumda yonulmuşdur, olsun ki, yunansayağı olan bu bədiz Selevki çağında yapılmışdır.

Selevki çağından öncə də, Persiyada dəbdə olan qaya-üstü




çapma və qabartma bədizlər sonrakı çağlarda belə öz etgisini göstərmişdir, hətta XIX əsrdə divan üzvlərilə birgə Fətəli şahın bədizinin qaya qabartması yapılmışdır:

Basırıq yanında dikinə qoyulan daş adam bədizlərinin Azərbaycanda ilk örnəkləri Qobustan, Abşeron, Astara və Meşkində, Gü-



ney-Doğu Anadoluda isə Hakkaridə tapılmışdır və bu gələnək Alban çağında da Qarabağ-Şirvan bölgələrində davam etmişdir.[58] Ağdamda Boyəhmədli kəndinin basırığında bulunan bədiz isə görkəm orijinallığı ilə daşbabalardan seçilir:




Azərbaycandan doğu və quzey ölkələrə miqrasiya edən prototürk boyları bu bədiz gələnəyini bozqır kulturunun əsas atributlarından birinə çevirə bilmiş, Qıpçaq çölü boyunca Avropadan Monqolustana qədər yaymışlar. Ölənin görkəmini əks etdirən daş bədizlərin basırıq yanında qoyulması gələnəyi türklərin basırıq kulturunda etnoqrafik özəllik kimi tarixi qaynaqlarda da qeyd olunmuşdur.[59]

Göründüyü kimi, kurqan-kromlex, daşat, daşqoç, daşmaral, daşbağa, daşbaba, daşnənə kimi türk etnik basırıq atributlarını Altaya və Azaq yaxalarına daşıyan prototürk boyları bu gələnəkləri minillər boyu mühafizə etmişlər. Daşnənə bədizləri daha yayğın olan daşbaba bədizlərindən bəzi özəlliyi ilə fərqlənir.

---

[58] *Muradova*, 1979, 37; *Халилов*, 1984, 66; *Sevin*, 2005.

[59] *ПСДК,* 282.

Belə ki, daşnənə (daşana) zaman keçdikcə qutsallaşır və soyanası simvoluna çevrilir. Yunan qaynaqları (*Ktesi, Siciliyalı Diodor*) qeyd edirlər ki, saqa boylarından biri ölən qadın hökmdar Zarinaya (*Sarıana*) 3 stadiya (470 m) enində özül üzərində qurulmuş kurqanda qızıldan böyük bədizini qoymuşlar.[60] Əlbəttə, qızıl heykəl məsələsi mifik olsa da, hər halda bu tarixi qaynaqlar saqa boyları içində ölən soylu qadına bədiz qoyulması faktını qeyd etmişdir. Bu bəlgədə fantastik görünən qızıl məsələsi isə bəzi daş heykəllərin rəngli naxışlarla boyanması ilə bağlı ola bilər.

Azərbaycanda ağac və dirilik suyunun hami ruhu sayılan iyəyə «nənə» deyilərək müraciət edildiyi, bu ruhun uşağı olmayan qadınlara qut (buta) verdiyi, bundan sonra onların övladları olduğuna inanılırdı. Eyni funksiyanı daşıya bilən Qubada «Pir Bənövşə nənə» pirinin adında «nənə» sözü də həmin inancla bağlıdır. Bu yaxınlarda Zakatalada bulunan bu kiçik daş üzərində aşağı-yuxarı 3,5 minil öncə qucağındakı uşaq görüntüsü ilə yonulmuş daşnənə bədizi isə runik yazıya qədərki damğalı yazısı (loqoqramı) baxımından önəmlidir:


Daşnənə bədizi (Zakatala)

[60] *Массон*, 1953, 27.


Daş-nənə, kuman heykəli (Krasnodar)

Müxtəlif ölçülü 7 kiçik daş üzərində qabartma-çizmə bədizləri və bu daşlardan bəzisində yer alan damğalı yazıları







incələmək üçün Zakataladan müəllim Nadir Səttərovun mənə gətirdiyi daşlardan göründüyü kimi, Zakatala bölgəsində bir pirə ayrı-ayrı çağlarda sunulmuş bir-birindən görkəmcə fərqlənən 7 daşdan dördü doğumla bağlı kiçik daşnənə bədizidir:

Uşağı olmayan qadınların üz tutduğu ocaq-pirlər dağ, qaya, ağac və sair bu kimi bir-birindən fərqli görünüşlü tapınaqlar olsa da, bunların sırasında dikili daşlardan yapılanları daha geniş yayılmışdır, bu sırada hətta dəvə (*Pir-Sahat*) bədizi də vardır:




Sonradan soyana kimi qutsallaşan daşnənələrin X-XIII əsrdə kuman-qıpçaq boyları içində daha yaygın olduğunu Ukrayna elinin müxtəlif bölgələrində bulunan bu



daşnənə bədizləri aydın göstərir:

Uşaq diləyilə daşnənələri ziyarət etmə gələnəyi bəzi türk bölgələrində bugün də davam edir, belə ki, xakasların *Uluq Xurtuyax-tas* dediyi 3 metr boyundakı daşnənə 1954-ə qədər Saqay çölündə dururdu.




Yağış, qar altında qalmasın deyə, onu Abakan muzeyinə gətirsələr də, yerli türklərin dediyinə görə, burada istiliyini itirdiyini görüb, 2003-də onu yenidən öz yerinə qaytarmış və şüşəli köşk işində yerə dikmişlər. Yenidən istilik verməyə başlayan daşnənə ətrafında üç dəfə dolanan qısır qadınlar onun ayağına ağartı və yemək qoyur, təpər (enerji) yığması üçün özlərinin bər-bəzək nəsnələrini orada buraxır, sonra götürüb üstlərinə taxırlar.

Beləliklə, prototürk çağından üzübəri türk toplumunda ölən adamın basırığı yanında onun bədizinin (heykəlinin) qoyulması gələnəyə çevrilmişdir və bu gələnək bəzi türk bölgələrində, özəlliklə Azərbaycanda bugün də davam etməkdədir. Yuxarıda bəhs etdiyimiz bədiz türlərini gözönünə aldıqda 732-də (21 avqustda) türk yas törənilə Kültiginə yapılan bədizin törəyə uyğun olduğunu anlamaq olur. Nə yazıq ki, da-



ğıdılan yüzlərlə tarixi türk abidələri kimi, bu tarixi bədizin də yalnız başı qalmışdır.

**Balbal**

Çox vaxt elmi ədəbiyatda, o cümlədən populyar yazılarda daşbaba və daşnənələrə yanlış olaraq *balbal* deyilir, halbuki bu dikilidaşların görkəmi də, yapılma amacları da fərqlidir. Balbal basırıqda yatan adamın döyüşdə öldürdüyü düşmənlərinin simgəsi (simvolu) idi, onların ruhu o biri dünyada basırıq yiyəsinə xidmət etməli idilər. Bədizçi adlanan heykəltəraşın yonub düzəltdiyi *daşbaba, bəngüdaş* basırıq yanında tək-tək qoyulduğu halda, balbalın sayı birdən minəcən olurdu.



Beləliklə, qoyulma yeri, yapılma amacı və görkəmilə seçilən balbalın digər dikilidaşlardan fərqli özəllikləri vardır. L. R. Kızlasov da doğru olaraq qeyd edir ki, «balbal» sözü daşbaba üzərində deyil, balballarin üzərində yazılır.[61]

Balbal gələnəyi doğuya köçən türklər arasında daha yayğın olmuşdur. Göytürk yazılarında *balbal* (LBLB)

[61] *Кызласов,* 1966, 207.

sözünə bir neçə yerdə rast gəlmək olur. Ongin abidəsi yanına düzülən daşlardan birincisinin üzərinə «*İşbara Tarkan balbalı*» (iLBLB:NqRTRBs), Kültigin yazısında «*Baz kağañıg balbal tikmiş*» (smkit:LBLB:GNGqzB), «*Kırqız kağañıg balbal tikdim*» (mdkit:LBLB:GNGqzqRiQ) sözləri yazılmışdır. Bilgə kağanın abidəsi yanında Tölis (Tölös) şadın adı yazılmış balbalı qoyulmuşdur: [62]



Bilgəxanın abidəsi yanında

Göründüyü kimi, ölənin basırığı yanında balbalı dikəldilən adamlar da (İşbara Tarkan, Baz kağanı, Kırqız kağanı, Tölis şadı və başqaları) sıradan biri olmayıb, savaşda öldürülən tanınmış şəxslərdir və onların balbalını qoymaq onları öldürənin şöhrətini artırırdı. İndi biz bu etnik gələnəyin mahiyətini anlamaqda çətinlik çəksək də, vaxtilə alplıqla bağlı yas törəninə böyük önəm verən atlı bozqır türklərinin bu etnoqrafik törəsinə anlamlı yanaşmalıyıq.

Çin mənbələri bəzi xaqan basırıqlarında yüzlərlə, hətta minə qədər balbal dikəldiyini qeyd etmişdir.[63] Sonrakı tədqiqatlar bu məlumatların doğru olduğunu ortaya qoymuşdur, doğrudan da, basırıq yanında dikələn daşların bir qismi hələ də qalmaqdadır. Belə ki, Ak-Tale basırığında 66 balbal aşkar

---

[62] *Orkun*, 1994, 36, 40, 130, 190; Kültigin yazısında «alp ərin öltürip balbal kılı bertim», «böyük oğlum agrıp yok bolca (xəstələnib ölüncə) Kuğ sənüni balbal tikə bertim» kimi deyimlərdə də balbal sözü keçir.

[63] *Бичурин,* I. 1950, 230.

olunmuşdur. Bilgə kağan və Kültigin abidə kompleksində isə balbalların düzümü 3 km uzanır.[64] Belə balballarını xakas dilində *çaatas* (savaş daşı) adlanması da göstərir ki, keçmişdə bəzi türk boyları içində basdırılan ərənin savaşda öldürdüyü adamların sayı qədər basırıq ətrafına daş balbal qoyulurmuş. Görünür, ölənin fiziki görkəmini və müəyən detalları qabarıq əks etdirən daşbaba memorial daş bədizlərdən fərqli olaraq, balballar sadəcə azacıq yonma-oyma cizgilərlə insan fiquru alan kobud yöntəmli və öldürülmüş düşmən sayını bildirən mengir tipli daşlardır.


Krımda qədim bir mengir. (Balbal?)

Dünyanın müxtəlif ölkələrində görünən mengirlərlə balbal gələnəyinin dolaşıq salınmaması üçün balballarının basırıq olan yerlərdə qoyulduğunu nəzərə almaq gərəkir. Çin qaynaqlarında qaba yonulmuş daşların balbal kimi istifadə olunması gələnəyi verildiyi kimi, bəzi orta əsr yazarlarının əsərləri içində də belə bilgilərə rast gəlmək olur, bəzi qaynaqlar balbalın ağacdan da hazırlandığını qeyd edir. Bu gələnəyin oğuzlar arasında tanığı olmuş İbn Fadlan da belə yazır:

> «Əgər ölən kimsə sağlığında insan öldürmüş qəhrəmandırsa, onda öldürdüyü insanların sayı qədər ağacdan surət yonub qəbrinin üzərinə di-

[64] *СЕВЭС*, 35-36.

kir, *bunlar onun xidmətçiləridir, cənnətdə ona xidmət edəcəklər* - deyirlər».[65]

III Bölmə

# DAŞBABA

## DAŞBABA GƏLƏNƏYININ QAYNAĞI

İnsanoğlu hələ mağarada yaşadığı çağlarda qayaüstü şəkillər çəkir, cizgi və boya rəsmlərilə ilgilənirdi, ancaq bərəkət tanrısı (ulu ana) bədizinin gildən yapılması sonralar əkinçilik kulturunun yaranması ilə ortaya çıxmışdır. Bu baxımdan, bədiz gələnəyinin qaynağını da ilk əkin kulturunun yarandığı bölgələrdə aramaq gərəkir.

Dünya mədəniyyət tarixinin əkinçiliklə, əkinçiliyin də Ön Asiyada yaranması elmə bəllidir. Bu da bəllidir ki, öncə Urmu hövzəsində başlanan bu kultur gəlişmə sonralar ətraf bölgələrə «Yarım ay» görünüşlə yayılmışdır:




Dünyanın ən qədim məbədi sayılan Göbəklitə-

[65] *İbn Fazlan*, 36.

pənin bu Yarım ayın içində olması doğaldır. Daşbaba gələnəyinin yaranmasına təkan vermiş ilk bədizlərin buradakı prototük bölgələrindən birində ortaya çıxmasını bəkləmək də məntiqli görünür. Bu baxımdan, İkiçayarasının (Mesopotamiyanın) xəritədə qırmızı boyalı quzeyində Urfa, güneyində Sumer bölgələrindən tapılan daş bədizlərin sonrakı daşbaba gələnəyilə müqayisəsi, onların oxşar və fərqli əlamətlərini öyrənməyə yardım edir, alınan sonuclar genetik bağı təsdiq etməsə də, tipoloji yaxınlıq daşbaba qaynağının aydınlaşmasına işıq tutur.




Şanlıurfada məşhur Balıqlıgöl yaxınlığındakı yolu 1995-də genişlədən işçilər torpaq altında kirəç daşından dört parça qırılmış böyük bir heykəli tapıb muzeyə gətirmişlər. Göbəklitəpə qazıntısının bilimsəl başqanı Dr. Klaus Şmidt və Şanlıurfa muzey müdiri Eyyub Bucaqın yazdığına görə, 11 minil yaşı olan bu kişi bədizi dünyada ən qədim heykəldir və bulunduğu illərdə Ön Asiyada bilinən heç bir sənət tərzinə bağlanmadığından bu heykəl haqqında bilgi uzun sürə yayınlanmamışdır.

Sadəcə, öndən görünmek üçün yapılan bu bədizin yan və arxa tərəfi cizgisiz yastı-hamar yonulmuş, başı real ölçüdən iri, göz, burun, qulaq daha bəlirgin yapılmış, yuvarlaq göz oyuqlarına obsidian parçaları yerləşdirilmiştir. Sadalanan bir-iki əlamət onu sonrakı daşbaba tiplərindən fərqləndirsə də, qarnı üzərində əllərin durumu, cinsəl organın veril-

məsi bu Urfa bədizini qədim daşbaba tipləri ilə eyniləşdirir və bəlirtilməyən ayaqların üzüaşağı daralması da klassik daşbabaların özülə oturdulması görüntüsünü əks etdirir.

Beləliklə, dünyada ən qədim bədiz sayılan Urfa daşbabasını şərti olaraq sonrakı daşbabaların prototipi saymaq olar. Əslində, bu bədizim qədimliyi 11 yox, 6-7 minil olsaydı belə, onu bədizlərin prototipi saymaq daha doğru olardı, ona ölçülən tarix quşqu yaratsa da, hər halda çox qədim olması quşqu doğurmur.


Sumer bədizləri

İkiçayarasının güneyi Sumer çağında uyqarlığın ən öndə olan bölgəsi idi. Bütün sahələrdə olduğu kimi, gözəl sənətlər də burada öz inkişaf mərhələsini yaşayırdı. Bədiz gələnəyində formalaşan bəzi cizgilər quzey qonşuları olan prototürk boylarının bədizçi kəsiminə örnək olurdu. Belə ki, bu şəkillərdə gördüyümüz sumer bədizlərinin əlində tutduğu yaraq-yasaq və kasa türk daşbaba gələnəyində kanonik görkəm almışdır. Bu sumer bədizləri daşbaba sayılmasa da, onlarda bəzi daşbaba atributları (sağ-sol əllərin durumu və nəsnələr)


İkiçayarası quzeyində Tell-Xalaf məbədinin bədizləri (m.ö. XI əsr)

vardır. Bunu da vurğulamaq gərəkir ki, 4-5 minil öncə sumer toplumunda ölən bahadıra bədiz yapma gələnəyi olmasını olən dostu Enkiduya bədiz yapacağını Bilqamısın dilindən «Bilqamıs» eposundan öyrənirik.

İkiçayarası quzeyində 3 minil öncəyə qayıtsaq, artıq burada klassik daşbaba tipində bədizlərin yapıldığını görərik, örnəyin, Tell-Xalaf məbədində qoyulmuş bu tanrı bədizləri ümumi görünüşünə görə türk daşbabaları tipindədir, özəlliklə sağ və sol əllərin durumu daşbabaların kanonik görkəmindədir, Tell-Xalaf bədizlərinin yapıldığı çağdan 5-6 əsr öncə isə artıq *kuman* boyunun İkiçayarasının quzey-doğu qonşuluğunda (Hakkaridə) daşbaba gələnəyi vardı.

Beləliklə, əkinçilik kulturunun yarandığı «Yarım ay» zolağında ilk bədizlərin ortaya çıxması, müxtəlif amaclarla yapılan bu bədizlərdə bəzi detalların sonrakı daşbabalarda kanonik elementə çevrilməsi türk daşbaba gələnəyinin Ön Asiyada yarandığını göstərir. Yaranma yeri Ön Asiya olan daşbaba gələnəyinin yaranma səbəbi, ölənin qutuna sunulma amaçı da tipoloji sunaqlarla müqayisədə aydınlaşır.

Türklərdə daşbaba gələnəyinin yaranma səbəbini tam aydınlaşdırmaq üçün türklərlə tarixboyu əlaqəsi olmayan, ançaq eyni daşbaba gələnəyi olan bir xalqla müqayisə aparmaq gərəkir. Belə bir xalq var və bu xalqın daşbaba gələnəyi türk yurdlarından çox uzaqda, dünyanın o biri üzündə olan Pasxi adasında yaranmışdır.



Pasxi adasında daşbabalar



Pasxi adasında yerli xalqın dilində «**baxan göz**» anlamında *moai* adlanan daşbaba gələnəyi 3 minil öncə başlanıb və 5-6 yüzil davam etmişdir. Daha çox azman

görkəmli bu ilginc daşbabaları ilə dünyada tanınan Pasxi adasında müxtəlif ölçülü 887 moai qeydə alınmışdır.

Burada daşbaba bədizlərini araşdıran Van Tilburqa yazır ki, onlar ideoloji və siyasi-ekonomik amacla yaranmışdır. Yerli əfsanəyə görə, yeni yurd axtarışı ilə adaya gəlib ilk yurd salan Xotu Matua adlı soybaba öləndə ada onun altı oğlu arasında bölünmüş, onların soyu burada davam etmişdir. Beləliklə, adada ölən hər soybaba qutunun (ruhunun) yerləşməsi üçün ayrıca yapılan bədiz həmin soya aid ailələri hifz edən qüvvə sayılırdı, yerli inanca görə, belə daşbabaların icmaya yönəlmiş *baxan gözləri* soydaşları qorumalı idi.

Pasxi adasındakı daşbaba gələnəyi türk daşbaba gələnəyilə oxşar və fərqli yönlərə malikdir, belə ki, ölənin qutu yerləşəcəyi inancı ilə onun bədizini yapma amacı hər iki etnosda daşbaba gələnəyini yaratmışdır, bu gələnəkdə daşbaba konkret bir şəxsin, ölən adamın bədizidir, hər iki gələnəkdə bədizin əlində kasa vardır, toplumda bu daşbaba bədizlərinə qutsal tapınaq baxışı vardır, Pasxidə onlara himayə edən qut kimi baxılır, Türk ellərində ona qurbanlıq sunulur (daşnənədən isə imdad istəyirlər). Son çağlara qədər davam edən çoxçeşidli türk daşbaba gələnəyinin 5 minillik tarixi ilə müqayisədə 5-6 əsr davam edən Pasxi daşbabalarının türlü çeşidləri yaranmadı.

Göründüyü kimi, Pasxi və türk daşbabaları arasında genetik bağ yox, tipoloji eynilik vardır, hər iki gələnək bir-birindən asılı olmayaraq, ayrı-ayrı xalqın yaşadığı ayrı-ayrı bölgələrdə və ayrı-ayrı çağlarda yaranmışdır. Tipoloji oxşarlıqsa onların eyni amacla ortaya çıxmasındadır; ölən adamın (soybabanın) əlində kasa tutmuş görkəmdə bədizinin yapılması hər iki etnosun etnoqrafik gələnəyinə çevrilmişdir.

Beləliklə, daşbaba gələnəyinin yaranması ölənin qutu (ruhu) basırığı başında yapılmış bədizinə keçib ötəki dünyada onu yaşadacağı inancı ilə bağlıdır. Bu amacla yapılan ilk türk daşbabalarının harada ortaya çıxması sorusunasa vaxtilə irəli sürdüyümüz Urmu teoriyası işığında cavab axtarmaq gərəkir, çünki türk dilini «Altay dil ailəsi» ilə bağlayıb, Altayla Monqolustanı türklərin atayurdu sayanlar türk etnosunun etnogenezinə aid sorulara elmi cavab tapa bilmədikləri kimi, türk daşbabalarının genezisinə də gerçək yorum verə bilmirlər. Onlara görə, daşbaba gələnəyi 2500 il öncə burada Saqa çağında yaranmış, geniş yayılması isə 1500 il öncə Göytürk çağından başlanmışdır.

Halbuki, Urmu teoriyası daşbaba gələnəyinin 5000 il öncə Ön Asiyada yarandığını və başqa örnəklər kimi bu gələnəyi də buradan Doğuya köçən türk boylarının apardığını bəlgələrlə açıqlayır. Türk və monqol gələnəklərini dərindən bilən N. M. Yadrintsevə görə, monqollarla söhbətlərində buralarda görünən daşbaba və kurqanların onlara aid olmadığını deyirmişlər. Belə də deməliydilər, çünki monqolların yas gələnəyinə görə, ölən adamı qazılan torpaq basırığa qoyub üstünü yer üzü ilə bərabər səviyədə doldurur, sonra üzərinə ilxı sürürdülər ki, torpaq tapdansın, basırıq yeri bilinməsin. Basırıq yerlərini itirmək gələnəyilə yaşayan bir xalqda nəinki

daşbaba-daşnənə bədizi, ümumiyətlə, basırıqlarda bəngüdaş, daşat, daşqoç kimi dikilidaşlar da qoyula bilməzdi.

Yuxarıda deyilənlərdən aydın olur ki, ilk bədizlər Ön Asiyada əkinçilik kulturu yaranan «Yarım ay» bölgələrində ortaya çıxdığı kimi, sonralar ilk daşbaba gələnəyi də buradakı prototürk yurdlarında yaranmış, buradan tarixi köçlərlə quzey və doğu ölkələrə aparılmışdır. Türk daşbaba bədizlərinin türk boyları yaşayan bölgələrdə ortaya çıxması bir daha göstərir ki, türk boyları köçüb yerləşdiyi yeni yurdlarında bu gələnəyi davam etdirmişıər. Daşbaba gələnəyinin tarixi-müqayisəli və tipoloji yozumu isə onun yaranma səbəbini, yapılma amacını, həm də yaranma qaynağını bəlli edir.

### TÜRK ATAYURDUNDA DAŞBABA GƏLƏNƏYI

Daşbaba bədizlərinin son çağlar tapılmasının artdığını vurğulayan V.Voytov yazır ki, bu dəyərli tarixi bəlgələri öyrənmədən qədim türk kulturu və tarixində mürəkkəb olayları doğru anlamaq mümkün deyil.[66] Yazarın daşbaba bədizlərinin öyrənilməsi önəminə bu doğru baxışı bir daha aydın göstərir ki, daşbaba gələnəyinin yarandığı çağı, məkanı düzgün müəyənləşdirməklə türklərin ilkin və sonrakı yurdlarını, tarixi miqrasiyalarını «Urmu teoriyası» ilə bəlirləmək mümkün olacaq. Ona görə də, bu teoriyanın ortaya çıxma səbəbi və önəmi haqqında qısa da olsa, bilgi almaq gərəkir.

Türk dılı qlottogenezi, tarixi gramer və tarixi dialektologiya sahəsində ciddi araşdırmanın olmaması, Prototürk dilinin və Türk dili ailəsinin hansı məkanda və hansı çağda yaranması, özəlliklə bu protodilin hansı çağda dağılmasına yönəlik söylənən fikirlərin arxeoloji bəlgələrə dayanmaması türklərin etnogenezi haqqında Türkoloji elmində çox fərqli

---

[66] *Войтов*, 1987, 92

fikirlər ortaya çıxarmışdır. Vaxtilə fərziyə kimi ortaya çıxan və hələ də sübut olunmamış yanlış «Altay dil ailəsi» teoriyası Türkologiyada dərin kök salsa da, türk etnogenezi elmini də çıxmaza soxmuşdur.[67] Bu nədənlə həmin yanlış teoriyaya qarşı «Urmu teoriyası» irəli sürülmüşdür.[68]

Əksər protodillər m.ö. IV minildə iqlim dəyişmələri səbəbilə başlanan köçlərlə muxtəlif qollara ayrılmış, ayrı-ayrı çağlarda bu qollardan yeni dialektlər, dillər törəmişdir. Orta Avropada yaranmış protohindavropa, Uralda yaranmış protofinuqor, Quzey Qafqazda yaranmış protoqafqaz, Ərəbistan yarımadasında yaranmış protosami və başqa dil ailələrinin keçdiyi bu yol *Türk dil ailəsi* üçün də keçərlidir. Belə ki, Ön Asiyada yaranmış prototürk dili m.ö. IV minilin ortalarında batı və doğu qollara ayrılmış, doğuya gedən prototürk urugları Orta Asyadan İtil yaxalarına və Altaya qədər ayrı-ayrı bölgələrdə ikinci Atayurdlar salmışlar.




[67] «Altay dil ailəsi» teoriyasının yanlış olduğunu yazan komparativist ve türkolog alimlərin (*G. Clauson, V. Kotviç, B. A. Serebrennikov, G. D. Sanjeyev, G. Dörfer, F. Zeynalov, A. M. Şerbak* ve b.) sayı artmagdadır.

[68] Urmu te[illegible]ildlik «Doqquz Bitik» əsərində verilsə də, əsas yönləri 1988-dən üzübəri yazılan məqalə və kitablarda yer almışdır (*Ağasıoğlu*, 1988; 2000; 2007; 201[illegible])

Miladdan öncə IV-II minillər arasında doğuya miqrasiya etmiş türk qolunun Altayda saldığı ikinci Atayurd türkologiyada yanlış olaraq türklərin ilkin Atayurdu kimi yorumlanmışdır. Bu problemi ayrı-ayrılıqda arxeoloji, kultur, etnografik və dilçilik baxımından çözmək istəyənlər olmuşdur. Ancaq türk etnosunun tarixinə xronoloji ardıcıllıqla deyil, tarixin müəyən sinxron kəsiyində və diaxroniyadan kənarda baxılmış, arxeoloji bəlgələr nəzərə alınmadan Ön Asiyanın dışında harada türk varsa, ora *ikinci* deyil, *ilkin* Atayurd sayılmıştır:

> Uzaq Doğu, Mancurya, Xinqan dağları (*Ramstedt*); Baykal gölünün doğusu (*Tomaschek*); Doğu Asya (*Menges*); Mancurya ilə Mongolustanın güneyi (*Parker*); Baykaldan Gobu çölünəcən (*Gahz*); Amur çayı dolayları (*Yavuz*); Altayın doğusu (*Radlov, Ligeti*); Baykalın güney-batısı (*Koppers*); Altay dağları (*Schott, Klaprothe, Hammer, Castren, Vamberi*); Altay-Qırgız bozqırları (*Menghin*); Tanrı dağları (Tyan-Şan) - Asyanın quzey-batı bölgələri (*Stızygowsky*); Tanrı dağları bölgəsi (*Almasy*); Tanrı dağının quzey-batı yaxaları ilə Aral gölü arası (*De Guignes, Togan*); Altay və Ural dağları arası ilə Aral gölü bölgəsi (*Nemeth*); Ural-Altay arası (*Rasonyi*); İrtış-Ural arası (*Zichy*); Orta Asya (*Poppe, Günaltay və Türkiyənin əksər tarixçiləri*).

Göründüyü kimi, türklərin ilkin Atayurdu Mancuryadan Ural dağlarına qədər müxtəlif bölgələrdə göstərilmişdir. Halbuki, bu problemin çözülməsi tarixi köçlərin çağını və yönünü müəyən etməkdən çox asılıdır. Ön Asiya və Güney Qafqazda m.ö. IV minilin ortalarında başlanan quraqlıq nəticəsində buradan quzey və doğu yönlərə ilk böyük köçlər olmuşdur. Orta Asiyada yerləşən prototürk uruglarının bir

qismi quraqlığın artması səbəbilə m.ö. II minildə daha irəli gedərək Ural və Qazaxıstan arası bozqırlarda yerləşmişlər.[69]




Türk boylarının toplum halda yerləşdiyi yeni bölgələr onların ikincı Atayurduna çevrilmişdir. Coğrafi durumuna görə m.ö. IV-II minillər arası dönəmlərdə artıq türk yurduna çevrilmiş Orta Asiya sonralar türk boylarının muxtəlif yönlərə migrasiyası yolunda körpü rolunu oynamışdır.

Doğu türk uruglarının bir qismi Orta Asiya, Qazaxstan üzərindən keçərək bugün xakas, altay, tuva xalqlarının Atayurdu olan Altay bölgəsinə girmişlər. Altayda m.ö. XXV-VIII əsrlər arası bir-birinin ardıca ortaya çıxan *Afanasyevo, Andronovo, Karasuk* və *Tagar* arxeoloji kulturunun batıdan gəlməsi bəllidir. Bura gələnlərin içində türk urugları olması

---

[69] Doğu Aralıgdənizi antropoloji tipinin m.ö. IV-III minillərdə Güney Türkmənistanda görünməsi (*ЭИАСА*, 1979, 10-14); III minilin başlarında Güney Azərbaycandan Orta Asiyaya arxeoloji kultur sızmalarını göstərən boyalı-naxışlı keramik qabların ortaya çıxması (*Авдусин,* 1977, 72-76); II minilin ortalarında Türkmənistanda *Altıntepe* məskəninin dağılması ve əhalinin Quzey Əfqanıstan - Güney Özbəkistan tərəfə (*Sappalı, Gonur, Daşlı*) keçməsi (*ИДВ*, 1979, 319); ve Urmu hövzəsindən doğuya olan köçlər m.ö. IV-II minlərdə migrasyanın batıdan doğuya olduğunu açıq göstərir.

ehtimalı da vardır, lakin m.ö.VIII əsrdən görünən *Aldıbel* kulturu ilə m.ö. V-III əsrlərə aid Saglı kulturunu daşıyanların türklüyü quşqusuzdur. *Arjan* (m.ö. VIII-VII) və *Pazırık* (m.ö. V) kurganları bunun aydın göstəricisidir.

Prototürklərin Atayurdundan dışarıya köçlər olduğu kimi, dışarıdan da buraya və qonşu bölgələrə başqadilli etnoslar köçmüşlər. İkiçayarasına IV minildə gələn *sumerlərdən* sonra III-I minillər boyu dalğalarla buraya sami urugları (*akkad, asur, aramey, ərəb*) gəlmişlər. II minilin başındasa quzey-batıdan Orta Anadoluya hindavropadilli *hetlər,* VIII-VII əsrlərdə *frig* və *haylar,* quzeydən Güney-Doğu Anadoluya isə II minilin başında qafqazdilli *hurrilər*, eyni minilin sonunda *urartular* gəlib yerləşmişlər. Qaradənizin quzeyindən qalxaraq Orta Asya üzərindən Əfganıstanın quzeyindəki Areya bölgəsinə gələn ari (*hindiran*) urugları orada m.ö. II minilin sonlarında iki qola ayrılmış, biri Hindistana, digəri də m.ö. VIII əsrdə İranın güneyində adı türkcə *Bars* (Fars) olan bölgəyə gəlib yerləşmişlər.

Göründügü kimi, Ön Asiyada prototürk yurdları bura gələn başqadilli etnoslarla dolmuş, türk uruglarının çoxu isə doğu bölgələrə keçmişlər. Eyni durumu o çağlarda Ön Asiyadan Hindistana köçən protodravidlər də yaşamışlar. Beləcə, saqaların m.ö.VII əsrin başlarında Ön Asiyaya qayıdışına qədər buranın etnik demografyası önəmli dərəcədə dəyişmişdir.

IV-I minillərdə Prototürk Atayurduna gələn başqa dilli xalqlar



Türk xalqlarının sonrakı Atayurdlarından köklü şəkildə fərqlənən prototürk etnosunun ilkin Atayurdu problemi, onun tarixi-coğrafi sınırları antropoloji, arxeoloji, tarixi, coğrafi bəlgələrlə yanaşı, dilçilik, folklor, etnografik və mifoloji bəlgələrin tarixi-müqayisəli təhlili və kompleks analizilə ortaya çıxır, alınan sonuc isə Urmu teoriyasının əsaslarını təşkil edir.



Avropoid irgin Aralıqdənizi tipinin Kaspi çaları:
Solda Azər türkü, sağda Türkmən

Avropoid irgin Aralıgdənizi tipinə aid dolixokefal türk etnosunun doğuya migrasiya etmiş urugları minillər boyunca orada iç-içə yaşadıqları braxikefal və mongoloid tiplərlə qarışmış, Ön Asiyaya qayıdan türk boyları xəfif də olsa, bu antropoloji cizgilərlə geri dönmüşlər. Atayurddan uzaq düşməyən türkmən-azər boylarında isə ulutürk çağından qalma klassik Ön Asiya antropoloji görkəm daha qabarıq qalmışdır.

Altayda gerçəkləşən türk-mongol qarışması Hun çağı intensivləşmiştir. Minusin çuxurunda hələ m.ö. VII-IV əsrlərdə əhalinin çoxu avropoid idi, yalnız Taştık kulturu (m.ö. III - m.s. V) çağında burada mongoloid və qarışıq tiplər görünür. Tuva-Xakas bölgəsi avropoid braxikefal tipin formalaşdığı ərazidir. Çağdaş xakaslarda mongoloid cizgilər qabarıq olsa da, Taştıklı protoxakaslarda mongoloid cizgilər hələ zəif idi, hətta m.s. VII-X əsrlərə qədər Tibet və Çin qaynaq-

ları onları mongol-tibet boylarından fərqli «*sarısaç, göygöz*» insanlar kimi verirdilər.[70]

Xakas-sagay toplumundan ayrılıb doğuya gedən *saxa* (yakut) boyları Baykal yaxasında mongoloidlərlə davamlı qaynayıb-qarışmış və bura saxaların ikinci Atayurduna çevrilmişdir. Sonralar quzey-doğu bölgələrə keçən və fiziksəl görkəmi mongol-tunguslara yaxın olan saxaların dilində də türk dillərilə olan fərq artmıştır.

Etnoarxeoloji metodun gərəkliyi quşqusuzdur, bu baxımdan, etnik tarixin mərhələlər üzrə öyrənilməsində tarixi-müqayisəli dilçilik və paleografiya ilə yanaşı, İslamöncəsi yazılı qaynaqlarda təsbit olunan türk etnik bölgələrinin arxeoloji kulturuna dayanaraq daha əski çağlara aid analoji kulturun etnoarxeoloji özəllikləri arasında paralellik arayıb müqayisələr aparmaq elmi metoda aykırı deyildir. Bu yöndə aparılan araşdırmalar göstərir ki, türk etnoarxeoloji kulturunun qaynağı Dəclə çayı ilə Van-Urmu-Göycə göllərinin hövzələridir.

Prototürk etnosuna aid arxeoloji kulturda etnik özəllik özünü bükülü basırıq (sonralar atlı basırıq, balbal, daşbaba əlavə olunmuşdur) və kurgan kulturunda göstərir. Prototürk çağında Ön Asiyada bir-birinin davamı kimi yaranmış arxeoloji kulturların (*Carmo, Xalaf, Hasun, Kür-Araz*) dışarıdan gəlməsi faktı yoxdur, dışarı daşınması faktı vardır. Ancaq əski türklərin migrasiyasını doğudan batıya olduğunu yazanlar arxeoloji kulturun xronologiyasını və yerdəyişmə yönünü nəzərə almadan köçün istiqamətini tərsinə verirlər. İkiçayarasında *Xalaf kulturu* üzərində yaranmış quzey *Ubeyd kulturu* sonralar Türkmənistanın güneyində (*Göksur* 1) ortaya çıxırsa, *Anau kulturunun* batı qolu Tehran ətrafı kulturun davamı, doğu (*Moncuklu-dəpə*) qolu isə İrandakı *Sialk,* hətta İkiçaya-

---

[70] *ПСДК,* 1954, 199.

rasındakı *Xasun kulturunun* davamıdırsa, onda necə köçün yönü doğudan batıya olur? Halbuki, bu arxeoloji kulturları araşdıran uzmanlar köçün yönünü batıdan doğuya olduğunu dəfələrlə vurğulamışlar.[71] Özəlliklə, bunu da unutmamaq gərəkir ki, Güney Sibirdə *neolit* çağı Ön Asiyadan 4 minil sonra başlanmışdır və bu zaman fərqini gözardı edənlər türk tarixi haqqında fantastik nağıllar quraşdırıb, gerçək qədim tarixin üstünə qara pərdə çəkirlər.

Əkinçilik, qoyunçuluq, atçılık, dəmirçilik, xalçaçılıq sənətinin, təkər və arabanın Ön Asyada yaranıb buradan ətraf bölgələrə yayılması bəllidir. Doğu türklərdə özünü göstərən atlı və bükülü basırıq (ölü gömmə) kulturu, mifoloji və folklor motivləri, qədim inanc və kultlar, kosmonim və teonimlər, hətta türk sözü olan «tanrı» (tenger) deyiminin özü də Ön Asiya mənşəlidir.

Etnografik gələnəklər daha konservativ olur, özəlliklə, ölü bastırma adəti minillər boyu dəyişmədən davam edir. Bu baxımdan, m.ö. IV-III minillərdə İkiçayarasında *subar* boylarının bükülü basırıq gələnəyi önəmli bəlgədir. Rus tarixçiləri yazır: «Subarlar təbiət olaylarını ilahiləşdirib o biri dünyanın varlığına inanırdılar. Açılan basırıqlarda qab-qacaq, daş və sümük alətlərlə birlikdə bükülü basdırma adəti görünür».[72] Ölünün bükülü halda basırığa qoyulması əksər türklərdə İslamaqədər davam etmişdir.

Türk basırıq gələnəyində yayğın olan daşbabaların ən qədim örnəkləri prototürk Atayurdunda - Hakkari, Meşkin, Astara, Qobustan və Abşeronda bulunmuşdur:




[71] *Энеолит СССР*. 1982, 34; *Сарианиди*, 1970, №4, 24.
[72] *Авдиев*, 1948, 358.

Etnoqrafik gələnəklər sırasında konservativliyilə seçilən daşbaba gələnəyinin də Ön Asiyadan türk köçlərilə doğu və quzey ölkələrin bozqırlarına aparılması quşqu doğurmur.




Prototürk boylarının zaman-zaman Ön Asiyadan getməsi burada türk etnosunun sıxlığını azaltsa da, 2700 il öncə başlanıb XI-XII əsrlərə qədər dalğa-dalğa davam edən gerı qayıtmalar əski Atayurdda türklərin sayını artırmışdır. Öncə doğuya, sonra batıya olan türk köçlərinin oxşar və fərqli səbəbləri vardır. Doğuya ilk köçlər uzmanların «büyük migrasiyalar çağı» adlandırdığı m.ö. IV-II minillərin ortalarında gerçəkləşmiştir.[73] O çağda yük və qoşqu heyvanları ilə Ön Asiyadan dışarı köçləri Urmu-Van gölləri arasında yaranmış

[73] *Заблоцка,* 1989, 43.

ilk təkər-araba da qolaylaşdırmış, m.ö. II minilin ortalarında isə atçılıq, ata minmə bozqır yaşamına keçən atlı-arabalı türk boylarına daha uzaqlara getmək imkanı vermişdır.[74]

Tarixi köçlərin bir qismi iglim, landşaft dəyişmələri, quraqlıq, yeyəcək qıtlığı, epidemiya, savaş, deportasiya səbəbilə, bir qismi də əhalinin artımı və yeni barınacak bölgələrin aranması ilə gerçəkləşir. Miladın ilk əsrlərində Altay-Mongolustan bölgələrində başlanan quraqlıq hunların batıya köçlərilə nəticələnmiştir. Çinin quzeyindəsə III əsrdə davam edən quraqlıq, aclıq və savaş dağıntıları ilə əhalinin sayı 80 % azalmışdır.[75] Bəzən biosferdə yaranan münasib şarait bölgə xalqına təpər verib passionarlığını artırır. Göytürk çağı qırgızların 80 min əskəri vardı, XI əsrin başındasa onlar savaşa 400 min əskər çıxara bilirdi. Orta Asiyadan oğuz-türkmənlərin Azərbaycan, İrak və Anadoluya köçməsi səbəbini o çağın ərəb yazarları «ailələrin çoxalması» ilə izah edirdilər.[76]

Tarixi köçlərin səbəbi, türü və yönünü göstərən antropoloji, arxeoloji, demografik, onomastik bəlgələr, qaya rəsmləri, damğalar, yazılı qaynaqlar öyrənildikcə qədim türklərin etnik çoğrafyası da öz gerçək üzünü göstərir. Tanınmış türkolog A. N. Samoyloviç qırx il sovet dilçilik məktəbinin lideri olmuş akademik N.Y. Marrın bu sözlərinə yüksək dəyər vermişdir:

> «*Aralıgdənizi sahillərində türklərin tarixi varlığı yunan və latın dillərinin yaranmasından, yunan-rum dünyasının ortaya çıxmasından əvvəldir*».[77]

---

[74] Altay eposlarında yerli faunaya yad olan batı bölgələrə aid heyvanlar vardır (*Сагалаев,* 1984, 69).

[75] *Гумилев,*1990, 74.

[76] *Togan*, 1981, 143, 146.

[77] *Самойлович,* 1935, 119.

Türk onomastikasının Ön Asiya yazılı qaynaqlarında yer alması, eyni adların sonralar Güney Avropadan Güney Sibir və Türküstana qədər geniş bölgələrdə üzə çıxması xronoloji ardıcıllıq baxımından migrasyanın yönü və çağı haqqında bilgi verir. Ön Asiyada işlənən türkcə çay, dağ və yer-yurd adları, şəxs və boy adları buradan gedən boyların etnik yaddaşında yaşamış, yeni Atayurdda yenidən işlənmiştir.

Yazılı qaynaqlar m.ö. III-I minillər boyu Ön Asiyada *Subar, Aratta, Qut, Turuk* (Türk), *Kumuk, Kuman, Ərmən, Alban, Aran, Saqa, Kaspi, Bars, Padar, Azar* (Azər), *Urmu, Gamər, Gögər, Gargar, Sangi* (Zəngi), *Kaşkay, Polad* və sair bu kimi bölgə, ölkə, şəhər, dövlət, bəylik adlarını çəkir ki, bunların da əksəri türk etnotoponimləridir.

Türk dillərində *irəli* sözünün «doğu» anlamı doğuya gedərkən yaranmışdır. Rəng bildirən türk sözləri isə ilkin Atayurdun çevrəsində dənizlərin hansı tərəfdə bulunduğunu göstərir: Qara (quzey), Qızıl (güney), Ağ (batı), Göy (doğu). Türk Atayurdundan güneydə Herodot Fars körfəzinin də Qızıl//Qırmızı adlandığını yazır. Doğuda isə iki *Gökgöl* vardı və Xəzərin bir adı da *Gökdəniz* idi. Belə ki, Ön Asiyanın dəniz adları da türk Atayurdunun koordinatlarını sərgiləyir.

Monosillabik devri ilkin Atayurdda keçirən Prototürk dili dağılanda artıq stabil gramatik quruluşa, zəngın leksik bazaya malik idi. İkiçayarasına gəlib türklərlə qonşuluqda yaşayan sumerlərin dilinə keçən sözlər sırasında bu feillər vardır: *dur-, düş-, de-, tök-, get-, it-, kaç-, kal-, koru-, çap-, tak-, deg-, eş-*. Türkizmlər başqa qonşu xalqların (hat, elam, kassi) və bura gələn akkad-asur, hurri-urartu, hetlərin dilinə də keçmişdir. Ön Asya izoglosları sırasında *kut, tengri, dağ, təpə, su (sub), kab, bars, börü* kimi yüzlərlə söz və *Tarkan, Alpan, Turan, Ugur, Qamata* və başqa türk adları vardır. Sa-

qaların Ön Asiyaya qayıdışından öncə türklərin buraya gəlməsi haqqında arxeoloji və yazılı bəlgə yoxdur. Bu halda m.ö. III-I minillərə aid bu qədər türk sözü haradan çıxdı? Təbii ki, Urmu teoriyasından fərli olaraq, Altay teoriyası bu yöndə başqa sualları cavabsız buraxdığı kimi bu suala da cavab verə bilmir.










Doğuya köçərək oturduğu bölgənin yerli xalqları ilə bilingvizm şəraitində yaşayan türklər yüksək kulturu və dil təpərilə Orta Asiya, Altay və Türküstan bolgələrindəki geosiyasi və etnolingvistik alanda hegemon duruma çıxmışlar. Mongol və tunguslarla iç-içə yaşam isə «türk-mongol-tungus dil ittifaqı» yaratmışdır. Belə birlik genetik qohumluq yox, sonrakı kontaktla yaranmışdır, burada söz qonusu «dil ailəsi» deyil, «dil əlaqəsi» olmalıdır.

Yuxarıda deyilənlərdən göründüyü kimi, Urmu teoriyası işığında türk etnosuna aid daşbaba gələnəyi qaynağının Ön Asiyada axtarılması doğaldır. Qədim türk daşbabalarının Azərbaycanda və Anadolunun güney-doğusunda ortaya çıxması bir daha Urmu teoriyasının tarixi gerçəkliyə dayandığını göstərir. Bu qədim daşbabaların bulunduğu Astara, Meşkin, Hakkari axar-baxarlı mənzərəsi, Qobustanla Abşeron isə dəniz qıyısı gözəlliyilə seçilir.

Hakkaridə daşbabaların ayrı-ayrı yerlərdə deyil, eyni yerdə topa halında olması belə qənaət yaradır ki, bu daşları toplayıb bir yerə yığanlar oranı qutsal ocaq kimi dəyərləndirmiş, ilin müəyən günü, çox güman ki, Yeni ilin başlandığı martın 21-də burada törən keçirmişlər. İndi də Yeni il bayramında yaxınlarının basırığını ziyarət gələnəyi azər türklərində davam edir.




Meşkində *Şəhəryeri* adlanan basırıqlıqdan daşbabaların toplanıb bir yerə yığılmasısa son çağlara aid olaydır. Şəkilləri mənə göndərmiş soydaşlarıma görə, yerli aydınlar bu nadir tarixi bədizlərin dağılmaması üçün onları bir yerə toplamışlar:







Ərdəbil mahalında Meşkinin 30 km güney-doğusunda qədim basırıqlar olan Pirazmian (Şəhəryeri) adlı yerdə 500-ə qədər daşbaba bulunmuşdur. Çoxu tuf daşından yonulmuş və

boyu 35-230 *sm* olan bu daşbaba bədizlərindən bir qisminin daş özül üzərində olması nədəniylə bəzi uzmanlar buranı qədim məbəd yeri saymışlar. Pirazmian adı da (*Azmi-piri*) bu yoruma əsas vermişdir, çünki «azlar» boyadı anlamında qədim *azmi* (az-mi//az-bi) boyadı *azər* və *azərbi* (azər-bi) etnoniminin, *Azərbiqan* ölkəadının kökündə dayanan *az* boyadı aşağı-yuxarı 3 minil öncə Azırbaycanda geniş yayılmışdı, o dönəmlərdə Urartu ordularının zəbt etdiyi İrəvan çuxuru da Az ölkəsi adlanırdı.



Şəhəryeri (Pirazmian) böyük bir sahəni əhatə edir, burada 3200 il yaşı olan üç tapınaq, 2800 il öncə tikilmiş qala xarabalığı, mağara, üç yüzə yaxın qaya oyuğunda başırıq və Quştəpə adlı yer vardır.






Keçən əsrin ortalarından sonra arxeoloji qazıntılar burada 9 minil öncəyə aid (neolit çağı) yaşayış məskəni aşkar etmişdir. Ancaq daşbaba gələnəyi burada 4-5 minil öncə yaranmışdı və Urartu çarı II Argişti buranı tutana qədər davam etmişdir. Belə ki, Urmu gölünün quzey və doğu yaxalarını işğal edən Urartu çarı I Arqiştidən fərqli olaraq, ondan sonra m.ö. 747-745-ci illərdə bura yürüş edən II Sarduri daha doğuya, Azərbaycanın iç bölgələrinə yürüş edib indiki Arasbaran və Qaradağa tərəf keçdi. Burada Puluadi ölkəsinə girdi və sonralar onun nəvəsi II Arqişti üçün buradan indiki Ərdəbil bölgəsinə girmək üçün şərait yarandı.

Qotur-Xoy-Mərənd-Əhər yönündə irəliləyən II Sarduri o çağlarda Puluadi (***Polad***) adlanan bəyliyə girərkən güclü dirənişə rast gəlsə də, bölgə bəyi Kadiau(ni)n başkəndi Liblini tutur.[78] Qaradağ bölgəsində müasir Varzakan qəsəbəsi yaxınlığında tapılan qaya üzərindəki bu bəlgəni Q. A. Melikişvili oxumuşdur.[79]

---

[78] Dağlıq ölkə kimi verilən Polad bəyliyində başçının adı (*Kadiau*?) mixi yazıda pozuqdur: $^{I}$Ka(?)d[i]auni LUQAL $^{KUR}$ Puluadi… (УКН, səh. 453).

[79] *Maşkur,* 1953; ВДИ, 1960, №3, 3-11; Uzmanlar Libli şəhərini Əhərin (Axar) quzey-doğu tərəfində yerləşdirir (ТУ, 126).

Polad bəyliyində (Qaradağ mahalı) dəmir, qurğuşun, mis və sair metallar istehsal olunurdu. Ön Asiyanın bir çox dillərinə metal adı kimi keçmiş «pulad» (polad) sözünün yaranmasını Q. A. Melikişvili, doğru olaraq, Urartu yazısında verilən Puluadi ölkəsinin adı ilə bağlayır.[80]




Azərbaycanın müxtəlif bölgələrindən tutmuş, Türküstan və Kırıma qədər yüzlərlə Polad, Poladlı kəndləri vardır. Türkmənistanda ata, qayı, gökleñ, xerzek (xorəzle//xoruz) çovdur, sarık, ərsarı boyları içində *polatkel, polat, polatlı, polatşa* tirələri geniş yayılıb, qaraqırğız boylarında da *bulat, bulattı* tirələri vardı.[81]

---

[80] *Меликишвили,* 1968, 124; Müəllif metal adlarından bəzisinin istehsal olunduğu yerin və ya metalı istehsal edən boyun adı ilə adlanmasını tarixi bəlgələrlə göstərmişdir. Mineral adlarının şəxsadı kimi işlənməsi də bəllidir: Dəmir, Gümüş, Qızıl, Polad, Zümrüd və s.

[81] *Атаниязов,* 1988, 98; *Радлов,* 1989, 110-111; İranda bir neçə bəxtiyar boyunun birləşdiyi *puladvand* boyu, fuladlu (*puladlu*) adlı şahsevən boyu var (*СИ*, 629, 638).

Yaz və yay aylarını tarixi Polad bölgəsinə yaxın Qaradağın doğusunda Araza qovuşan Qarasu yaxalarında, Xoruzlu dağın yaylaqlarında, qışı isə yaxındakı Muğan bozqırında keçirən çağdaş şahsevən elatı içində *kuzatlu, təklə, dəliqanlu* ilə yanaşı, *pulatlu* boyları da vardır. Göründüyü kimi, qədim polad boylarının böyük kəsimi *poladlı* adı ilə digər türk köçlərinə qoşulub, Xəzərin dörd tərəfinə dağılsa da, buradakılar üç minil öncə yaşadığı Atayurddan kənara çıxmamışdır.









Şəkillərdən də göründüyü kimi, Şəhəryeri daşbaba bədizləri görkəm özəlliyi ilə seçilir, onların ağız cizgisi verilməsə də, gözü, qaşı, burnu, beş əl barmağı və enli kəməri, kəmərə taxılmış xəncər qabarıq yonulmuşdur.

Müxtəlif çağlarda buradakı basırıqlarda olan nəsnələrin yağmalanması, uzun müddət baxımsız qalan bədizlərin dağılması müşahidə olunur. Deyilənə görə, bura baş çəkən

arxeoloqlar da olmuşdur, təəssüf ki, Meşkin Şəhəryeri daşbabaları haqqında M. L. İngraham və G. Summerin birgə yazdığı məqaləni tapa bilmədim.[82]



Qobustan daşbabası, kurqan №3 (Muradova, 1979)

Meşkində daşbaba gələnəyinin yaranma çağı (m.ö. III minilin sonu II minilin əvvəli) ilə eyni dönəmə aid Qobustan daşbaba bədizi (m.ö. III minilin sonu) məhv edilsə də, vaxtilə Qobustanda 3 №-li kurqanı tədqiq etmiş arxeoloq F. Muradova buradakı daşbabanın fotosunu çəkib və hündürlüyü 140 *sm* olan bu daşbabanın qalınlığını, baş və çiyin ölçülərini göstərmişdir.[83]



**Daşbaba. Asxanakeran (Astara)**
*(Schachner A. 2001,119)*

Azərbaycanda belə qədim daşbabalar Abşeron (Dübəndi) və Astara (Asxanakəran) bölgələrində də tapılmışdır. Asxanakəran daşbabası haqqında arxeoloq Von Andreas Şaxner çox əhatəli araşdırma aparmışdır.[84] Bu Münxenli uzman Astara tarix müzeyində saxlanan daşbabanın tarixini m.ö. II minilliyə aid etsə də, onun daha qədim ola bilməsini də istisna etmir, Astara-Dübəndi daşbabalarının ikonoqrafik paralelliyi, onların zaman yaxınlığı üzərində də dayanır.

---

[82] *Ingracham - Summer*, 1979, 67-101.
[83] *Мурадова,* 1979, 37; Qobustan qoruğunun direktoru olmuş arxeoloq C. Rüstəmovun mənə dediyinə görə, burada daş karxanasının işçiləri bulduzerlə həmin daşbabanı məhv etmişlər.
[84] *Schachner,* 2001, 115-142.

Meşkin daşbaba bədizlərindən fərqli olaraq, Astara və Abşeron daşbaba bədizlərinin görkəmi ikonoqrafik, həm də tipoloji baxımdan daha çox Hakkari və Ukraynada m.ö. III minilin sonlarına aid edilən Kernosovka daşbaba bədizlərinə yaxındır. Özəlliklə, kəmərin altında cinsəl orqanın təsvir edilməsi bu bədizlərin xarakterik əlaməti olmaqla, həm də onların qədimliyini bildirir. Eyni paralelliyi m.ö. I minildə saqa daşbaba bədizlərində də görmək olur.







Azərbaycanda daşbaba üzrə xeyli elmi araşdırmaları olan M. Xəlilov yazılarında vurğulayır ki, Alban çağına aid Qarabağda 19 daşbaba qeydə alınmışdır. Bu abidələr Suma, Mollalar, Şəfibəyli, Güllücə (Ağdam), Şatırlı (Bərdə), Canyataq (Ağdərə), Seysulan (Tərtər) kəndləri yaxınlığında aşkar edilmişdir.[85]

Sovet dönəmində üzdə görünməyən bir alt siyasətlə kurqanları dağıdıb əkin yerinə çevirdikləri kimi, daşbaba bədizlərini də sındırıb tikinti materialı kimi istifadə edirdilər.

[85] *Халилов,* 1988; 2004.

Füzuli rayonunda tapılan belə daş bədizlərsə «toplanıb bir təpənin altında basdırılmışdır».[86] Görəsən, indi o təpənin yerini bilən varmı?



Azərbaycanın başqa bir bölgəsində (təəssüf ki, bölgənin adını yazmamışlar) tapılan daşbabaların mənə göndərilən şəkilləri aydın çəkilməmişdir. Qalın bir meşədə bulunan həmin daşbabalar çox güman ki, Alban eli çağına aiddir. Onları mamır basdığından və keyfiyətsiz fotoları sifət, əl-qol, yaraq-yasaq cizgilərinin aydın seçilməsinə imkan vermir:[87]




Toplu şəkildə Hakkaridə bulunmuş daşbabaların şəkilini yuxarıda vermişdik. Hakkari daşbabalarını bütün detalları ilə incələyib araşdıran Vəli Sevin onların tarixini m.ö. XV yüzildən başlayaraq

---

[86] *Göyüşov,*107.

[87] Bu fotoları göndərən soydaşlarım onların dəqiq yerini mənə yazsa, ulu tariximizə xidmət etmiş olarlar. Belə bir imkan yaransa həmin daşbabaları yerində incələməklə yapılma tarixini müəyən etmək olar.

bir neçə əsr davam etdiyini yazır, 13 bədizdən ikisinin daşnənə (qadın heykəli) olduğunu qeyd edir.[88] Yazar daşbaba gələnəyinin etnik mənsubiyəti məsələsinə çox ehtiyatla yanaşsa da, gəldiyi nəticə doğrudur. O, türk ellərində yayılmış daşbaba gələnəyindəki kanonik atributları diqqətə alaraq kitabını bu sözlərlə bitirir:




*«Bu şaşırtıcı bənzərlik, Orta Asiya, Güney Rusiya, Hakkari-Azərbaycan yörələri arasındakı çox əski bir ilişkinin işarəti olmalıdır. Əgər belədirsə, Hakkari daşları bizi protohindavropadan çox prototürklərə götürür».*[89]

Görünür ki, Vəli Sevin bəy bizim Anadolunun güney-doğu bölgələrinin tarixi ilə bağlı yazılarla tanış deyil, çünki Hakkari məhz Asur-Urartu dövlətləri arasında m.ö. XIII-VIII əsrlərdə mövcud olmuş kiçik ***Kuman bəyliyi*** ərazisində idi.[90] Ona görə də, həm Hakkaridə tapılan, həm də sonralar Qafqazın quzey, Avropanın güney-doğu bozqırlarında görünən kuman-qıpçaq daşbabaları arasında tipoloji yaxınlıq vardır. Bu yaxınlığı sərgiləyən daşbaba gələnəyilə *kuman-qıpçaq, saqa* və *Xınıs* (Xunus) kimi onomastik sözlərin yanaşı işlənməsi də genetik bağı göstərir.

---

[88] Hakkaridə tapılan daşbaba barədə məlumatı, onların şəklini mənə göndərən dostum prof. Mustafa bəy Önərə və V.Sevinin «Hakkari taşları» (2005) kitabını mənə gətirən Seyfəddin bəy Altaylıya təşəkkür edirəm.

[89] *Sevin*, 2005, 103.

[90] *Azər xalqı,* 2000, 39-46.

Bunu bilmək gərəkir ki, adı asur və urartu yazılarında beş əsr davamlı olaraq çəkilən kiçik Kuman bəyliyində *Saka* adlı iki kənd vardı.[91] Azaq dənizinin yaxalarından m.ö.VIII-VII əsrlərdə Doğu Anadolu və Azərbaycana qayıdan elbəyi saqaların (*basileyi skuthai*) məhz bir neçə əsr öncə bu bölgələrdən quzeyə və doğuya miqrasiya etməsini göstərən bəlgələr bəllidir.[92]

Burada bir məqamı xatırlatmaq yerinə düşər. Hakkari bölgəsində asur-urartu qaynaqlarına görə m.ö. II-I minillərdə yaşamış kuman boyunun burada «güvənc yeri olan *Xunus*» adlı kəndləri vardı. Həmin çağlara aid daşbabaların kuman boyuna aid olması və Alban dövrünə aid daşbabaların Şamaxıda *Xınıslı* adlı kəndin basırığında ortaya çıxması, həm də Avropanın güney çöllərində aşkar edilən m.ö. I minilliyə aid saqa, X-XIII əsrlərə aid kuman-qıpçaq daşbabaları aydın göstərir ki, bu gələnəyi prototürk Atayurdundan quzeyə və doğuya aparan saqa-kuman boylarına aid kurqan basırıqlarında yayılmışdır.[93]



Daşbaba
Xınıslı (Şamaxı)

[91] *АВИИУ*, №34; Kuman bəyliyi haqqında bəlgələr Asur çarları Tukulti-Ninurta (XIII əsr), I Tiqlatpalasar (1115-1077), II Adadnerari (911-890) və Urartu çarı Menua (IX əsrin sonu) yazılarında vardır. Asur çarı Sinaxxeribin (705-681) Cudi dağında qoyduğu yazıda isə kuman şəhərlərinin adı çəkilsə də, artıq Kuman bəyliyi Asura tabe idi.

[92] *Ağasıoğlu*, 2006.

[93] Vaxtilə Türkiyə tarixçilərinə dediyim bir sözü yenidən təkrar etmək istəyirəm. O vaxt deyirdim ki, Güney-Doğu Anadoluda arxeoloji qazıntılar aparsanız yeraltından türk bəlgələri çıxacaq. Tarixçi dostlarım bunu fantaziya sayırdı, ancaq sonralar Hakkaridə tapılan daşbabalar mənim fikrimi təsdiq etdi, nə yazıq ki, qədim türk tarixinə işıq tutan bu bədizləri arxeoloqlar deyil, evini təmir etmək istəyən bir kəndli tapdı. Yenə deyirəm, Orta və Doğu Anadoluda Xınıs, Xunus və Qamər adlı kənd yerlərində arxeoloji qazıntılar aparın, Urartuöncəsi tarixlərə enin, orada türk izi var.

Yazılı qaynaqlarda *kuman* və *qıpçaq* etnonimləri sinonim kimi işlənir, ola bilsin ki, qıpçaq adı kuman boylarının bir bölümünə aid olmuşdur. Bu baxımdan, Kuman bəyliyinin paytaxt şəhərinin *Kibşa* (Kipşu) adı ilə *kıpça*(*k*) sözünün yaxınlığı diqqəti çəkir, belə ki, mixi yazıda «ç» səsini bildirən işarə «ş» kimi yazıla bilər. E. Forrer asur yazılarında Kipşu toponimini Xabur kənarındakı Zaxodan 14 *km* aralı çağdaş *Qefşe* ilə eyniləşdirmiş və sonrakı tədqiqatçıların hamısı bu fikri qəbul etmişlər.




XIII əsrin sonlarında Asur çarı Tukulti-Ninurta öz yazısında qeyd edir ki, «mənim qolum yauri dağlarında qutiləri, *(u)qumanları,* Mexriyə qədər Elxuniya və Şarnida ölkələrini müti etdi».[94]

Başqa bir asur çarının bəzi hissələri pozulmuş kitabəsindəsə ona qədər heç bir asur çarının ayağı dəyməyən və heç kimdən asılı olmayan *Kuman ölkəsinə* getməsi və burada müxtəlif kəndləri zəbt etməsi təsvir olunur, I Tiqlatpalasar (1115-1077) isə özünün VI yürüşündə *Musru* üzərinə gedərkən qarşısına *kuman* boylarının çıxdığını yazır.[95]

(V, 99) Onların güvənc yeri ***Xunusu*** şəhərinin üzərini təpələri basan tufan kimi örtdüm, onların çoxsaylı ordusu ilə şəhərdə və dağlarda qəzəblə vuruşdum, onları məğlubiyətə uğratdım…Bu şəhəri zəbt edib **onların tanrısını** (məbudunu) apardım, var-dövlətini (yığıb) apardım,

---

[94] *АВИИУ*, №7.

[95] Eyni qaynaq, №10; №14.

şəhəri yandırdım, söküb dağıtdım; bişmiş kərpiclə hörülmüş 3 böyük divarı sökdüm…




Görünür, asurların buradan apardığı bu «tanrı» kuman daşbabası imiş, çünki özlərində buna oxşar bədizləri tanrı bütü sayırdılar.

Asur çarı II Adadnerarinin (911-890) yazısı hələlik kuman boyları haqqında son bəlgə olsa da, burada asurların ***geniş Kuman ölkəsinə*** verdiyi böyük önəm ortaya qoyulur. [96] Ola bilər ki, hələ oxunmamış çoxsaylı asur kitabələri içində kuman boyları ilə bağlı əlavə məlumatlar vardır, çünki sonralar bu ölkə Asur vilayətinə çevrilmişdi. Bunu Cudi dağında asur çarı Sinaxxeribin (705-681) qoyduğu yazıda görmək olur. [97]

Göründüyü kimi, Hakkaridə tapılan daşbabaların tarixi Kuman bəyliyi çağına aiddir, bu daşbaba bədizlərinin kuman boyuna aid olması isə quşqusuzdur, çünki kuman (qıpçaq) boyunun tarixboyu harada izi varsa, orada daşbaba gələnəyi vardır. Örnəyin, 1253-də Qıpçaq çölündən keçən missioner monax Vilhelm Pubruk yazırdı ki, basırıq üstündə torpaqdan böyük təpə (kurqan) düzəldən ***kumanlar*** burada ölənin bədizini əlində qədəh üzü doğuya qoyurdular.

Ukraynanın Kernosovka kəndində bulunan daşbabanın tarixi m.ö. III ninilin ortaları sayılır. Urmu teoriyasına görə,

---

[96] *АВИИУ,* №20, №21.

[97] *АВИИУ*, №58.

prototürk boylarının atayurddan Quzey Qafqaza və oradan da Doğu Avropaya keçməsi də həmin çağlara aiddir. Bu baxımdan, daşbaba gələnəyinin Ön Asiyadan Avropaya aparılması ehtimalı özünü doğruldur. Hakkari, Astara, Kernosovka daşbaba bədizlərində ikonoqrafik özəlliklər sırasında bir çox detalların (ayaq cizgilərinin verilməməsi, sağ və sol əllərin durumu, kəmər, yaraq-yasaq, cinsəl orqan və s.) paralellik daşıdığını görmək olur:



Hakkari Astara Kernosovka (Ukrayna)

Yuxarıda gözdən keçirilən bəlgələr bir daha göstərir ki, daşbaba gələnəyi Urmu teoriyasının bəlirlədiyi Prototürk atayurdunda - Azərbaycan və Güney-Doğu Anadoluda yaranmışdır. Hakkari, Astara, Abşeron daşbaba bədizlərilə Kernosovka daşbaba bədizinin tarixi və görkəm müqayisəsi Urmu teoriyasının müddəalarına da uyğun gəlir, belə ki, Prototürk atayurdundan m.ö. IV minilin ortalarından başlanan miqrasiyaların sonrakı dalğası Avropanın güneyinə çatmış, m.ö.III minilin ortalarından sonra orada Kernosovka daşbabası ortaya çıxmışdır. Daşbaba gələnəyinin yalnız quzey ölkələrə deyil, doğu ölkələrə də yayılmasını Urmu teoriyası işığında arxeoloji və yazılı bəlgələrdə aydın görmək olur.

### DAŞBABA GƏLƏNƏYININ YAYILMASI

Prototürklərin Atayurdu Azərbaycan və Güney-Doğu Anadoludan başlayıb Azaq və Qara dəniz yaxalarına, Qıpçaq çöllərinə, Orta Asiya, Tyan-Şan, Türküstan, Altay və Güney Sibir ovalıqlarına qədər yayılan daşbaba gələnəyi əksər türk boylarına deyil, yalnız bəzi türk (as//az, saqa, kuman-qıpçaq) boylarina məxsus olduğundan onun izinə hər türk bölgəsində rast gəlmək olmur. Ona görə, daşbabalar yalnız həmin kultu yaşadan türk boyunun köçüb məskunlaşdığı müəyən lokal bölgələrdə aşkara çıxır. Azərbaycanda da daşbaba gələnəyi daha çox Şirvan, Qarabağ və Qaradağ bölgələri üçün xarakterik olmuşdur.




Ön Asiyadan doğu və quzey yönlərə bəzi prototürk boylarının miqrasiyası m.ö. IV minilin ortalarından başlasa da, sonrakı minillərdə də həmin yönlərdə böyük köçlər olduğunu göstərən arxeoloji bəlgələr və bu bəlgələrə dayanan uzman yorumları vardır, özəlliklə, Azərbaycanda m.ö. II minilin ortalarından atçılığın gəlişməsi, ilxıların artması bu köçlərin daha uzaq ölkələrə yönəlməsinə imkan vermişdir. Hətta vaxtilə Ön Asiyadan gedən saqa-qamər boylarının Altaydan

Azaq dənizi qıyılarına, oradan m.ö.VIII əsrin sonunda böyük bir bölümün Azərbaycana qayıtması da bəllidir. Bu qayıtma haqqında Herodotun tarix kitabında və Asur qaynaqlarında geniş bilgi vardır, Dədə Qorqud eposunda da bu saqa-qamər boyları «dış oğuzlar» kimi verilmişdir.


Tunceli (Foto.M.Aksoy)

Minillərlə davam etmiş türk köçləri daşbaba gələnəyini ayrı-ayrı bölgələrə daşıdığı kimi, daşbaba görkəmində yeni çalarların yaranması səbəbi də belə köclərin ayrı-ayrı çağlara aid olmasıdır. Daşbaba gələnəyi doğu türk boylarının bəzisində son dönəmə qədər davam etmişdir, bəzi batı türk boyları içində də hələ görünməkdədir, örnəyin, Tuncelidə Hasan adına 1963-də yapılmış bu daşbaba bədizində olduğu kimi:


Tokmak (Burana kəndi)

Eyni durum Qırğız eli Tokmak bölgəsinin Burana kəndində özünü göstərir. Burana basırıqlığında sıralanmış çöxsaylı daşbaba qədim türk gələnəyinin burada son çağlaracan davam etdiyini aydın göstərir:

Azərbaycanda bugün də ölənin şəkili onun başdaşına həkk olunur və ya daş heykəli (bədizi) qoyulur. İslamlaşmadan sonra orta əsrlərdə bu gələnək yox olsa da, sanki yenidən etnoqrafik duruma qayıdır, ancaq ilkin ikonoqrafik görkəmdə deyil, sadəcə, son yüzildə ölənin basırığında onun bədizi qoyulur ki, bu da türklərin ilkin tanrıçılıq dini görüşü ilə bağlıdır, xristianlıq, islam bu gələnəyi aradan çıxarmışdı.

Kurqanlarla yanaşı, daşbaba bədizlərinin dağıdılması prosesi də təkcə Sovet dönəmində və islamlaşma çağlarında deyil, daha öncə başlamışdı, belə ki, hələ Alban eli çağında xristianlığı yaymaq üçün elbəy III Vaçaqan 487-də «öz hakimiyəti altında olan Artsax vilayətində *yaramaz bütlərə* qurban kəsib, sitayiş etməkdən əl çəkməyi əmr etmişdi».[98]

Daşbaba gələnəyi olan türk yurdları ilə qıpçaq çölləri Rusiya imperiyasının bölgələrinə çevriləndən sonra buralarda da əsl daşbaba «soyqırımı» başlamışdır. Müxtəlif üsullarla dağıdılan daşbabalar daha çox kurqanlardan çıxarılıb tikintidə özül daşı kimi istifadə olunurdu. Təkcə Yekaterinoslav quberniyasında 428 daşbabadan 14-ü ilkin yerində qalmışdı. Belə vandalizmin qarşısını almaq üçün Rusuya Elmlər Akademiyası 1843-də Daxili İşlər nazirinə məktub yazaraq (16 noyabr, № 1571), bu bədizləri dağıdana 100 gümüş rubl cərimə kəsilməsini təklif etmişdir.[99]

Daşbaba gələnəyinin prototürk bölgəsindən haralara yayıldığını izləmək üçün bu gələnəyə bənzər bədizlərin uzaq ölkələrdəki örnəklərinə baxmaq, müqayisə aparmaq gərəkir, ancaq bu işi görmək bir uzmanın deyil, tədqiqat institutlarının görəvidir. Burada yalnız Pasxi və Korsika daşbabalarının timsalında müxtəlif ölkələrdə görünən daşbaba gələnəyinin bir-birilə birbaşa və dolayı bağı olması və ya bu bənzərliyin tipoloji mahiyət daşıması üzərində qısa da olsa, fikir söyləməyin türk daşbaba gələnəyinin haralaracan yayılmasını öyrənmək baxımından yararı vardır.

---

[98] «Alban tarixi», I. 17.

[99] Daxili İşlər nazirinin EA-nın müraciətinə ciddi münasibəti artıq 23 dekabrda onun qubernatorlara göndərdiyi sərəncamın mətnindən görünür. Bu sərəncam Yekaterinoslav, Tavriya, Xarkov, Voronej, Poltava, Kursk, Tambov, Xerson, Simbir, Saratov, Orenburq, Astraxan, Tomsk, Yenisey, İrkutsk qubernatorlarına, Qafqaz vilayəti, Taqanroq və Kerç-yenikol şəhər rəislərinə göndərilmişdir (*Веселовский,* 1915, 14-16).

Türk yurdlarından çox uzaqda Güney Amerikanın batısnda, Ciliдən də 4 min kilometr aralıda Sakit okeanda yerləşən Pasxi adasında üç minil öncə başlanıb 5-6 əsr davam




edən və yerli dildə *moai* adlanan daşbaba gələnəyi yaranmışdır. Burada ilginc azman görkəmli çoxlu daşbabalar yapılmış, Pasxi adası da dünyada bu moailərilə tanınıb məşhurlaşmışdır.

Pasxi daşbaba bədizlərini araşdıran Van Tilburqa


Pasxi daşbabaları

daşbabaların ideoloji, siyasi-ekonomik məqsədlə yaranması yozumunu irəli sürmüşdür. Burada ölən hər soybaba üçün ayrıca yapılan bədizdə onun qutu (ruhu) yerləşməli imiş. Soybaba qutu yerli inanca görə həmin soya aid ailələri hifz edən qüvvə sayılırdı; adanın hər yanına düzülmüş daşbabaların icmaya yönəlmiş *baxan gözləri* də soydaşları qara qüvvələrdən qorumalı idi.

Pasxi adasından fərqli olaraq, Korsika adasında olan daşbabalar türk daşbaba gələnəyilə birbaşa və ya dolayısı ilə bağlıdır. Belə ki, Azərbaycandan Anadolunun batı bölgələrinə, oradan da 3 minil öncə İtaliyaya köçmüş aras (etrusk) boyunun Korsikada iz qoyması mümkündür.[100]




Doğrudur, Korsika daşbabaları görkəm baxımından da türklərin daşbaba ikonaqrafiyasını təkrar edir və bu, bir daha türk-korsika bağının mümkünlüyünü ortaya qoyur, ancaq Pasxi moailəri görkəmcə türk daşbabalarından köklü şəkildə fərqlənir. Yalnız qədəhi göbəkdən aşağı ikiəlli tutması onlara türk daşbabaları ilə tipoloji görkəm verir ki, bunu da təsadüf və ya Y.A. Şerin vurğuladığı kimi, *konvergent yaranma* saymaq olar.[101]

Tunc çağı daşbaba gələnəyini Azərbaycanda, Rusiyanın güney çöllərində və Yenisey qıyılarında görmək olursa, bu gələnək saqa çağında da Güney-Doğu Avropa çöllərində, Güney Sibirdə (Taştık kulturu) özünü göstərirsə, daşmaralla Monqolustanda ortaya çıxırsa, artıq Göytürk çağında bu alana əlavə olunan Türküstan çöllərində, Kuman-qıpçaq çağında isə Qıpçaq çölləri boyunca yayıldığını görmək olur. Bu tarixi-coğrafi areallar həm də türklərin köç yollarının xronologiyasına bələdçilik edir.

---

[100] *Ağasıoğlu,* 2011 (Etrusk-Türk bağı).

[101] *Шер,* 1966, 61-62.

Xəzərlə Aral gölü arasında Qazaxstanın Üstyurd yaylasındakı kurqanlar ətrafında əksərinin başı qırılmış 50-dən çox daşbaba vardır, bir kurqan ətrafında isə 30-a yaxın daşbaba qırıntıları tapılıb. Üstyurd kurqanları m.ö.V-II əsrlərə aid edilir.[102] Buradakı daşbabaların ikonoqrafik baxımdan özəlliyi və başqa bölgələrdə olan daşbaba bədizlərindən əsas fərqi bundadır ki, əksəri sağ qolunu yanına sallayıb və əlində heç nə tutmayıb, saqqalsız üzü, nazik bığları var, göz, qaş, burun çizgiləri aydın seçilir:







[102] *Ольховский-Галкин,* 1990, 199-200.

Buradakı daşbabaların boyu 0,5-4 m arasındadır. Kəmərdən iki ilgəklə asılan qılınc-xənçər, sağ böyürdə kəmərə taxılan qəmə-xənçər, sol böyürdə yay-ox qabı sadaq görünür. Bu dikili daşlar içində adam fiquru görkəmində yontalanmış boyu 1 m olan xeyli balbal da vardır. Bir neçə daşbabanın döşündə və ya kürəyində soy damğası həkk olunub. Üstyurdda olan bu Kızıl-quyu, Bayte kurqan kompleksinin analoji tiplərinə Manqışlaq bölgəsində də tuş gəlmək olur.

Xəzərdən doğuya getdikcə Qazax eli çöllərində çoxlu daşbaba olduğunu əks etdirən «Qazaxstanın arxeoloji xəritəsi» (1960) bu bədizlərin ikonoqrafik görkəmini deyil, yalnız coğrafi yerini və sayını göstərir. Bu durumu vurğulayan Y. A. Şer Tanrı dağları ilə Balxaş gölü arasındakı Yeddisu bölgəsində olan daşbabaları sistemli şəkildə araşdırmış, onları doğu (Güney Sibir, Mərkəzi Asiya və Doğu Türküstan) və batı (Azərbaycan və Güney-Doğu Avropa) ölkə və bölgələrdəki daşbaba bədizlərilə müqayisə edərək araşdırmışdır.[103]



Tanrı dağları, Yeddi-su daşbabaları
(*Шер*, 1966)

Yeddisu daşbaba bədizləri üzərindəki nəsnələri (papaq, geyim, kəmər, yaraq-yasaq, torba,

[103] *Шер*, 1966.

qədəh) və bütöv ikonoqrafik görkəmini araşdıran Y. A. Şer daşbaba və balbal gələnəyinin semantikasına da toxunur.

Tanrı dağları, Qazax eli (Yeddi-su) daşbabaları (Şer, 1976)





Altayda 200-dən artıq daşbabanı tədqiq edən arxeoloq V. D. Kubaryev bu bədizlərin Qazax, Tuva və Monqol ellərinə uzanan yollar boyunca yayldığını yazır və hündür dağlıq bölgələrdə, özəlliklə Altayın quzeyindəki meşəli dağlarda daşbabaya rast gəlinmədiyini vurğulayır.[104] Yazara görə, bu daşbaba bədizləri bölgə sakinlərinin qədim türk çağı etnik tərkibini əks etdirən önəmli arxeoloji bəlgələrdən sayılır.[105]




Tuva, Xakas və Monqol elində olan daşbabalarla bərabər, Altay daşbabalarını da tədqiq edən L. A. Yevtyuxova bölgədə geniş yayılmış bədizlərin içində daha çox Göytürk çağına aid (VII-IX əsrlər) daşbabaların olduğunu yazır. Daşbabaların


Altay daşbabaları (*Евтюхова*, 1952)

[104] *Кубарев,* 1984, 15.
[105] Eyni qaynaq, 87.

hərtərəfli təsvirini verən yazar onların geyim-kecimi, yaraq-yasağı, bəzək-düzəyilə ikonoqrafik görkəmi haqqında daşbaba gələnəyinin tarixi baxımından çox önəmli sonuclar əldə etmişdir.[106]







[106] *Евтюхова,* 1952.

Ungetu bölgəsində daşbaba bədizlərini sistemli şəkildə öyrənən uzman V.Voytov yazır ki, Mərkəzi Asiyada erkən orta əsrlərə aid qədim türk boylarına məxsus antropomorf bədizlər (daşbaba) kultunu öyrənmədən qədim türk tarixi və mədəniyətini doğru anlamaq olmaz.[107]




Dağlıq Altayda türk basırıq kulturunun uzantısı Monqol çöllərində daha qabarıq görünsə də, burada hərtərəfli tədqiq olunmuş möhtəşəm bəngüdaşlara, Kültegin, Bilgə kağan,

[107] *Войтов*, 1987, 92-109.

Tonyukuk abidə kompleksləri ətrafındakı daşbaba və balballardan fərqli olaraq, daha geniş alanlara səpələnmiş çoxlu daşbaba bədizlərinin yalnız azacıq bir qismi öyrənilmişdir. Bu baxımdan, buradakı qədəhsiz qoşa əlləri döşündə verilən, saqqalsız-bığsız və başıpapaqlı ikonoqrafik görkəmli daşbaba bədizlərini VII əsrə aid edən V.Y.Voytovun başqa türk daşbabalarından ikonoqrafik özəlliyilə seçilən Ungetu daşbabaları haqqında yazdığı məqalə önəm daşıyır.







Göründüyü kimi, Ungetu daşbaba bədizləri əllərin durumuna görə Qarabağ daşbabalarına daha yaxındır və onların əlində qədəh də yoxdur. Ancaq Monqol elində Ungetu daşbabalarından fərqli olaraq, Altay-Tuva və Güney Avropa daşbaba bədizləri ilə

ikonoqrafik görkəm yaxınlığı ilə seçilən daşbabalar sayca daha çoxdur və daha geniş alana yayılmışdır. Nə yazıq ki, baxımsız qalan bu bədizlərin çoxu sındırılmış, başları qoparılmışdır:




Ön Asiyadan quzey, doğu və batı yönlərdə köçüb yeni yurdlar salan türk boyu yeni yurduna dilini, etnoqrafiyasını gətirdiyi kimi, dikili daş, daşbaba gələnəyini də daş yaddaşında gətirmişdir. Daşa köçürülən bu yaddaş fərdi görkəm cizgilərilə gerçəkləşsə də, daşbaba gələnəyinin anlamına köklənən ikonoqrafik özəlliyi də yaşadır və bu yaddaşın yaşamı minillərlə davam etmişdir.

Hər bir daşbaba ayrılıqda sənət əsəridir, bu bədizlər ayrı-ayrı fərdin üz cizgilərini tanıtsa da, hamısında ortaq bir doğma çalar - türk tipinin kaloriti vardır. Daşbabaların üzərində qabarıq verilmiş qədəh, balta, kəmər, xəncər, qılınc, (bəzilərində fallos) və başqa detallar vardır. Bütün bu bədizləri birləşdirən ümumi cəhətlər mövcuddur; onların çoxunda kişilər sağ əlində içki qədəhi tutub, sol əlini isə xəncər asılmış kəmərin altına salmışdır. Isık-kul qıyılarında, Tanrı (Tyan-Şan) dağlarında, Altay-Xakas ovalıqlarında sovet arxeoloji ekspedisiyalarının tədqiq edib öyrəndiyi daşbabaların ümumi görkəmi belə təsvir olunur:


Daşbaba. Göytürk çağı. (Qırğız eli, Karabalta)

«Daş heykəl tipləri kanonikdir: dirsəkdən bükülü sağ əldə köksünə sıxılı içki qabı var, dirsəkdən bükülü sol əl isə qılınc dəstəyinə yapışıb».[108]



Beləliklə, Xəzərin doğusundan Çin-Monqol ellərinə qədər ayrı-ayrı çağlarda, ayrı-ayrı bölgələrə daşbaba gələnəyi Saqa çağından yayılmağa başlasa da, Göytürk imperiyası çağında daha çox dəbdə olmuşdur. Yuxarıda deyildiyi kimi, bəzi bölgələrdə son çağlara qədər davam edən daşbaba gələnəyi doğuda kiçik görkəm fərqlərinə uğrasa da, əsas ikonoqrafik özəlliyini minillər boyu saxlamışdır ki, bu da türklərin etnoqrafiyasında özünü göstərən basırıq kulturunun konservativliyilə bağlıdır.

Doğuda olan daşbaba gələnəyi çinli yazarların da diqqətindən yayınmamışdır. Çin qaynaqlarına görə, türklərdən biri öləndə onu sağlığında istifadə etdiyi əşyalarla və atı ilə birlikdə basdırır, basırığın yanında ölənin görkəmini əks etdirən daş bədizi qoyulurdu. Göytürk çağında yarımköçəri

[108] *ПСДК,* 282.

bozqır türklərinin ayrı-ayrı bölgələrdə ucaltdığı belə bədizlər əsasən kurqan-basırıq olan yerlərdə özünü göstərir.

Ön Asiyada tunc dövrünün başlanması ilə bəzi proto-türk boylarının etnoqrafiyasında 5-6 minil öncə formalaşan daşbaba gələnəyi artıq m.ö. III minilin ortalarından az sonra Doğu Avropada görünməyə başlayır. Bu olayın isə təkcə bir yorumu ola bilər ki, bu da həmin gələnəyin Ön Asiyadan Avropaya aparılmasıdır, köçün yönü və tarixilə bağlı digər arxeoloji bəlgələr də bu yorumu təsdiq edir, belə ki, həmin çağlarda Maykop arxeoloji kulturunda görünən kurqan gələnəyi də Kür-Araz kulturunu Azərbaycandan Quzey Qafqaza daşıyan boyların quzey köçü ilə bağlı idi.




Daşbaba gələnəyinin Azərbaycan üzərindən quzeyə və quzey-batıya daşınmasının izləri Quzey Qafqazın və Doğu Avropanın bəzi bölgələrində görünməkdədir. Daşbaba kurqan kulturu ilə bağlı olduğundan daşbaba bədizlərinə daha

çox Qara dənizin doğu və quzey bölgələrinə yayılmış *saqa-qamər* boylarına aid kurqanlar olan çöllərdə tuş gəlmək olur. (Həmin kurqanların yayılma alanı I Bölmədə «Kurqan kulturu» başlığı altında verilən xəritə-sxemdə aydın görünür).

Qafqaz dağlarından quzeydə Qaradəniz ilə Xəzər arasındakı bölgələr ən azı m.ö.VIII əsrdən 500 il davam edən saqa-qamər çağında, sonralarsa doğudan gələn hunlar çağında türk boylarının məskəninə çevrilmişdi. Buradakı heyvandar yarımköçəri türklər zaman-zaman Saqa, Hun, Bulqar və Xəzər kimi böyük dövlətlər də qurmuşlar. Quzey Qafqazdan Azov yaxalarına qədər qədim türk boylarının izini saxlayan daşbaba, daşnənə bədizlərinin bir qismi bugünəcən qalmaqdadır.




X əsrə qədər 1500 il boyunca Xəzərlə Qara dəniz arasında görünən türk boyları

Səyyah Marko Polo (1254-1324) Quzey Qafqazla Xəzərin quzey-batı yaxalarını *Komaniya* (Kuman eli) adlandırmışdır. Kuman boylarında hələ 3-4 minil öncə daşbaba gələnəyi olmasını da yuxarıda Hakkari bədizlərində görmüşdük.

Aradan minillər keçməsinə baxmayaraq, kuman-qıpçaq boyu bu etnoqrafik gələnəyini saxlaya bilmişdir. Başqa bölgələrdə olduğu kimi, burada da bədizlər arasında görkəm fərqləri vardır. Bu fərqi aşağıdakı Arxız, Elbrus və Krasnodar bədizləri də aydın göstərir:




Güney Avropaya türk boylarının köçü saqa-qamərlərin köçündən əvvəl və sonra da olmuşdur, bu ayrı-ayrı çağlarda olan miqrasiya oradakı daşbaba bədizlərinin tarixində olduğu kimi, görkəm fərqində də özünü göstərir. Belə ki, daşbaba gələnəyilə Güney-Doğu Avropaya m.ö. IV minilin sonları - III minilin başlarında köçən türk boyunun adı yazılı qaynaq olmaması nədəniylə bəlli deyil, ancaq m.ö. II minilin sonlarında Avropaya köçən türklərin *as//az, saqa-qamər* boyları olması bəllidir.[109] Bu boyadları altında kumanların olması da istisna deyil, çünki minil öncə Doğu Avropada yayılan daş-

[109] *Ağasıoğlu,* 2000; 2005.

baba bədizləri əsasən kuman-qıpçaq boylarına məxsus olduğu kimi, burada görünən üç-dörd minil öncəki daşbabalar da həmin çağlara aid Ön Asiyadakı (Hakkari) kuman daşbaba tiplərinə daha yaxındır.



Doğu Avropa daşbabaları



Daşbaba (Dnepropetrovsk tarix muzeyi)

Ukrayna, Krım bölgələrində (*Aleksandrovka, Natalevka, Novoçerkassk, Ak-çorak, Beloqrudovka, Kazanki, Dnepropetrovsk və s.*) tapılmış bu daşbaba bədizləri tipoloji baxımdan təkcə Hakkari daşbabaları ilə deyil, həm də Uqnetu (Monqol eli) daşbabaları ilə yaxındır.



Uqnetu daşbaba bədizləri

Ukraynanın Kernosovo kəndində m.ö. III minilə aid ilginc bir daşbaba bulunmuşdur. Dnepropetrovsk şəhərindəki tarix muzeyində saxlanan bu daşbaba bədizi üzərində bir sıra uzmanlar (*Krılova, Mellori, Zavaroni, Telegin və b.*) araşdırma aparmış, onun dörd yanında oyulmuş müxtəlif detalların simvo-

lik anlamlarına dair yorumlar yapmışlar. Elmi ədəbiyatda *Kernosovka steli* adlanan qədim daşbabanı tədqiq edənlərin çoxu onu tanrı bütü kimi təqdim edirlər, ancaq bunu doğru olaraq, ölən soylu birinin bədizi olmasını söyləyənlər də var.

Ukrayna daşbabaları içində daha mükkəmməl görkəmi və çoxlu detal cizgilərilə seçilən Kernosov daşbabası həmin çağa aid Hakkaridəki kuman boylarına aid daşbabalarla tipoloji oxşarlıq, həm də ikonoqrafik görkəm baxımdan yaxındır. Bu yaxınlığı adi müqayisə ilə də görmək olur:









Quzey Qafqaz və Doğu Avropada m.ö.VIII-II əsrlərə aid daşbaba bədizlərinin saqa boylarına məxsus olması fikri geniş yayılmışdır, ancaq bu yorumun quşqu doğuran tərəfləri vardır, belə ki, bədizlər adasında yapılma texnikası (döymə, oyma, cızma) ilə fərqlənmə olduğu kimi, ikonoqrafik fərqlər də vardır və bu da bölgədəki daşba bədizlərinin ayrı-ayrı türk boylarına aid olması ilə bağlıdır. Bu fərqləri ötəri müqayisədə aydın görmək olur:




Saqa çağına aid bu daşbaba şəkillərindən göründüyü kimi, onlar görkəmcə daha çox Göytürk çağı (V-IX əsrlər) doğu türklərin yapdığı daşbaba bədizlərinə bənzəyir.

Azaq dənizi yaxasında (Kerçdə) bulunan saqa çağına aid bu iki daşbaba qamər (kimer) boyuna bağlanır. Rumunyada bulunan daşbaba ilə birlikdə bu bədizlər əllərin durumu baxımından Güney Azərbaycandakı daha qədim Meşkin daşbaba görkəmini təkrarlayırlar:



Kerç (Tritaka) daşbabaları

(Rumunya Tarix muzeyi)
Daşbaba

Rumunya ilə qonşu Moldovada bulunan saqa çağına aid bu daşbaba isə ikonoqrafik baxımdan Güney-Doğu Avropaya yayılmış saqa daşbabaları ilə eynidir. Bu fakt bir daha aydın göstərir ki, yaxın bölgələrdə eyni çağa aid daşbaba bədizlərində görünən görkəm fərqi onları eyni çağda yapıb-düzəldən türk boylarının estetik baxış özəlliyi ilə bağlıdır. Örnəyin, Ukrayna bölgələrində saqa daşbabalarının əlində daha çox içki qədəhlərinin buynuz olduğunu görmək olur:



Saqa daşbabası. (Moldova)




Əgər eyni çağda qonşu türk boylarının daşbaba bədizləri kiçik fərqlərlə ortaya çıxırsa, böyük zaman axarında bu fərqlərin artaması da doğaldır. Belə ki, Güney-Doğu Avropada Saqa və Kuman çağına



Saqa daşbabaları. (Ukrayna)

aid daşbaba bədizlərinin arasında aşağı-yuxarı 1500 il zaman axarı ikonoqrafik görkəmdə qabarıq fərq ortaya çıxarmışdır. Belə ki, Quzey Qafqazdan tutmuş Azaq dənizi yaxalarına və Qazaxstanın batısından Güney Rusiya və Ukrayna çöllərinə qədər uzanan tarixi *Qıpçaq Çölünə* yayılmış kuman-qıpçaq boyları buralarda XIII əsrəcən, monqol axınlarına qədər yarımköçəri yaşamını yaşamış, böyük ilxı və qoyun sürüləri saxlamışlar. Həmin çağlardan qalmış daşbaba, daşnənə bədizləri kuman-qıpçaq boylarının yayılma arealını göstərən önəmli tarixi bəlgələr kimi də diqqəti çəkir. Böyük türk yazarı Hizami Gəncəvinin bəhs etdiyi türklərin daşbaba gələnəyi də onun çağdaşı olan bu kuman-qıpçaqlara aiddir. İdrisi (XII əsr) Avropadakı kuman-qıpçaqları qara və ağ kuman deyə, iki qrupa ayırır. Görünür, rus qaynaqlarında *çernıe klobuki* (qara-qalpaq) kimi xatırlananların bir hissəsi də müxtəlif bölgələrə yayılmış indiki qarapapaq boylarıdır.






Kumanları *polovets* adı ilə verən qədim rus salnamələri onların içində *ulaş, börücə, tərtər, yeddioba, doqquzoba* adlı boyların olmasını da qeyd edir.[110] Gürcü çarı II David (1088-1125) həmin boylardan bir qismini dəvət edib keçmiş *gögər* türk boylarının yurdu olan Borçalıda yerləşdirmişdi.




Etnoqrafik gələnəklərində daşbaba görənəyini yaşadan türk boyları içində kuman-qıpçaqlar daşbaba ilə yanaşı daşnənə kultuna da önəm vermişlər. Soyana kimi qutsal tapınağa çevrilən belə daşnənə bədizləri uşaq diləyənlərin ziyarət yeri idi.



Daşbaba (saqa) Daşbaba (kuman)

Beləliklə, Qıpçaq Çölü boyunca yayılan kuman-qıpçaq daşbaba-daşnənə bədizləri daha öncə həmin bölgələrdə yayılan saqa bədizlərilə eyni amacla yapılsa da, ikonoqrafik görkəmi zamanla fərqlənmişdir. Bu saqa və kuman daşbaba tipləri o fərqi aydın gösrərir.

---

[110] *Ağasıoğlu*, 2005, 50-53.

## DAŞBABA TÜRLƏRI VƏ ÜZƏRINDƏKI NƏSNƏLƏR

Prototürk boylarının 5 minil öncə Ön Asiyada yaradıb sonrakı köçlərilə müxtəlif bölgələrə daşıdıqları daşbaba gələnəyi minillər boyunca ilkin funksiyasını, ikonoqrafik görkəmini saxlasa da, bu böyük zaman axarında müxtəlif növlü daşdan yapılması, onu yapan minlərlə ustanın bacarığı, zövqü, hər bölgədə toplumun daşbaba bədizi üzərində görmək istədiyi ayrı-ayrı nəsnələr, kanonik görkəm müxtəlif daşbaba tiplərinin (türlərinin) formalaşıb ortaya çıxmasına səbəb olmuşdur. Ona görə də, daşbaba üzərində araşdırma aparanlar onları tipoloji baxımdan bir neçə əsas qrupa ayırırlar: qadın-kişi, silahlı-silahsız, qədəhli-qədəhsiz, papaqlı-papaqsız, geyimli-geyimsiz, kəmərli-kəmərsiz və s.

Bu işi uzmanlara buraxıb, burada yalnız daşbaba gələnəyində qabarıq görünən xarakterik cəhətlər, daşbaba türləri, invariant-variant tipləri, sağ-sol əllərin durumu, əsas atribut olan içki qabı və bəzi detallar üzərində dayanmaq gərəkir.

**Əsas daşbaba tipi (invariant)**. Daşbaba tipləri içində müxtəlif yonma, döymə və cızma üsullarla yapılmasına baxmayaraq ən çox yayılan və invariant sayılan ikonoqrafik görkəm dirsəkdən sinəyə tərəf bükülü sağ əlində qədəh, sol əl isə qılınc-xəncər asılmış kəmər üzərində olan bədizlərdir.[111]

    

[111] *Евтюхова,* 1952; *Кызласов,* 1960; *Грач,* 1961, və b.

Minillər boyu davam edən bu əsas tipdə (invariantda) ikonoqrafik baxımdan içki qabı və qılınc iki xarakterik atribut kimi görünür. Bəzi uzmanlara görə, gədəh dosta, qılınc düşmənə yönəlik nəsnədir. Bugünün baxışı ilə məntiqli görünən belə yorum *tost* demək üçün qədəh qaldırıb dosta *sağlıq* diləmək olayına köklənmişdir, ancaq məsələ bu qədər də bəsit deyil, daşbaba əlindəki qədəhin anlamı qədim mifologiya ilə bağlıdır. Belə ki, burada «sağ ol» anlamı vardır, ancaq bu hər hansı bir dosta deyil, qutu daş bədizə keçəcək ölənin özü üçündür, dirilmiş (*sağ olmuş*) qut quş olub Tanrı məkanına uçmalı, öləni Uçmaq (Cənnət) dünyasına aparmalıdır.

**İçki qabı və içki**. Daşbabanın *sağ* əlində tutduğu qədəhi, kasanı və ya bardağı köksü üzərində və ya iki əlilə göbəyində tutması kanonik görkəm gələnəyilə bağlıdır, ancaq bu görənəyin anlamı uzmanlar üçün o qədər də aydın deyil, bu nədənlə içki ilə bağlı fərqli yorumlar ortaya çıxmışdır; ona adi çaxırdan tutmuş dirilik-yaşam içkisinə qədər müxtəlif anlam yükləmişlər. Doğrudur, türk mifologiyasında qutsal ölümsüzlük suyu vardır, ancaq bu, daşbaba əlindəki qədəhdəki çaxır deyil, tanrıcanın hər hansı bir igidə qədəhdə verdiyi dirilik suyudur və bunun sənət nəsnələri üzərində təsviri də vardır. Örnəyin, bu saqa bəzəyi üzərindəki qabartmada bir tanrıcanın buynuz qədəhdə dəliqanlıya verdiyi qutsal suyun (*eliksir, abi-həyat*) içilməsi təsvir olunmuşdur:



Saqa geyimi üzərində qızıl nəsnə (Kuloba kurqanı, m.ö. IV əsr)

Eyni durum Koroğlu eposunda Qoşabulaqda qutsal su ilə əvəzlənsə də, eposun qədim etrusk variantında Kerekle (Goroğlu) isə Ana tanrıcanın *sağ* döşündən süd içib ölümsüz olur.[112] Qutsal dirilik suyu çox qədim motivə köklənmişdir və zaman keçdikcə transformasiyaya uğrasa da, dirilik suyu çaxırla əvəz olunsa da, *sağ ol* anlamı gələnəksəl olaraq daşbaba kultunda davam etmişdir. Sonrakı daşbaba bədizlərinin əlindəki qabın içində qutsal su (dirilik suyu), süd, kumıs, çaxır ola bilər və bunu qabların çeşidləri də bəlirləyir, ancaq əldə tutulan içki qabı ilkin motivi əks etdirir.

**İki əllə tutulan içki qabı**. Bu tür daşbaba bədizləri invariant tiplər qədər çox olmasa da, Qıpçaq Çölündən Monqol elinə qədər ayrı-ayrı bölgələrdə onlara rast gəlmək olur, özəlliklə kuman-qıpçaq boylarının daşbaba-daşnənə bədizlərinin çoxu bu variantda yapılıb.



Şəkillərdən də göründüyü kimi, bu tipdə olan daşbaba bədizləri silahsız yapılır. Bəzi türklərin daşbaba və daşnənə gələnəyində olan bu ikonoqrafik özəllik ilginc önəm daşıyır. Belə ki, yalnız bu yaxınlarda Pasxi daş bədizlərinin torpaq altında olan hissəsi açılanda içki qabının göbəkdən aşağı iki əllə tutulması bəlli olmuşdur. Bilindiyi kimi, pasxi və türk daşbabaları arasında genetik bağ yox, tipoloji eynilik vardır,

[112] *Ağasıoğlu,* 2011, 147-151.

hər iki gələnək bir-birindən asılı olmayaraq, ayrı-ayrı xalqın yaşadığı ayrı-ayrı bölgələrdə və ayrı-ayrı çağlarda yaranmışdır. Tipoloji oxşarlıqsa onların eyni amacla ortaya çıxmasındadır; belə ki, ölən adamın (soybabanın) əlində kasa tutmuş görkəmdə bədizinin yapılması hər iki etnosun etnoqrafik gələnəyinə çevrilmişdir. Əlbəttə, türk və pasxi daşbaba bədizlərindəki bu bənzərlik *konvergent* olayıdır və bu daşbabalar arasında genetik bağ yox, tipoloji eynilik vardır, belə ki, hər iki gələnək bir-birindən asılı olmayaraq, ayrı-ayrı yerlərdə və ayrı çağlarda, ancaq eyni amacla yaranmışdır.




İkiəllə tutulan içki qabı təkcə kişi bədizlərində deyil, qadın bədizlərində də özünü göstərir və bu tip, demək olar ki, kuman-qıpçaq daşbaba, daşnəhə gələnəyində ikonoqrafik invariant statusu ilə görünməkdədir. Bu tip bədizlərin Ön Asiyada, özəlliklə Sumer elində yayğın olduğunu da vurğulamaq gərəkir. Kuman daşnənəsi ilə sumer tanrıcası İnanna üçün yapılmış bu bədizlər eyni ikonoqraik görkəmilə diqqəti çəkir, hər ikisinin ikiəlli tutduğu qabın içində qutsal içki dirilik suyudur:



Başqa bir sumer bədizində ikiəllə tutulan qabda məhz dirilik suyunun olması aydın görünür, belə ki, qabın ağzından daşıb yanlara axan suyun qabarıq verilməsi onu həyat eliksiri kimi vurğulayır:



Sumer bədizi

Saqa boylarının gələnəklərindən bəhs edərkən Herodot yazır ki, saqaların inanışına görə, onlar üçün göydən düşən qutsal nəsnələr sırasında *altun gədəh* varmış. Yazar sonra bunu da vurğulayır ki, saqa elbəyi hər il bir dəfə öz bölgəsində çaxırla dolu qab qoyur və bu qabdan yalnız savaşda yağı öldürən ərənlər çaxır içə bilir, daha çox öldürənlər iki qədəh içir, düşmən öldürə bilməyənlərsə qınanmaq üçün kənarda oturdulur.[113]

Daşbaba bədizlərində içki qabının sağ əldə və ya ikiəllə tutulmasından asılı olmayaraq, müxtəlif türləri vardır. Əgər Hakkari daşbabalarının əlində tulumu xatırladan su qabı görünürsə, sonrakı daşbaba bədizlərində kasa, bardaq, müxtəlif formalı gədəhlər, saqa daşbabalarındasa buynuz görünür:



Hakkari (kuman) daşbabası



Daşbaba içki qabları



Ukraynada saqa daşbabaları

[113] *Herodotos*, IV, 5; 66.

**Sağ əldə quş.** Burada qədəh quşla əvəz olunmuşdur. Bu tip daşbaba bədizləri sayca az olsa da, qədim türk boylarının müxtəlif yönlərə köçləri ilə bağlı olaraq, ayrı-ayrı bölgələrdə üzə çıxır. Əlində quş tutan daşbabalar daha çox Qazax elində bulunmuşdur.[114]

Yas törəni (Monqol eli)



Daşbabanın *sağ* əlində quş fiquru olması ölənin qutu (ruhu) ilə bağlıdır, belə ki, türk inancına görə, ölən adamın qutu (canı) quşa çevrilib tanrı məkanına uçur. Bunu bir sıra epitafiyalarda *öldü* əvəzinə «uçdu» deyiminin yazılmasında da görmək olur, burada quş qutun simvolu sayılır.



Sağ əlində quş olan daşbabalar. Qazax eli (*Шер*,1966, 114)

Azərbaycan nağıllarinda yer alan «bu divin canı qabın içindəki quş idi» kimi deyim də həmin simvolla bağlıdır. Etruskların Azərbaycandan *araz* boyadı ilə Anadoluya, oradan da 3 minil öncə İtali-

[114] *Шер*, 1966, 114.

yaya keçməsi bəllidir.[115] İtaliyada aşağı-yuxarı 2500 il öncə yapılmış bu etrusk bədizi də «*sağ əldə quş*» motivi ilə diqqəti çəkir, belə ki, ölən bu yeniyetmə oğlanın bədizində sağ ayağı boyunca etruskca belə bir yazı vardır: «*bilerem tek pan mi köger*».



blerem tek pan ml köger(çin?)



Qazax eli (Yeddi-su)

Göründüyü kimi, sağ əlində göyərçin olan bu bədiz daşbaba olmasa da, hər halda qədim türklərə aid yas törəsinə uyğun olaraq, ölənin qutu motivini əks etdirir. Beləliklə, daşbaba bədizinin əlində quş olması faktı bir daha sübut edir ki, daşbaba məhz ölən adamın bədizidir, ona gərə də, daşbaba gələnəyinin yaranmasını ölənin özəl antropomorf görkəm yapısı ilə deyil, başqa amaclarla bağlayanlar, bunu başqa cür yozanlar yanılırlar.

**Daşbaba bədizi üzərində digər nəsnələr**. Daşbabaların minillərlə davam edən ikonoqrafik görkəmi ilə yanaşı, üzərində olan nəsnələr içində də gələnəksəl davam edənləri vardır və uzmanlar hər hansı bir daşbabanın yaşını təyin etmək üçün onun hansı stildə yapılmasından daha çox üzərin-

[115] *Ağasıoğlu,* 2011.

dəki nəsnələrin hansı dönəmə aid olmasına güvənirlər, çünki bu nəsnələrin çoxu yaşı bəlli olan basırıq qazıntılarında ortaya çıxır. Örnəyin, Altay, Tuva, Xakas, Monqol ellərində daşbaba bədizlərində görünən qədəhləri 10 türə ayıran L.A.Yevtyuxova eyni görkəmli altun-gümüş qədəhlərə türk basırıqlarında rast gəlindiyini yazır.[116]

Daşbaba atributları sırasında qədəhdən sonra önəmli nəsnələr yaraq-yasaqlardır. Qədim daşbaba bədizlərində nizə, mızraq, balta, xəncər görünürsə, Üstyurd daşbaba bədizində xəncər-qılıncla yanaşı sol yanda ox-yay sadağı vardır, ancaq buna başqa bədizlərdə rast gəlinmir, silahlı daşbaba bədizlərinin əksərində kəmərdən asılmış xəncər və ya qılınc görünür.


Daşbaba xəncər-qılıncı

Tarixi qaynaqlarda türklərin qılınc kultu haqqında bir sıra bəlgə vardır.[117] Herodot saqa boylarında qılınc kultundan bəhs edirsə, ondan minil sonra yunanlı Prisk bu kultun




[116] *Евтюхова,* 1952 (şəkil 63).
[117] Qılınc kultu haqqında məlumat üçün bax: *Ağasıoğlu,* 2005 (Azər xalqı, 303-307).

hunlarda da olduğunu vurğulayır: «Saqa (skit) elbəylərinin həmişə qutsal saydığı Mars qılıncını tapması Atillanın inamını daha da artırdı... Məğrurluq özəlliyilə qət etdi ki, Mars qılıncı ona bütün savaşlarda qalib gəlməyə yardım edəcək, bütün dünyaya hakim olacaqdır».[118]

Koroğlunun göydən düşən metaldan yapılmış Misri qılıncı qutsal sayıldığı kimi, oğuzlar da and içəndə «*qılıncıma doğranayım*» deyirdilər, qılıncın altından keçən suçlunun da həyatı bağışlanırdı.



Kernosov Hakkari

Yuxarıda da deyildiyi kimi, daşbaba bədizlərinin daha qədim variantlarında xeyli yaraq-yasaq görünür, bu tür arxaik Kernosov və Hakkari bədizləri tunc çağında istifadə olunan nizə-mızraq, bir və iki ağızlı balta, çəkic, bıçaq kimi nəsnələrlə süslənmişdir.



**Daşbaba papaqları**

Daşbabaların başında görünən *papaqlar* müxtəlif türdə olsalar da, yalnız doğudakı türləri qruplaşdırmaq mümkün olmuşdur.[119] Uzmanların qruplara ayırdığı bu papaqların türk boy-

---

[118] *ВДИ,* №4, 1948, 262.

[119] *Евтюхова,* 1952, 102-104.

larında sonralar da göründüyünü aydın sezmək olur. Buradakı bəzi papaqların müxtəlif nəsnələr üzərində həm saqa (skit), həm də türk rəsmlərində təkrar olnunması saqa-türk etnik-genetik bağı bir daha təsdiq etmiş olur.


Saçlı daşbaba (Tanrı dağları)

Daşbaba bədizlərində saç düzümü də diqqəti çəkir, belə ki, qədim türk boylarının bəzilərində uzun saç saxlamaq dəbi olduğu üçün belə gələnək daşbaba türlərinə də yansımışdır. Tanrı dağlarında və Ukraynada bu kuman-qıpçaq daşbabalarında görünən hörüklü uzun və qısa saçlara daşbabalarda çox rast gəlinir:


Kuman daşbabası

Daşbaba bədizləri üzərində kəmər və toqqaları çeşidləyib tədqiq edən uzmanlar (L.A.Yevtyuxova, N. Budayev və b.) onlara türk basırıqlarında, nəsnələr üzərində olan rəsmlərdə də rast gəlindiyini yazmışlar.

Daşbaba kəməri və toqqaları


1915-də N. İ. Veselovski yazırdı ki, səyyah Rubrukun daşbaba üzərində «*kaptarqa*» (kapturqa) kimi qeyd ediyi kisənin (*kiset*) asılması üçün türk kəmərində görünən ilgəklər bugün də qazax-qırğız boylarında davam edir.[120] Göründüyü kimi, daşbaba üzərindəki nəsnələrin öyrənilməsi etnoqrafik dəyər daşıyır, belə ki, daşbaba üzərindəki geyim-kecim, başındakı papaq, belindəki kəmər və ondan asılan yaraq-yasaq, əlindəki qədəh bədizin yapıldığı çağda türklərin görkəmini bəlirləyən bəlgələrdir.

Daşbabalar təkcə türk etnoqrafiyası üçün deyil, həm də türk mifoloji baxışlarının daş üzərində görüntüsünü sərgiləyən tarixi abidələrdir. Yuxarıda daşbaba ikonoqrafiyasında sağ əldə qutsal içki və quş, qılınc kultu motivlərinə ötəri də olsa, toxunduq. Ancaq qədim daşbaba bədizləri üzərindəki uşaq və böyük adam, həmçinin müxtəlif añ (heyvan) cizgilərinə yorum yapmaq üçün özəl araşdırma gərəkir.[121]




[120] *Веселовский*, 1915.

[121] Şəkildəki daşbabalar üzərində detalları bu uzmanlar araşdırmışlar: Hakkari daşbabaları (*V. Sevin*), Koqalı daşbabası (*S. S. Sadıqov*), Astara daşbabası (*A. Schachner*).

## SONUC

Türk daşbaba gələnəyi m.ö. III minildən günümüzəcən 150-dən çox dövlət qurmuş bir etnosun basırıq-kurqan kulturunda yaranmış və 5-6 minil boyu davam edən bu türk daş yaddaşı köçlərlə ayrı-ayrı bölgələrə daşınmışdır. Urmu teoriyası üçün önəmli tarixi bəlgələrdən olan daşbaba bədizləri türk boylarının tarixi, etnoqrafiyası, daş plastika sənəti, tarixi coğrafiyası baxımından önəmli tutalqadır. Bu tutalqadan tutub keçmiş çağlara qayıtmaq, türklərin əsrlərlə keçdiyi yerlərə getmək və onların tarixboyu haralarda köç saldığını görmək olur. Nə yazıq ki, hələ də belə tarixi tutalqaları görməzdən gəlib də, türkün qədim tarixini yazanlar vardır.

İlkin atayurdda - Ön Asiyada yaşayan və bir neçə yaxın dialektdə danışan prototürk boylarından bəzilərinin buradan quzey və doğu yönə m.ö. IV minildən başlanan köçləri, başqa bölgələrə gedib yerləşməsi, həmin bölgələrə sonralar da türk boylarının ikinci, üçüncü köç dalğaları ayrı-ayrı boyların (başqadilli yerli boyların da) birləşməsi qədim dialektlərin çarpazlaşmasına, yeni dialektlərin formalaşmasına, ayrı-ayrı türk boyadlarının (etnonimlərin) gah arxa plana keçməsinə, gah da ön plana çıxmasına səbəb olmuşdur. Belə olaylara təkan verən amillərdən biri də ilkin atayurddan kənarda yaranan ikinçi atayurdlarda islamaqədər Saqa, Hun, Göytürk, Bulqar, Avar və başqa türk imperiyalarının yaranması idi. Avropanın güney-doğu bölgələrini, Quzey Qafqazı əhatə edən, bir ucu atayurda (Azərbaycana) uzanan Xəzər imperiyası 500 il davam etmiş, Səlcuqlu imperiyası isə bütöv atayurdu içinə almışdı. Bu sıraya qədim Azərbaycanda 2200-də yaranıb yüzil davam edən və o çağın Akkad, Sumer, Elam kimi böyük dövlətlərini də içinə alan türklərin Qut imperiyasını, Turuk, Kuman, Subar bəyliklərini, Mana, Saqa, Mada, Alban

ellərini və onlarla kiçik xaqanlıq, xanlıq, bəylik dövlətlərini (elləri) də əlavə etsək, belə geosiyasi tarixi durumda yaşayan, ayrı-ayrı türk dialekt və dillərində danışan türk boylarının etnoqrafiyasında, folklorunda ümumi ortaq xətlər qalmaqla, vaxt axarında yeni çalarların yaranması da doğal olaydır. Tük dillərində və etnoqrafiyasında olan bu özəllik türklərin daşbaba gələnəyində özünü daha aydın göstərir.[122]



Qut elbəylərinin tunc büstləri (Дьяконов, 1956)

Belə ki, atayurddan ayrı-ayrı bölgələrə daşınan daşbaba gələnəyində müxtəlif görüntü türləri yaransa da, əsas ikonoqrafik özəllik, qılınc-xəncər və qədəhlər kimi ilkin atributlar saxlanmışdır, hətta 4-5 minil öncə Güney Azərbaycanda lulu boylarının uzun hörüklü saç görüntüsü etnoqrafik detal kimi daşbaba bədizlərində də davam etmişdir.



Saçı hörüklü lulu

Türklərin zaman-zaman Avropaya köçləri və orada dövlətlər qurmasının tarixi bəlgələri bəlli olduğundan heç kim bu faktlara quşqu ilə baxmır, ancaq onların daha erkən çağlarda həm Avropaya, həm də Orta Asiya və Altay bölgələrinə köçü quşquyla qarşılanır, çünki Altay teoriyasına görə, türklər Monqolustan tərəflərdə yaranmış bir etnosdur, bu nədənlə, onlar aşağı-yuxarı 2 minil öncə oradan Azərbaycana, Anadoluya və Avropaya gəlmişlər. Doğrudur, son iki minildə doğudan batıya hun, avar türklərinin axınları olmuşdur, sonralarsa Orta Asiyadan səlcuq-türkmənlər atayurda qayıt-

[122] Həmin özəlliklər III və IV Bitikdə geniş verilmişdir («Doqquz Bitik»).

mışlar, ancaq daha qədim çağlara aid arxeoloji və etnolinqvistik bəlgələr, həmçinin yuxarıda gözdən keçirdiyimiz etnoqrafik daşbaba gələnəyi qədimdə türklərin doğudan batıya deyil, batıdan doğuya köçdüyünü göstərir, yəni öncə doğuya miqrasiya etmiş türk boylarının bəziləri oradan geri dönmüşlər, bəzi boylar Avropaya, bəziləri də atayurda qayıtmışlar; çıxmaza sürüklənən türkologiya elmini doğru yola çıxaran Urmu teoriyasının özü də məhz bu baxışla ortaya çıxmışdır.

Daşbaba bədizlərinin göründüyü Güney Sibirin, özəlliklə, Sayan dağlarıyla əhatə olunmuş Yenisey vadilərinin əlverişli təbii şəraiti, bol otlaqlar, yuxarılarda alp çəmənliyi, buradakı filiz yataqları müxtəlifdilli etnosları çəkib Minusin çökəkliyinə gətirirdi, gələnlər də burada bir-birinə qarışırdı. Tunc dövründə Mərkəzi Asiyanın qərb bölgəsi «Tuva və Xakasda avropoid irqin xüsusi növü olan braxikran tipi formalaşırdı».[123]




Öncə *afanasyevo* kulturu yayılan Güney Sibir bölgələrində sonralar *okunyevo kulturu* görünməyə başlayır və m.ö. XIII-XI əsrlərəcən bəzi bölgələrdə davam edir. Arxeoloqlara görə, bu kulturun monqoloid qarışığı olan daşıyıcıları Sibirin batı ərazilərindən gəlmiş *protosamodi* boyları idi, ancaq belə düşüncələr olsa da, hələlik onların etnik kimliyi tam bəlirlənməyib. Tuva, Monqol ellərindəki daşmarala bənzəyən, onlar kimi üzü doğuya qoyulan okunyevo dikili daşları ilə türk daşbabaları arasında genetik,

[123] *Алексеев - Гохман,* 42.

ikonoqrafik bağ görünmür. Əgər m.ö. II minilin əvvəllərində Güney Sibirdə görünməyə başlayan okunyevo kulturu türklərə aid edilsə belə, onların daşbaba gələnəyi olmayan türk boylarından sayılması gərəkir, çünki onların buralara köçündən yalnız minil sonra daşbaba gələnəyi burada görünməyə başlayır ki, bu da saqa türklərinin bu bölgələrə gəlişi ilə bağlıdır.

Yenisey-Abakan çayları arasında m.ö. IV əsrdən başlayıb 700 il davam edən *taştık kulturunda* görünən daşbaba gələnəyinin burada sonrakı türk boylarında davam etdiyini vurğulayan L. R. Kızlasova görə, Taştık daşbabalarını qədim türk daşbaba gələnəyinin erkən forması saymaq olar.[124] Tanınmış arxeoloqun Altay yörələrinə aid yorumu ilə razılaşmaq olar, çünki türk boylarının batıdan Altay yönündə olan köçləri tunc çağının sonlarında olmuşdu, ancaq Taştıq daşbabalarını bu gələnəyin erkən forması saymaq yanlışdır, çünki erkən forma Taştıkda yox, ondan minillər öncə Azərbaycanda, Anadolunun güney doğusunda yaranmışdı.

Daşbaba, daşmaral və balballar üzrə bir hecə monoqrafiya yazan və dikilidaş gələnəyinin Avrasiyanın çöllük zolağı boyunca yayılmasının bu gələnəyin ilkin yaranma mərkəzinin müəyənləşdirməkdə çətinlik yaratdığını qeyd edən V. D. Kubaryev bunu da vurğulayır ki, tunc çağına aid Mərkəzi Asiyadakı erkən skit (saqa) və qədim türk dikilidaş gələnəyinin birbaşa və dolayı uzaq Batıdakı gerçək analoqlarını hətta uzman olmayanlar da görə bilər.[125] Əlbəttə, görə bilərlər, ancaq türk tarixini yazan qara eynəkli tarixçilər belə tarixi bəlgələri görmək istəmirlər, Urmu teoryasından xəbəri olmayan türkoloqlar isə istəsələr də görə bilməzlər.

---

[124] *Кызласов,* 1960, 157-100.

[125] *Кубарев,* 1979, 92-93.

N. İ. Veselovski «Daşbabalar və ya balballar sorununun çağdaş durumu» (1915) adlı dəyərli araşdırmasında belə yazırdı: «Güclü Osmanlı dövlətinin yarandığı Kiçik Asiyada balbal yoxdur və bunu anlamaq mümkündür, çünki türklər ora gələndə artıq müsəlman idi, ancaq kiçik asiyalı və avropalı türklərin basırıqları başında və ayağında iki dikili daş (*baş-taş*, *ayak-taş*) görürük. Həm də başdaşının təpəsi çalmalı adam başı formasındadır. Düşünürəm, balbal islam təsirilə belə dəyişib».[126] Bu sözlərin yazıldığı XX əsrin əvvəlində türklərin Orta Asiyadan minil öncə Anadoluya gəldiyini düşünürdülər (hələ də belə düşünənlər vardır), ancaq bilmirdilər ki, müsəlman türklər Anadoluya gələndə burada yerli xristian türkər yaşayıdı, bunu da bilmirdilər ki, XX əsrin sonunda Hakkaridə 4-5 minil tarixi olan türk daşbabaları bulunacaq və belə buluntular davam edəcək. Örnəyin, Ümit Şıracı bəy Dənizli bölgəsində bugünlərdə bir neçə daşbaba və balbal bulmuşdur:




Daşbaba türk boylarının yayıldığı arealı, onların yaşadığı bölgələri göstərir. Qədim daşbabaların bulunduğu yeradları və orada yaşayan boyların adı saqa və kuman-qıpçaqlarla bağlı olsa da, Astara, Asxanakəran, Pirazmian yeradlarında da qədim as//az türk boyunun adı görünür: ***as**-tara, **as**-xana, **az**-mi-piri.* Belə görünür ki, *saqa, kuman* boyadları daşıyan türk boylarından daha öncə *as//az* boyadı ilə tanınan türk boyları daşbaba gələnəyini Avropa və Altaya aparmışdır, çünki həmin boyların hər iki yönə qədim miqrasiyası Skandinav saqaları (dastanları) və

[126] *Веселовский*, 1915, 22

Göytürk yazıları kimi tarixi bəlgələrlə bəlirlənmişdir, İrəvan çuxurunun *Az* ölkəsi adlanması, *Azərbaycan* adının kökündə duran *azər* və buradan İtaliyaya miqrasiya edən *araz//aras* (etrusk) boyadları da həmin az//as boyadı ilə yaranmışdır.[127]

N. Gəncəvi daşbaba gələnəyinin qıpçaqlar arasında yayıldığını vurğulayır və yazır ki, daşbaba qarşısından keçən hər bir atlı sadağından bir ox çıxarıb sayqı olaraq, onun qarşısına qoyur. M. Xorenatsi də ataların heykəlini *hayreni kurk* (Ñ³ÛÁ»ÝÇ Ïáõéù) adlandırır, Lukian Samosatlı isə «Toksaris və ya dostluq» adlı yazıda dostluğu himayə edən iyələri Toksarın dilindən saqaca (skitcə) *korak* kimi verır.[128] Hər halda *kurk*, *korak* sözlərində *görk, görük, qoruq* deyimlərilə bir yaxınlıq vardır.

Göründüyü kimi, kuman, saqa, göytürk kimi bəzi türk boylarında ölən adamın daşdan bədizini qoymaq gələnəyi olmuşdur. İlk örnəyi 5-6 minil öncə Ön Asiyada türklərin ilkin Atayurdu Azərbaycan və Güney-Doğu Anadoluda (*Abşeron, Qobustan, Astara, Meşkin, Hakkari*) üzə çıxan daşbaba gələnəyini buradan Altaya və Doğu Avropaya aparanlar da türk boylarıdır. Daşbaba gələnəyinin türklərə aid olması isə arxeoloji bəlgələrlə və qədim tarixi qaynaqlarla təsbit olunur.

Arxeoloji ədəbiyatda daşbaba gələnəyinin amacı və anlamı (semantikası) haqqında müxtəlif yorumlar vardır, ancaq bu yöndə ortaq sonuca varmaq üçün mövcud arxeoloji, etnoqrafik, mifoloji və yazılı qaynaqlara dayanmaq gərəkir. Belə bəlgələr isə az deyil, belə ki, 629-659 ilərini qapsayan *Çjouşu, Suyşu, Beyşi* və daha sonralara aid *Sin-Tanşu* kimi Cin xronoloji tarixində və orta çağ səyyahların əsərlərində, Göytürk yazılarında, türk yas kulturunun mifoloji qatında və

---

[127] *Ağasıoğlu,* 2005, 11-22; 2011, 123-127, 156.

[128] *Хоренацu*, 1858, 296; *АИОСК*, 1990, 137-145.

Qırğız elində son çağlara qədər olduğu kimi bəzi türk boylarının etnoqrafiyasında hələ yaşarı olan və arxeoloqların canlı təmasda ola biləcəyi daşbaba bədizləri də ortalıqdadır. Sadalanan qaynaqlardan bir qismini incələyib, oradakı bəlgələrdən yararlanan arxeoloq L. A. Kızlasov yazır: «Beləliklə, indi bəlli faktlar toplusu belə yeganə mümkün yoruma gətirir ki, qədim türklərin yapdığı daş bədizlər yas törənilə bağlı olub, ölən ərənin görkəmini əks etdirir».[129]




Güney-Doğu Anadolu və Azərbaycanın daşbabaları çağından başlayaraq Göytürk daşbabalarına qədər keçən minillər ərzində ümumi görkəm invariantını (qədəh tutmuş sağ əlin, kəmərdəki qılınc-xəncər dəstəyində sol əlin kanonik durumu) saxlayan bu unikal etnoqrafik bəlgənin semantik açımı barədə elmdə hələ ki son söz deyilməmişdir. İlk daş heykəllər sağlığında qəhrəmanlaşmış alp, ərən, boybaşı kimi şəxslər öləndə onların basırığı başında ucaldılmışdır. Kültiginin bədizi bunun bariz nümunəsidir.

Ölənin daşdan heykəlini düzəltmək gələnəyi m.ö. III minilin sonunda Qobustanda göründüyü kimi, bu gələnəyin sumerlərdə də olduğunu qədim «Bilqamıs» dastanı ortaya qoyur. Dostu Enkidu öləndə Bilqamıs belə deyir: «Dostum, sənin boyunu və görkəmini əks etdirən elə heykəl yapacağam

---

[129] *Кызласов,* 1964, 38-39.

ki, indiyəcən heç kim dostu üçün beləsini düzəltməyib».[130] Göründüyü kimi, Ön Asiyada prototürk boyları ilə qonşuluqda tanrılarının bütünü yapan sumerlər də ölən igidlərinə memorial bədiz qoyurmuşlar, ancaq qutsal dirilik suyu ilə dolu qabın ikiəlli tutulması dışında, sumer bədizlərinin türk daşbabalarının ikonoqrafik görkəmində yapılıb-yapılmaması bəlli deyildir.




Basırıqlar yanında qoyulmuş daş bədizlər sırasında rusların *kamennıe babı* adlandırdığı qadın bədizi *daşnənələr* də vardır ki, bu da basırıq yanında bədizlərin məhz ölənin memorial abidəsi olması fikrini təsdiq edir. Zaman keçdikcə daşnənələr qutsallaşıb soyanası simvoluna, ziyarətgaha çevrilir. Daşnənə gələnəyi əsasən qədim kuman (Hakkari) boyları və ortaçağ kuman-qıpçaq boylarında görünür.

Memorial abidələr saydığımız daşbaba şəxsin gerçək antropomorf təsviri kimi dəyərləndirilməlidir. Ədəbiyatda daşbaba görkəminin sadədən mürəkkəbə və mürəkkəbdən sadəliyə doğru təkmilləşmə yolu keçməsi və ya əksinə, heç bir evolyusiyaya uğramaması fikirləri irəli sürülmüşdür.[131] Daşbabanın ikonoqrafik detalları, duruş pozası isə (kəmər, qədəh, xəncər-qılınc, sağ və sol əllərin kanonik yeri) inanc və dünyagörüşlə bağlı şərh olunmalıdır. Əvvəllər kəmərdən aşağı (Abşeron, Astara) qabarıq şəkildə verilən fallos da qədim kuman (Hakkari), saqa (skit) daşbaba bədizlərində əsas atributlardan olsa da, sonrakı türklərdə həmin görüntü abırlı sayılmamış, bu detaldan imtina olunmuşdur.

---

[130] *Эпос о Гильгамеше,* 55.

[131] *Раевский,* 1985, 137.

Kurqan, basırıq yanında beş minil boyu daşbaba bədizi dikəltmək gələnəyinin davam etməsi onun çeşidli görkəm almasına səbəb olmuş, onların simvolik anlamı barədə elmdə müxtəlif yozumlar yaranmışdır. Bəzi alimlər daşbabanı ölmüş soy-boy başçılarının heykəli, bəzi alimlər ölən adamın öldürdüyü düşmənlərinin heykəli, bəziləri basırıq törənində iştirak edənlərin heykəli olması, bəziləri də saqa daş bədizlərində onların ulu babası Tarqitayın təsvir olunduğu fikrini irəli sürmüşlər.[132] Ancaq daşbaba tiplərinin tipoloji stilistik müqayisəsi aydın göstərir ki, bunlar ölən adamın şərəfinə yapılmış və sadəcə, onun görünüşünü əks etdirən antropomorf daş bədizlərdir.


Daşbaba (Tuva)

Daşbabanın ölən adamın bədizi olması onlarda sifət görünüşlərinin fərqli bireylərə (fərdlərə) aid olması ilə də ortadadır. Belə ki, bədizi yapan ustanın ikonoqrafik forma ilə etnoqrafik geyim-kecim, yaraq-yasaq və qədəh türü görüntülərini qabarıq verməsilə yanaşı, bədizi yapılanın özəl görünüşünü də (bığ, saqqal, burun, çənə, göz-qaş, saç) önə çəkməsi daşbabaların müqayisəsində aydın seçilir. Üzündə milli kaloriti duyulan, hətta ovqatı görünən belə bədizlər yüksək dəyərli sənət əsərləridir. Örnəyin, tuvalı bir kişinin bu daşbaba bədizi onun özəl cizgilərini çox qabarıq sərgiləyir.

Daşbaba gələnəyi etnoqrafik baxımdan geniş tədqiq olunsa da, onun mifoloji yükü hələlik elmi yozumunu dəqiq tapmamışdır. L. R. Kızlasov «balbal» sözünün daşbaba üzə-

---

[132] *Войтов*, 92-96; *Мартынов*, 106; *САКИЗВ*, 40-60; *ПСДК*, 282; *Раевский,* 1985, 136-145; *Кубарев*, 1984, 67.

rində deyil, balbalların üzərində yazıldığını qeyd edib yazır ki, ölənin öz yas törənində iştirak etməsi üçün onun daşdan bədizi düzəldilir və guya onun ruhu bu daşa köçür. Beləliklə, ölən adam öz yas törənində iştirak edən adamların arasında olur.[133] Bu yozum maraqlı olsa da, ortaya çıxan bəzi suallara tam cavab vermir, daşbaba üzərindəki ikonoqrafik detalların semantkası açılmır.

Altayda balbal gələnəyinin saqa (skit) çağında ortaya çıxdığını vurğulayan V. D. Kubaryev ilk balballların kurqanlarda, göytürk çağındasa daha çox daşbaba olan yas anıt yerlərində qoyulduğunu əsas fərq kimi qabardır. Halbuki, burada elə də böyük bir fərq yoxdur, hər iki türk toplumu balbalı yas qurğusu (kurqan, basırıq-anıt yeri) olan yerdə dikəltmişlər, yəni balbal qoyma gələnəyinin amacı və sonucu qorunmuşdur. Yazar özü də etiraf edir ki, hər iki çağda balballların düzümü üzü doğuya sıralanmışdır.[134] V. L. Kotviç alayarımçıq yonulmuş *balbal* daşları ilə ölənin özünün görkəmini əks etdirən daşbabalar arasındakı fərqi tarixi qaynaqlar və ortada olan dikili daşlarla izah etmişdir. Beləliklə, ölən şəxsin gerçək görkəmini əks etdirən *daşbaba* və *daşnənə* bədizi ölən kişiyə, qadına aiddir, *balbal* adlanan dikili daşlarsa öldürülən düşməni bildirir.

Beləliklə, tunc çağından üzübəri türk boylarının köç yönlərinin bəlirlənməsində, türkün daş yaddaşının ayrı-ayrı bölgələrə daşınmasında, görkəm tipologiyası, kanonik ikonoqrafiyası ilə etnogenez araşdırmalarında etnik atribut bəlgəsi olmasında daşbaba gələnəyinin Urmu teoriyası baxımından öyrənilməsi çox önəmlidir. Bu yöndə ilk addım olan bu bitik burada bitsə də, mövzu bitmədi, davam etdirənin əlinə sağlıq.

---

[133] *Кызласов,* 1966, 207.
[134] *Кубарев,* 1979, 93-94.

### QAYNAQLAR


*Abdülkadir İnan.* Tarihde ve bugün Şamanizm. II baskı, Ankara, 1972

*Abdülkadir İnan.* Makaleler və incelemeler. I c. Ankara, 1987

*Abu'l-Farac tarihi.* Gregory Abu'l-Farac (Bar Hebraeus). I cild, Ankara, 1987

*Akkermans P.* Archaeology of Syria: from complex hunter-gattereds beforeurban societies (16000-300 BC). Pub.Cambridge Univ. Press, 2004

*Ağasıoğlu F. (Cəlilov).* Azərbaycan dilinin morfonologiyası. B. 1988

*Ağasıoğlu F. C.* Azər xalqı. B. 2000 (I-II basqı); 2005 (III basqı)

*Ağasıoğlu F. C.* Qədim türk elləri. Saqa-qamər boyları. B. 2006

*Ağasıoğlu F. C.* «Doqquz Bitik». Türklərin islamaqədərki tarixi. (əlyazma)

*Ağasıoğlu F. C.* Tanrı elçisi İbrahim. B. 2007; 2009 (türkcə II basqı)

*Ağasıoğlu F. C.* Etrusk-Türk bağı. B. 2011

*Ağasıoğlu F. C.* Qarabağın sehirli bir basırıq xalısı. B. 2012

*Archaeology Magazine.*(The World's First Temple), Nov/Dec. 2008

*Achundov T. İ., Narimanov İ. G.* Neue Forschungen zur Mittleren Bronzezeit in Azerbaidžan. 1996

*Bəhlul Abdulla.* Azərbaycan mərasim folkloru. B. 2005

*Cahiz.* Hilafet ordusunun menkibeleri, türklerin faziletleri. Ankara, 1988

*Cəlal Bəydili.* Türk mifoloji sözlüyü. B. 2003

*Çay A. M.* Türk milli kültüründe hayvan motifleri. I (Koyun ve keçi etrafında oluşan gelenekler), Ankara, 1990

*İbn Fazlan* Seyahatnamesi (hazırlayan Ramazan Şeşen). İstanbul, 1975

*Ingraham M. L., Summer G.* Stelae and Settlments in the Meshkin Shahr Plain, Northeaster (Aserbaijan, Iran Archaeologische Mitteilungen aus Iran), Bd 12. 1979

*Klaproth,* Reise in den Kaukasus. Halle und Berlin I. 1812

*Codex Cumanicus* bibliothecae at templum Divi Marci Venetiarum, ed. Comes Geza Kuun. Budapest, 1880

*Gimbutas M.* Proto-Indo-European Culture: the Kurgan Culture during the Fifth, Fourth and Third Millenia B. C. «Indo-European and Indo-Europeans». Philadeifia, 1970

*Göyüşov R.* Azərbaycan arxeologiyası. B. 1986

*Herodotos*. Herodot tarihi. İstanbul, 1983

*Liu Mau-tsai.* Die chinesischen Nachrichten zur Geschichte der ost-türken (T'ukue). I. Wiesbaden, 1958

*Mahmud Kaşğari*. Divanü Lügat-it-Türk. (tərcümə *Ramiz Əskər*), B. 2006

*Maşkur M. J.* The history of Urartu nation and the discovery of an Urartu inscription in İranian Azerbaijan. Tehran, 1953

*Mellart J.* The neolitic of dhe Near East. L. 1975

*Memiş E.* Eskiçağda türkler. Konya, 2002

*Muradova F. M.* Qobustan tunc dövründə. B.1979

*Oğuznamə*. Rəşidəddin Oğuznaməsi (hazırlayan *İ Osmanlı*). B. 2003

*Orkun H. N.* Eski türk yazıtları. Ankara, 1994

*Russell J.* The Formation of the Armenian Nation. (*University of Los Angeles,* The Armenian People from Ancient to Modern Times), New York: St. Martin's Press, 2004

*Sadi Bayram.* Güney-Doğu Anaduluda prototürk izleri. İstanbul, 1988

*Sagitov M. M.* Başkurt folklorunda hayvanlara tapınma. «TDAY», 1986

*Sevin V.* Hakkari taşları. Çıplak savaşçıların gizemi. İstanbul, 2005

*Schachner A.* Zur Bildkunts des 2. Jahrtausends v. Chr. zwischen Kaspischem Meer und Van-See am Beispiel einer Stele im Museum von Astara (Azerbaycan). «Archäologische Mitteilungen aus İran und Turan», 33, 2001

*Schmidt K.* Sie bauten die ersten Tempel. Das rätselhafte Heiligtum der Steinzeitjäger. München, 2006

*Telegin D.Y.* Kernosovka (Dei di pietra. La grande statuaria antropomorfa nell'Europa del III millenio a.C. Gin.-Milano, 1998

*Təbəri*. Milletler ve hükümdarlar tarihi. I-III, İstanbul, 1991

*Togan A.Z.V.* Umumi Türk Tarihine giriş. I c. (III baskı), İstanb. 1981

*Авдиев В. И.* История Древнего Востока. Л. 1948; 1953

*Авдусин Д. А.* Археология СССР. М. 1977

*Алексеев В. П., Гохман И. И.* Антропология Азиатской части СССР. М. 1984

*Атаниязов С.* Словарь туркменских этнонимов. Ашхабад, 1988

*Веселовский Н. И.* Современное состояние вопроса о «Каменных бабах» или «Балбалах». Зап. Имп. Одесского Об-ва Истории и Древностей, т.32. (Отд. Оттиск).Одесса, 1915

*Ваидов Р. М., Гейушев Р. Б., Гулиев Н. М.* Новые находки каменных баб в Азербайджане. «Археологические открытие 1973 года». М. 1974

*Войтов В. Е.* Каменные изваяния из Унгету. (Центральная Азия: новые памятники письменности и искусств). М. 1987

*Грач А. Д.* Древнетюркские изваяния Тувы. М. 1961

*Гумбатов К. Н.* Забытые курганы. Происхождение азербайджанских тюрков. Б. 1998

*Гумилев Л. Н.* География этноса в исторический период. Л. 1990

*Дашкевич Я. Р., Трыярски Э.* Каменные бабы Причерноморских степей. Коллекция из Аскании-Нова. Варшава, 1982

*Деведжян С. Г.* Лори-берд. Ереван, 1981

*Древние изваяния Сибири*. Путеводитель. Новосибирск, 1980

*Евтюхова Л. А.* Каменные изваяния Южной Сибири и Монголии. (Материалы и исслед. по археологии Сибири), Т. 1. М. 1952

*Заблоцка Ю*. История Ближного Востока в древности. М. 1989

*Иессен А. А.* Кавказ и Древний Восток в IV и III тысячилетиях до н. э. «КСИА», № 93, М. 1963

*Иессен А. А.* Раскопки большого кургана в урочище Уч-тепе. «МИА», №125. М.-Л. 1965

*Иоанн де Плано Карпини*. История Монголов. Перевод А.И. Малеина. СПБ., 1911

*Книга Большому Чертежу.* (Под ред. К. Н. Сербиной). М.-Л. 1950

*Красильников К. И.* Древнее камнерезное искусство Луганщины. Луганск, Шлях, 1999

*Ковалевский А. П.* Книга Ахмеда Ибн-Фадлана о его путешествии на Волгу в 921-922 гг. Харьков, 1956

*Кызласов Л. Р.* Таштыкская эпоха. М. 1960

*Кызласов Л. Р.* О назначении древнетюркских каменных изваяний, изображающих людей. «Сов. археология». №2, 1964

*Кызласов Л. Р.* Чаатасы Хакасии. «Вопросы археологии Хакасии». Абакан, 1980

*Кубарев В. Д.* Древние изваяния Алтая (Оленные камни). Новосиб. 1979

*Кубарев В. Д.* Древние изваяния Алтая. Новосибирск. 1984

*Кубарев В. Д.* Курганы Уландрыка. Новосибирск. 1987

*Лесков А. М.* Курганы: находки, проблемы. Л. 1981

*Малов С. Е.* Шаманский камень *яда* у тюрков Западного Китая. «СЭ», № 1,1947

*Малов С. Е.* Памятники древнетюркской письменности. Тексты и исследования. М.-Л. 1951

*Малов С. Е.* Енисейская письменность тюрков: Тексты и исследования. М.-Л. 1952

*Марр Н. Я., Смирнов Я. И.* Вишапы. Тр. Гос. Академии Истории Материальной Культуры, т. I. Л. 1931

*Мартиросян А. А.* Город Тейшебаини. Ереван, 1961

*Мартынов А. И.* Археология СССР. М. 1982

*Массон Е.М.* Ахангеран. Археолого-топографический очерк. Ташкент, 1953

*Массон В.М.* Первые цивилизации. Л. 1989

*Меликишвили Г. А.* О некоторых наименованиях металлов в древневосточных и Кавказских языках. «ВДИ», №4, 1968

*Мизиев И. М.* Шаги к истокам этнической истории Центрального Кавказа. Нальчик, 1986

*Мизиев И. М.* История рядом. Нальчик, 1990

*Неру Дж.* Взгляд на всемирную историю. 1 т. М. 1981

*Низами Гянджеви.* Собрание сочинений в трех томах. Т. III. Искендер-наме. (Перевод К. Липскерова), Баку, 1991

*Ольховский В. С., Галкин Л. Л.* Культовый комплекс на Устюрте. «СА», №4, 1990

*Ольховский В. С., Евдокимов Г. Л.* Скифские изваяния VII-III в.в. до н.э. М. 1994

*Пиотровский М. Б.* Коранические сказания. М. 1991

*Плетнева С. А.* Половецкие каменные изваяния (Свод археологических источников. Вып. У4-2). М. 1974

*Плетнева С. А.* Кочевники южнорусских степей в эпоху средневековья IV-XIII века. Воронеж, 2003

*Путешествие* в восточные страны Плано Карпини и Рубрука. М. 1957

*Радлов В. В.* Из Сибири. М. 1989

*Раевский Д. С.* Модель мира скифской культуры. М. 1985

*Райс Т. Т.* Скифы. Строители степных пирамид. М. 2003

*Расим Эфенди.* Каменная пластика Азербайджана. Б.1986; 1988

*Рашид ад Дин.* Сборник летописей. II. М.-Л. 1960

*Савинов Д. Г.* Оленные камни в культуре кочевников Евразии. СПб.1994

*Сагалаев А. М.* Мифология и верования алтайцев.Центрально-азиатские влияния. Новосибирск, 1984

*Самойлович А. Н.* Туркология и новое учение о языке.«АН СССР, ХЛВ, Акад. Н. Я. Марру», М-Л. 1935

*Сарианиди В. И.* Древние связи Южного Туркменистана и Северного Ирана. «СА», №4, 1970

*Симокатта Ф.* История. М. 1957
*Уваров С. А.* К вопросу о каменных бабах. «Труды XIII археологического съезда». Т. II. М. 1908
*Хазанов А. М.* Золото скифов. М. 1975
*Халилов Дж. А.* Материальная культура Кавказской Албании. Б.1984
*Халилов М. Дж.* Каменные изваяния Азербайджана (II пол. I тыс. до н. э. - I тыс. н. э. ). AKD, М. 1988
*Халилов М.* Антропоморфные каменные изваяния Карабаха. «Азербайджанская археология», № 1-4, 2004
*Хоренаци М.* Исторiа Арменiи Моисея Хоренскаго. М. 1858
*Форостюк О. Д.* Луганщина релігійна. Луганськ, Світлиця, 2004
*Чириков Г. С.* Каменные бабы в Харьковской губернии. Харьков, 1901
*Шер Я. А.* Каменные изваяния Семиречья. М. 1966
*Энеолит СССР.* М. 1982
*Эпос о Гильгамеше*. М.-Л. 1961

## QISALTMALAR

| | |
|---|---|
| АВИИУ | - Ассиро - Вавилонские источники по истории Урарту. (*Дьяконов И. М.*) ВДИ, №2-3, 1951 |
| АИОСК | - Античные источники о Северном Кавказе. (Сост. *В. Аталиков*). Нальчик, 1990 |
| ВДИ | - Вестник древней истории |
| ИДВ | - История Древнего Востока. М. |
| ИДМ | - История Древнего мира. I-III т. М. 1982-1983 |
| ПСДК | - По следам древних культур. От Волги до Тихого океана. М. 1954 |
| САКИЗВ | - Средняя Азия, Кавказ и зарубежный Восток в древности. М. 1983 |
| СЕВЭС | - Степи Евразии в эпоху средневековья. М. 1981 |
| СИ | - Современный Иран. Справочник. М. 1957 |
| ТУ | - Топонимика Урарту (*Арутюнян Н.В.*). Ереван, 1985 |
| УКН | - Урартские клинообразные надписи (*Меликишвили Г.А.*). М.1960 |
| ЭИАСА | - Этнография и археология Средней Азии. М.1979 |